Xalqın qəzeti!

# Xalq qəzeti

№ 86 (30780) 30 aprel 2025-ci il, çərşənbə

Gündəlik ictimaisiyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan–İran: sabitliyə aparan strateji dialoq



**Azərbaycanın İranla münasibətləri strateji əhəmiyyətə malikdir. Tarixi bağlar, dini və mədəni yaxınlıq, eləcə də regional maraqlar bu münasibətlərin sabit və inkişafyönlü xətt üzrə hərəkətini təmin edir. Prezident İlham Əliyevin və Prezident Məsud Pezeşkianın verdikləri mesajlar bu münasibətlərin çoxtərəfli platformalarda daha da güclənəcəyinə və regional təhlükəsizliyin təminatında birgə səylərin artacağına dair nikbin baxışlar yaradır. İkitərəfli görüş İran – Azərbaycan münasibətlərində yeni bir mərhələnin başlandığını və hər iki ölkənin regional liderlik və həmrəylik baxımından daha sıx əməkdaşlığa hazır olduğunu göstərir.**

Azərbaycan–İran münasibətləri tarix və coğrafiyanın diktə etdiyi bir zərurət olmaqla yanaşı, eyni zamanda, çağdaş beynəlxalq münasibətlər sistemində özünəməxsus strateji konfiqurasiyaya malikdir. İkitərəfli əlaqələrin kökləri təkcə son onilliklərdəki siyasi münasibətlərlə məhdudlaşmır, onun təməli daha qədim tarixi mərhələlərə aid edilir. Hər iki ölkənin xalqları uzun əsrlər boyu ortaq coğrafiyada yaşamış, İslam sivilizasiyasının ortaq dəyərləri ilə formalaşmış və bu baxımdan "sərhəd" anlayışı çox zaman süni siyasi konturdan ibarət olmuşdur.

Bu kontekstdə nəzəri olaraq konstruktivizm yanaşması münasibətlərin təhlilində əhəmiyyətli yer tutur. Konstruktivizm yanaşması dövlətlərarası münasibətləri təkcə maraqlar deyil, həm də dəyərlər, identiklik və qarşılıqlı inanclar sistemi üzərindən izah edir. Azərbaycan və İran arasında "qardaşlıq", "birlik", "İslam həmrəyliyi" kimi anlayışlar diplomatik ritorikadan kənarda daha dərin mənəvi və tarixi assosiasiyalara malikdir. Elə bu səbəbdən də iki ölkənin əlaqələrini yalnız rasionallaşdırılmış siyasi maraqlar kontekstində deyil, həm də ideya və identiklik üzərindən də duymaq mümkündür.

Lakin XX əsrin geosiyasi reallıqları bu tarixi əlaqələri müəyyən dərəcədə zəiflətmiş, SSRİ-nin dağılmasından sonra isə İran və Azərbaycanın münasibətləri yeni müstəviyə keçmişdir. İran üçün Azərbaycanın müstəqillik qazanması həm regionda yeni qonşuluq siyasəti, həm də Cənubi Qafqazda yeni geosiyasi vəziyyətin yaranması demək idi. Azərbaycan üçün isə İran nəinki bir qonşu dövlət, həm də mühüm geoiqtisadi və dini-mədəni tərəfdaş kimi dəyərləndirilməyə başlandı.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan–Çin hərtərəfli tərəfdaşlığı qlobal önəm daşıyır



**Prezident İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibəsində bu ölkənin modernləşməsinin və uğurlu islahatlar aparmasının bir çox dövlətlərə ilham verdiyini, onların inkişafını sürətləndirdiyini, eləcə də Çin təcrübəsindən səmərəli bəhrələnildiyini bildirib.**

Ölkə rəhbəri, eyni zamanda, Azərbaycanda prezidentlik səlahiyyətlərinə başlayanda əsas məqsədinin respublikada siyasi və sosial sabitliyi qorumaq, xalqı yoxsul vəziyyətdən tezliklə çıxarmaq olduğunu da diqqətə çatdırıb: “Sonra biz güclü iqtisadiyyat qurmağa başladıq. Bu gün Azərbaycanın xarici borcu ÜDM-in 7 faizindən azdır. Bizim mübadilə olunan valyuta ehtiyatlarımız xarici borcumuzdan 14 dəfə çoxdur. İşsizlik, yoxsulluq səviyyəsini 5 faizə endirdik, iqtisadiyyatımızı şaxələndirdik. Siz qeyd etdiyiniz kimi, “yaşıl” gündəlik bizim üçün əsas prioritetlərdəndir. Beləliklə, Çin burada çox mühüm rol oynayır. Çünki Azərbaycanda quraşdırılmış Günəş panelləri Çində istehsal olunub”.

Dövlətimizin başçısının müsahibədə səsləndirdiyi rəqəmlərlə bağlı bəzi məqamları burada bir qədər geniş şəkildə diqqətə çatdırmaq istərdik. Belə ki, hazırda ölkəmizin xarici borcunun ÜDM-in 7 faizindən az olması faktı Azərbaycanın uğurlu iqtisadi siyasət yürütməsinin, bu istiqamətdə müəyyənləşdirilən strategiyanın yüksək səviyyədə gerçəkləşdirilməsinin bariz ifadəsidir.

Xatırladaq ki, bu il yanvarın 1-nə ölkəmizin dövlət borcu (daxili və xarici dövlət borcu) 27 milyard 380 milyon manat və ya 2024-cü il üzrə 126 milyard 337 milyon manat məbləğində olan ümumi daxili məhsulun (ÜDM) 21,7 faizini təşkil edib. Ümumi dövlət borcunun 8 milyard 720,5 milyon manatı (5 milyard 129,7 milyon dollar) və ya 31,8 faizi xarici dövlət borcunun, 18 milyard 659,7 milyon manatı və ya 68,2 faizi daxili dövlət borcunun payına düşür.

Maliyyə Nazirliyinin məlumatına görə, yanvarın 1-nə xarici dövlət borcu 5 milyard 129,7 milyon dollar və ya 2024-cü il üzrə 126 milyard 337 milyon manat (74 milyard 315,9 milyon dollar) məbləğində olan ÜDM-in 6,9 faizini təşkil edib. Xarici dövlət borcu xarici valyuta məzənnələrində baş verən dəyişikliklər nəzərə alınmaqla 2024-cü ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 331,5 milyon dollar və ya 20,6 faiz azalıb. 2024-cü il ərzində kredit sazişləri çərçivəsində istifadə olunan vəsait müqabilində 1 milyard 376 milyon dollar məbləğində vaxtı çatmış əsas borc ödənişlərinin, o cümlədən beynəlxalq maliyyə bazarlarında 2014-cü ildə yerləşdirilmiş istiqrazlar (avrobondlar) üzrə 900 milyon dollar məbləğində ödənişlərin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirib.

*(ardı 8-ci səhifədə)*

# Hayastanın “tamamlama siyasəti” çoxdan iflasa uğrayıb



Səhifə ⇨ 4

# Xocalı, sənə ədaləti biz özümüz gətirdik!

**Xocalıya yenə köç gəlir. Tarixin ən amansız soyqırımı aktlarından birinə şahidlik etmiş, yandırılmış, dağıdılmış, bir gecədə yüzlərlə sakini qətlə yetirilmiş və azadlığına qovuşduqdan sonra küllündən doğulan, yenidən qurulan Xocalının mərkəzi meydanında əməlli-başlı qələbəlik var.**

“Şəhid şəhər”in bir ilə yaxındır burada daimi məskunlaşmış ilk sakinləri, Azərbaycan Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin, qeyd olunan ərazilər üzrə Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, jurnalistlər böyük sevinc və coşqu ilə yeni köç karvanını qarşılamağa hazırlaşırlar.

*(ardı 11-ci səhifədə)*



## NATO-nun Gürcüstan təlimində Azərbaycan da iştirak edir



Səhifə ⇨ 10

## TAP 45 milyard kubmetr qaz nəql edib




Səhifə ⇨ 9

## Hindistan-Pakistan: Su qıtlığı qarşıdurmanı artırır



Səhifə ⇨ 15

## Azərbaycan Respublikası Prezidentinin “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2022-ci il 8 aprel tarixli 1658 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 437 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576 (Cild I) 2.20-ci bəndindən “və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti” sözləri çıxarılsın.

**2.** “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 319 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2025-ci il**

## Azərbaycan Respublikasının bəzi səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi ilə bağlı əlavə tədbirlər və “Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsilalma imkanlarının təbliğini və xarici dövlətlərlə təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsini, Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin təhsil müəssisələrində təhsil almasına və təhsil hüquqlarının müdafiəsinə dəstək verilməsini, eləcə də bu istiqamətdə müvafiq əlaqələndirməni təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyində təhsil məsələləri üzrə müşavir vəzifəsi təsis edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 227 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adından “xarici ölkələrdəki” sözləri çıxarılsın;

3.2. 1-ci hissədən “Almaniya Federativ Respublikası,” və “Fransa Respublikası,” sözləri çıxarılsın;

3.3. 2-ci hissəyə “Təhsil Nazirliyinin” sözlərindən əvvəl “Elm və” sözləri əlavə edilsin;

3.4. 3-cü hissəyə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nda dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 235 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I) ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın “8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı” hissəsinin 8.7.11-ci yarımbəndinin “Əsas icraçı orqan (qurum)” sütununda “NMR NK” akronimi “ADSEA” akronimi ilə, “Digər icraçılar” sütununda “ADSEA” akronimi “NMR NK” akronimi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2025-ci il**

# Kəmaləddin Heydərov İordaniyada

**Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərlik etdiyi Nazirliyin nümayəndə heyəti İordaniya Haşimilər Krallığına rəsmi səfər edib.**



Nazir Kəmaləddin Heydərov İordaniya Haşimilər Krallığının Təhlükəsizlik və Böhranların İdarə edilməsi üzrə Milli Mərkəzinin sədr müavini briqada generalı Hatem Odeh Al-Zoubi ilə görüşüb.

Nazir ölkəmizdə fövqəladə hallarla mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, xüsusilə qlobal iqlim dəyişikliyi fonunda təbii fəlakətlərin və texnogen qəzaların geniş vüsət aldığı müasir dünyamızda fövqəladə hallarla səmərəli mübarizə məqsədilə qarşılıqlı təcrübə mübadiləsi, ən qabaqcıl texnologiya və yanaşmaların mənimsənilməsi mühüm əhəmiyyət kəsb edir.

Hatem Odeh Al-Zoubi Azərbaycan və İordaniya arasında mövcud dostluq və sıx əməkdaşlıq münasibətləri çərçivəsində belə səfərlərin və keçirilən görüşlərin hər iki ölkənin fövqəladə halların idarə olunmasına cavabdeh qurumları arasında qarşılıqlı faydalı əlaqələrin inkişafına xüsusi təkan verdiyini vurğulayıb.

Sonra “Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında fəlakət və böhranların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş”in imzalanması mərasimi olub.

Azərbaycanlı nazir səfər çərçivəsində İordaniyanın daxili işlər naziri Mazen Əl-Faraya, İordaniya İctimai Təhlükəsizlik Baş İdarəsinin Mülki Müdafiə İdarəsinin rəisi briqada generalı Mohammad Mahmud Al-Omari ilə görüşüb.

Görüşdə, həmçinin iordaniyalı gənclərin Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Akademiyasında təhsil imkanları geniş müzakirə olunub, təqdimat edilib.

***XQ***

# Ceyhun Bayramovun Birləşmiş Krallığın dövlət naziri ilə dialoqu




**Aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı iki ölkə arasında gündəlikdə duran məsələlər, ikitərəfli və regional əməkdaşlıq mövzuları, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə mina təhdidi barədə məlumatlandırıb. O, Ermənistanla normallaşma gündəliyinə də toxunaraq, Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində əldə olunmuş irəliləyişlər və bu prosesin uğurla yekunlaşmasının qarşısında duran əsas maneələrdən bəhs edib. Ermənistan konstitusiyası və digər qanunvericilik aktlarında ölkəmizə qarşı ərazi iddialarından imtina edilməsinin Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması baxımından müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb.



***

**Aprelin 28-29-da xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə Azərbaycan Respublikasının Hökumət missiyası Banqladeş Xalq Respublikasında səfərdə olub.**

Səfər zamanı Elnur Məmmədov Banqladeş Müvəqqəti hökumətinin Baş müşaviri (Baş nazir) Məhəmməd Yunus tərəfindən qəbul edilib. Nazir müavini Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci il iyulun 3-4-də Azərbaycanda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının 17-ci Zirvə toplantısında xüsusi qonaq qismində dəvət məktubunu Baş müşavirə təqdim edib.

Həmçinin E.Məmmədovun xarici işlər naziri Touhid Hossain ilə ikitərəfli görüşü keçirilib.

Səfər çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Banqladeşin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ikinci raundu keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfdən isə Banqladeş xarici işlər katibi Caşim Uddin rəhbərlik ediblər.

Siyasi məsləhətləşmələr zamanı ikitərəfli və çoxtərəfli siyasi əlaqələrin genişləndirilməsi, iqtisadi-ticarət, enerji, turizm, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

***XQ***

# XİN qərəzli bəyanatı pisləyir



**Aprelin 29-da Avropa Şurasının insan hüquqları üzrə komissarı Maykl O’Flahertinin Azərbaycanda aparılan bəzi istintaq işləri, habelə bu yaxınlarda verilmiş məhkəmə qərarları ilə bağlı səsləndirdiyi qəbuledilməz, əsassız və tamamilə qərəzli bəyanatını qətiyyətlə rədd edirik.**

Bunu XİN-in mətbuat katibi Ayxan Hacızadə Maykl O’Flahertinin Azərbaycan əleyhinə bəyanatını şərh edərkən deyib.

O, sözügedən bəyanatı Azərbaycanın daxili işlərinə və məhkəmə proseslərinə davam edən müdaxilə istiqamətində növbəti uğursuz cəhd adlandırıb.

Ayxan Hacızadə bildirib ki, milli qanunvericiliyə, beynəlxalq öhdəliklərə uyğun olaraq Azərbaycanda insan hüquq və əsas azadlıqlarına təminat verilir və onlara tam hörmət edilir.

“Azərbaycanın öz suveren ərazilərində qanunun aliliyinə verdiyi təminat bəzi şəxslərə peşə fəaliyyətlərinə görə xüsusi imtiyazlar vermir, habelə onları ölkə qanunlarının tələblərinə əməl etməkdən azad etmir.

Biz Avropa Şurasının insan hüquqları üzrə ali komissarını Azərbaycanın müstəqil məhkəmə orqanlarında davam edən araşdırmalara müdaxilə etməkdən, habelə qəbuledilməz təzyiq göstərmək cəhdlərindən çəkinməyə, əvəzində isə diqqəti bir sıra digər AŞ ölkələrində insan hüquqları sahəsində mövcud çoxsaylı sistematik problemlərə, artan İslamofobiyaya, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı ləyaqəti alçaldan rəftara, siyasi təqiblərə, həbsxanalarda baş verən ölüm hallarına, Avropa institutlarında geniş yayılmış korrupsiyaya və s. fokuslanmağa çağırırıq”, - deyə XİN-in rəsmisi vurğulayıb.

***XQ***

# Azərbaycan–İran: sabitliyə aparan strateji dialoq

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin "Azərbaycanla İran arasında əməkdaşlığın dərinləşməsi üçün çox gözəl imkanlar var" fikri də bu münasibətlərin real geosiyasi və strateji kontekstini əks etdirən siqnaldır. Prezidentin ifadəsi ilk növbədə qarşılıqlı etimadın möhkəmləndirildiyini, ikinci növbədə isə yeni əməkdaşlıq formatlarının axtarıldığını göstərir. Gələcək imkanlar enerji, nəqliyyat sahələrində, regional təhlükəsizlik və multilateral diplomatiya sahəsində də açıq görünməkdədir.

İkitərəfli münasibətlərin zərurətini şərtləndirən digər mühüm amil regionda baş verən yeni geosiyasi proseslərdir. Postmüharibə dövründə yaranan yeni reallıqlar, Zəngəzur dəhlizinin gündəmə gəlməsi, Ermənistanla əlaqələr kontekstində İranın balanslı mövqeyi və Azərbaycanla sərhədyanı bölgələrdəki inkişaf təşəbbüsləri bu münasibətlərin daha strateji müstəviyə keçməsini aktuallaşdırır.

Bununla yanaşı, hər iki dövlətin müsəlman ölkəsi olması və İslam həmrəyliyi ideyasına loyal yanaşması İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda qarşılıqlı dəstəklə müşayiət olunur. İranın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi və Azərbaycanın İranın daxili işlərinə qarışmamaq siyasəti də bu münasibətlərin sabit və qarşılıqlı hörmət üzərində qurulduğunu sübut edir.

Azərbaycan və İran arasında qarşılıqlı siyasi dəstək yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmır, həm də beynəlxalq təşkilatlar çərçivəsində davamlı və sistemli əməkdaşlıqla müşayiət olunur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "İstər BMT olsun, istər İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində daim bizim nümayəndələrimiz bir-birinin yanındadırlar."





İlham Əliyevin bəyanatı strateji və funksional koordinasiyanın real göstəricisidir. Burada söhbət yalnız formal iştirakdan yox, çoxtərəfli diplomatiya müstəvisində qarşılıqlı legitimləşdirmə prosesindən gedir.

Beynəlxalq təşkilatlar kontekstində bu əməkdaşlığı izah edərkən neoinstitusionalizm nəzəriyyəsi mühüm rol oynayır. Bu yanaşmaya görə, beynəlxalq təşkilatlar dövlətlər üçün davranış qaydaları, normativ çərçivələr və əməkdaşlıq imkanları yaradan institutlardır. Azərbaycan və İran bu təşkilatlarda bir-birinin suverenliyinə və ərazi bütövlüyünə verdiyi dəstək vasitəsilə həm də qarşılıqlı siyasi öhdəliklərin legitimliyini artırır, beynəlxalq hüququn əsas prinsiplərinə istinadla öz maraqlarını daha güclü müdafiə edirlər.

Digər tərəfdən, konstruktivist yanaşma bu əməkdaşlığın ideoloji və identik aspektlərini vurğulayır. Xüsusilə, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıqda "İslam həmrəyliyi", "qardaşlıq", "postkolonial identiklik" kimi anlayışlar qarşılıqlı dəstəyə ideoloji baza yaradır və Azərbaycanla İranın eyni mədəni-sivilizasion kodlara sahib olmasının çoxtərəfli diplomatiyada təsirini artırır.

Tarixən İran və Azərbaycan xüsusilə müsəlman və inkişafda olan ölkələrin iştirak etdiyi platformalarda eyni blokun üzvləri kimi çıxış ediblər. Məsələn, Qoşulmama Hərəkatı – soyqırımı, imperializm, yeni kolonializm və hegemonluğa qarşı çıxan ideoloji əsaslarla formalaşan bu hərəkat hər iki ölkənin beynəlxalq aləmdə müstəqil siyasət yürütməsinə meydan verir. Azərbaycanın bu hərəkatda 2019–2023-cü illərdə sədrliyi və bu müddət ərzində İranla əlaqələrinin intensivləşməsi çoxtərəfli formatların necə effektiv siyasi alətə çevrilə biləcəyini nümayiş etdirir.

Digər mühüm təşkilat – İƏT, əsasən müsəlman ölkələri arasında həmrəylik və qarşılıqlı yardım mexanizmi kimi çıxış edir. İran və Azərbaycanın burada qarşılıqlı dəstəyi, İslam dünyasında baş verən münaqişələrə ortaq baxış, Fələstin məsələsi və İslamofobiyaya qarşı mübarizədə birgə mövqeləri ortaq dəyərlərin qorunmasına xidmət edir və bu amil beynəlxalq arenada İslam dünyasının vahid mövqe formalaşdırmasına töhfədir.

BMT çərçivəsində isə əməkdaşlıq daha çox beynəlxalq hüquqi prinsiplərin dəstəklənməsi üzərində qurulub. Azərbaycanın ərazi bütövlüyü məsələsində İranın açıq mövqeyi və BMT qətnamələrinə istinad edən yanaşması rəsmi Tehranın Cənubi Qafqazda balanslı və hüquqa əsaslanan mövqeyini göstərir.

ECO – İqtisadi Əməkdaşlıq Təşkilatı – çərçivəsində isə tərəflərin əməkdaşlığı geoiqtisadi müstəviyə keçir. Azərbaycan–İran iqtisadi əlaqələrinin inkişafı üçün bu təşkilat həm enerji, həm də nəqliyyat sahələrində çoxşaxəli imkanlar yaradır. Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin kəsişdiyi məkanda yerləşən iki ölkənin bu platformadakı əlaqələri regionda iqtisadi inteqrasiyanı gücləndirə bilər.

## Regional təhlükəsizlik və diplomatik sinerji

Azərbaycan və İranın beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsi həm də regional təhlükəsizliyin təminatıdır. Prezident Məsud Pezeşkianın fikirləri də bu kontekstdə mühümdür: "Əgər biz müsəlman ölkələri, regional dövlətlər və qonşular, qədim dövrlərdən bir yerdə olmuş qardaş və bacılar əl-ələ verib bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşsaq, dünyaya baxışlarımız qarşılıqlı qaydada razılaşdırılmış olacaq."

Pezeşkiandan gətirdiyimiz iqtibas İranın regional təhlükəsizlik prizmasından əməkdaşlığa baxışını göstərir. Azərbaycanın və İranın regional sabitliyi birgə prioritet kimi görməsi onların üçüncü tərəflərin hegemon təsirindən azad çoxtərəfli diplomatiya formalaşdırmaq cəhdidir və belə əməkdaşlıq formatları, eyni zamanda, bölgə dövlətlərinin kollektiv təhlükəsizlik, enerji təhlükəsizliyi və iqtisadi inkişaf istiqamətində öz resurslarına arxalanaraq strateji muxtariyyət qazanmasına xidmət edir.

Prezident İlham Əliyevin "Burada ... regional təhlükəsizlik məsələləri önəmli rol oynayır" fikri də Azərbaycan–İran münasibətlərinin geosiyasi əsaslarının başlıca elementinə işarə edir. Regional təhlükəsizlik yalnız sərhəd stabilliyinin qorunması ilə məhdudlaşmır, həm də enerji təhlükəsizliyi, etnik və dini balansların sabit qalması, transmilli təhdidlərin qarşısının alınması və regiondaxili qüvvə balansının qorunması anlamını daşıyır.

Regional təhlükəsizlik nəzəriyyəsinə əsasən, Cənubi Qafqaz və Yaxın Şərq qarşılıqlı əlaqəli təhlükəsizlik zonaları kimi çıxış edir və bu yanaşmaya görə, bir regionda yaranan təhlükəsizlik təhdidləri təkcə həmin bölgə ilə məhdudlaşmır, eyni zamanda, qonşu regionlara da yayılaraq daha geniş miqyasda təsir göstərir. Bu baxımdan, Azərbaycan ilə İran arasında münasibətlər yalnız ikitərəfli çərçivədə deyil, həm də bu keçid zonasında baş verən təhlükəsizlik və siyasi proseslərin təsiri altında formalaşır. Regional sabitlik, sərhəd təhlükəsizliyi və transregional təhdidlərə qarşı ortaq mövqe tutmaq zərurəti iki ölkə arasında əməkdaşlıq dinamikasının əsas təməlini təşkil edir. Belə təhlükəsizlik əlaqəliliyi, eyni zamanda, daha geniş regional və beynəlxalq aktorların da maraqlarını hərəkətə gətirir və nəticədə regional diplomatiyada strateji koordinasiyanın vacibliyini ön plana çıxarır.

Tarixi baxımdan Azərbaycan–İran münasibətlərində sərhəd məsələsi daim həssas məqam olub. Lakin müasir dövrdə sərhədlərin qeyri-sabitləşməsi yalnız lokal münaqişə riski yaratmır, həm də geopolitik transformasiyanın alovlanma nöqtəsinə çevrilə bilər. Xüsusilə, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazın yeni reallıqları Azərbaycan və İranın sərhəd təhlükəsizliyində əməkdaşlığını daha vacib etmişdir.

İranın Ermənistanla sərhəd bölgəsindəki maraqları və Azərbaycanın Zəngəzur dəhlizi layihəsi kontekstində regional güclərin maraqlarının toqquşması potensialı yaranmışdı. Lakin Pezeşkianın ifadə etdiyi fikirlər – "Biz birlikdə bölgədə sülh, təhlükəsizlik və əmin-amanlığı təmin edəcəyik…" – bu risklərin qarşılıqlı diplomatik anlayışla minimuma endirilə biləcəyini göstərir və bu amil diplomatiyanın təhlükəsizlik siyasətinə çevrilməsinin bariz nümunəsidir.

## Geosiyasi reallıqlar və siyasi dialoqun dinamikası

Azərbaycanla İran arasında regional təhlükəsizlik prizmasında əməkdaşlıq həm siyasi sabitlik, həm də iqtisadi inteqrasiya baxımından zərurətə çevrilmişdir. Siyasi nəzəri baxımdan bu, neorealist təhlükəsizlik dilemması ilə liberallaşmış qarşılıqlı asılılıq yanaşmasının sintezidir. Tarixi təcrübə, etnik və dini amillər, geosiyasi dinamika və beynəlxalq güclərin bölgədəki təsiri fonunda bu münasibətlərin strateji rasionalizmlə idarə olunması həm Cənubi Qafqaz, həm də Yaxın Şərqdə sabitliyin əsas təminat mexanizmlərindən biridir.

Perspektivlər və gələcək əməkdaşlıq istiqamətləri Azərbaycan–İran münasibətlərində yeni mərhələnin açılması baxımından regionda strateji sabitlik və qarşılıqlı asılılıq şəraitinin formalaşması üçün geniş politoloji və tarixi çərçivədə dəyərləndirilməlidir. Dövlət başçılarının görüşlərində irəli sürülən "gələcək birgə əməkdaşlıq çərçivələri" ifadəsi ikitərəfli əlaqələrin təkamülündə normativ diplomatiyadan real-praqmatik tərəfdaşlığa keçidin göstəricisidir və bu yanaşma həm siyasi diskursda, həm də praktiki siyasətdə rasionalizm və qarşılıqlı faydalılıq prinsipinə əsaslanır.

Enerji sahəsində əməkdaşlıq məsələsi, xüsusilə Xəzər dənizi hövzəsində Azərbaycanın aparıcı enerji ixracatçısı, İranın isə enerji ehtiyatlarına malik lakin sanksiyalarla üz-üzə qalmış oyunçu kimi mövqeləri fonunda fərqli imkanlar açır. Burada diqqətəlayiq məqam odur ki, bu əməkdaşlıq sadəcə ikitərəfli enerji ticarəti ilə məhdudlaşmır, həm də Avrasiya enerji təhlükəsizliyinə töhfə verə biləcək strateji sinerji potensialını ifadə edir. İranın enerji infrastrukturunun Azərbaycan vasitəsilə yenilənməsi və qarşılıqlı elektrik enerjisi mübadiləsi bu kontekstdə texnoloji və siyasi inteqrasiyanın paralel inkişafına yol açır.

Tarixi aspektdən baxdıqda, İran və Azərbaycanın enerji əməkdaşlığı heç də yeni deyil, lakin dəyişən geosiyasi reallıqlar bu əməkdaşlığa yeni məzmun yükləyir. Qərbin İranla nüvə proqramı ilə əlaqədar münasibətlərinin gərgin olduğu bir zamanda İranın region ölkələri ilə iqtisadi və enerji əməkdaşlığını dərinləşdirməsi ona beynəlxalq sanksiyaların təsirini yumşaltmaq və geoiqtisadi manevr imkanlarını artırmaq baxımından vacibdir. Azərbaycan isə bu əməkdaşlıq vasitəsilə həm regional enerji mərkəzi mövqeyini gücləndirir, həm də İran üzərindən digər regional bazarlara çıxış imkanlarını genişləndirə bilər.

Nəqliyyat dəhlizləri kontekstində isə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Zəngəzur dəhlizi kimi layihələr iqtisadi, siyasi və təhlükəsizlik baxımından da strateji əhəmiyyət daşıyır. Şimal-Cənub dəhlizi İran üçün Rusiya bazarlarına, Azərbaycan üçün isə Hind okeanı və Fars körfəzinə çıxış üçün açar rolunu oynayır. Bu dəhliz üzrə əməkdaşlıq regionda çoxqütblü nəqliyyat infrastrukturunun formalaşmasına və alternativ geoiqtisadi marşrutların inkişafına xidmət edir. Zəngəzur dəhlizi isə xüsusilə, Ermənistan və Azərbaycan arasında kommunikasiya xətlərinin bərpası fonunda İran üçün yeni strateji keçid imkanları yaradır. İran bu dəhlizin açılmasını nəzarətində saxlamaqla həm regional tranzit gücünü artırmaq, həm də Türkiyə və Azərbaycanla əlaqələrini tarazlaşdırmaq imkanı əldə edir.

İslam həmrəyliyi məsələsinə gəldikdə, bu aspekt Azərbaycan və İran arasında ideoloji və mədəni yaxınlığın siyasi platformalara da ötürülməsi baxımından əhəmiyyətlidir. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycan və İranın birgə mövqeləri, xüsusilə islamofobiya, Qüds məsələsi və müsəlman ölkələrinin hüquqlarının müdafiəsi kimi məsələlərdə koordinasiyalı çıxış etmələri onların beynəlxalq münasibətlər sistemində daha vahid səsə çevrilməsinə şərait yaradır. Fikrimizcə, bu, İslam ölkələrinin Qərb hegemoniyasına qarşı normativ müqavimət göstərməsinin mümkün modellərindən biri kimi qəbul oluna bilər.

Sərhədyanı əməkdaşlıq və infrastruktur layihələri isə yuxarıda qeyd edilən bütün sahələrin praktik müstəviyə keçirilməsi üçün baza funksiyası daşıyır. İran–Azərbaycan sərhədində sənaye parklarının qurulması, gömrük məntəqələrinin modernləşdirilməsi və sərhəd bölgələrində birgə iqtisadi zonaların yaradılması regional inteqrasiyanın mikro səviyyədə institusionalizasiyası deməkdir. Belə təşəbbüslər də iqtisadi, sosial və humanitar inteqrasiyanın genişlənməsinə xidmət edir, eyni zamanda, dövlətlərarası inamı dərinləşdirir, xalq diplomatiyasına əsaslanan yeni əməkdaşlıq mühitləri yaradır və uzunmüddətli sabitlik üçün möhkəm sosial baza formalaşdırır.

Nəticə etibarilə, Azərbaycan–İran əməkdaşlığının gələcək perspektivləri sadəcə qarşılıqlı faydalılıq üzərində qurulmuş iqtisadi münasibətlərdən ibarət deyil, ikitərəfli münasibətlər artıq regional təhlükəsizlik arxitekturasının, geoiqtisadi keçidlərin və normativ-mədəni yaxınlaşmanın strateji sütununa çevrilməkdədir. Dövlətlərin siyasi iradəsi, praqmatik yanaşmaları və regional çağırışlara uyğun adaptiv siyasətləri əməkdaşlığı dərinləşdirərək onu yeni regional nizamın formalaşmasında təsiredici aktora çevirməyə qadirdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***fəlsəfə doktoru***

# Araz üstündən geriyə baxmadan irəli!

## *İki dövlətin liderləri Bakı görüşlərində xoş niyyət və siyasi qətiyyət nümayiş etdirdilər*

**Bu səfəri hər iki tərəf gözləyirdi. Azərbaycan və İranın siyasi rəhbərliyi səviyyəsində görüşün vacibliyini şərtləndirən amillər kifayət qədər idi. Yaxın qonşuluq, tarixi, dini, mədəni ortaqlıq kimi cəhətlər yüksək səviyyəli görüşə xüsusi önəm, əlahiddə əhəmiyyət qazandırmaqla yanaşı, həm də çoxdan həllini gözləyən bəzi məqamlara aydınlıq gətirilməsi nöqteyi-nəzərindən də diqqət mərkəzində idi. İran Prezidenti Məsud Pezeşkianın Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək, məhdud çərçivədə və geniş tərkibdə görüşlərində çoxdan yığılıb qalmış məsələlərin birgə həlli istiqamətində açıq və səmimi dialoqun şahidi olduq.**

Azərbaycana ilk rəsmi səfərində əməkdaşlığın bütün sahələr üzrə inkişaf etdirilməsinin zəruriliyindən danışan və bunu imzalanan hökumətlərarası 6 müqavilə ilə əməldə nümayiş etdirən M.Pezeşkianın protokol qaydalarını aşan çıxış və açıqlamaları görüşə doğmalıq ab-havası qatması ilə yadda qaldı.

"Mən heç şübhə etmirəm ki, bu səfər bizim münasibətlərimizin inkişafında çox önəmli rol oynayacaq. Biz Prezident Pezeşkianı səbirsizliklə gözləyirdik. Çox təəssüf edirik ki, bir neçə gün bundan əvvəl İranda baş vermiş faciə insan itkiləri ilə nəticələndi. Bir daha qardaş İran xalqına başsağlığı veririk. Allah həlak olanlara rəhmət eləsin, yaralananlara Allah şəfa versin. Bu faciəyə baxmayaraq, Prezident Pezeşkian Azərbaycana öz səfərini gerçəkləşdirir. Biz bunu çox yüksək qiymətləndiririk və Allah xalqlarımızı bu bəlalardan qorusun, həmişə bizim bölgəmizdə sülh olsun, əmin-amanlıq olsun və hər iki ölkə bu istiqamətdə öz səylərini göstərəcək".

Bəli, qonşu ölkənin limanlarının birində baş vermiş müdhiş partlayış və çoxlu sayda qurbanların olması səbəbindən bu səfər təxirə salına bilərdi. Dost gəlişinin bayrama çevrilməsinə mane ola biləcək məqamda o cür qərarı qəbul etdiyinə görə İran Prezidentini qınayan olmazdı. Amma Məsud Pezeşkian bu ağrının üstündən keçməsə də, qardaş və dost ölkəyə ilk gəlişinin vədəsini dəyişmədi. Bu, onun üçün nə qədər çətin olsa da, sözünün üstündə durdu. Azərbaycan Prezidenti birgə mətbuat konfransında iranlı həmkarının məhz bu qərarını yüksək qiymətləndirdiyini dilə gətirdi, eyni zamanda, qonşu İran xalqına başsağlığı verməyi də unutmadı. Bu, səbr və siyasi iradə nümayişi idi. Dövlət başçımızın bu jesti ali qonağın diqqətindən yayınmadı və o, bunu mətbuat üçün veridiyi bəyanatında xüsusi olaraq vurğuladı: "Əziz qardaşım, Prezident İlham Əliyev böyük əzm və iradə nümayiş etdirir. Biz də öz tərəfimizdən, inamımıza, iradəmizə və əzmkarlığa əsaslanaraq, Allahın köməyi ilə əldə olunmuş bütün nailiyyətləri artıracağıq, öhdəlik götürdüyümüz sənədləri icra edəcəyik".

Ardınca isə dövlətimizin başçısı iranlı həmkarı ilə ikitərəfli formatlı danışıqlarda bölgədəki vəziyyət, sülhün dayanıqlı olması, əmin-amanlığın təmin edilməsi, ölkələrin suverenliyi, ərazi bütövlüyü, ölkələrin daxili işlərinə qarışmamaq kimi prinsiplərin üstün tutulduğunu birmənalı şəkildə vurğuladı. Sözdə və əməldə həmrəyliyin nümayişi sayıla biləcək bu açıqlamalar iki prezidentin Bakı görüşlərində aydın şəkildə və hamının başa düşəcəyi dildə ortaya qoyduqları xoş niyyətin və nümayiş etdirdikləri siyasi qətiyyətin təntənəsi idi. Bu ortaq mövqe həm tarixi gerçəkliklərə əsaslanır, həm də müasir geosiyasi reallıqları və iki ölkə arasında diplomatik münasibətlərin normal məcraya salınması üçün göstərilən səyləri özündə ehtiva edir. Nə gizlədək, Azərbaycan dövləti və xalqımız bu səfəri, səmimi görüşü və bədxahlarımızın bağrını yaran isti təmasları intizarla gözləyirdi. Axı, bizi birləşdirən tellər ayırmağa çalışdıqlarından qat-qat çoxdur...

Bakı görüşləri zamanı aparılan danışıqlarda və verilən bəyanatlarda diqqəti çəkən bir incə məqama da toxunmağımız gərəkir. Daha doğrusu, ikili görüşlərdə, mətbuat üçün verdikləri açıqlamalarda dövlət başçılarının yada salmadıqları incə məqamları nəzərdə tuturuq. İran Prezidenti Məsud Pezeşkian "Əziz qardaşım!" deyə müraciət etdiyi Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşlərin heç birində iki ölkə arasında münasibətlərin bəzi hallarda gərginləşməsinə, soyumasına səbəb olmuş hadisə və insidentləri yada salmadı. Keçmişdə baş verənləri elə keçmişdə buraxmağa üstünlük verdiyini göstərdi. Bu, iki qonşu dövlətin başçılarının bundan sonra səmimi qonşuluq və faydalı əməkdaşlıq prinsiplərinə söykənərək, geriyə deyil, yalnız irəliyə – tərəqqiyə, uğura baxaraq getmək niyyətlərlərindən xəbər verirdi.

"Bəzi məqamlar var ki, hələ yazılmayıb. Amma gərəkdir ki, onları da yazaq və imzalayaq, onları mütləq həyata keçirək. Biz bunların həyata keçirilməsinə, icrasına qəti şəkildə qərarlıyıq. Mən həmin qətiyyəti, həmçinin qardaşımızda görürəm. Allahın köməyi ilə digər layihələri bölgə üçün, İranın və Azərbaycanın gələcəyi üçün, hətta Yaxın Şərq bölgəsi üçün birlikdə yaradacağıq".

Məsud Pezeşkian bununla həm də onu demək istəyirdi ki, iki ölkə arasında qaranlıq məqamları aydınlığa çıxaraq və geriyə baxmadan irəli istiqamətlənək. Bu məqamı isə ayrıca qeyd etmək lazımdır. İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Heydər Əliyev Mərkəzində Azərbaycan–İran biznes-forumundakı çıxışını belə bitirdi: "Mən əziz qardaşım, möhtərəm cənab Prezident İlham Əliyevə bizə və ümumiyyətlə, İrandan gələn əzizlərimizə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlıq edirəm. Həqiqətən də, minnətdarlıq ediləsidir. Ümid edirəm ki, bu, növbəti uğurun başlanğıcı olacaq".

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



***Rasim MUSABƏYOV,***
***Milli Məclisin deputatı, politoloq***

– İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri ikitərəfli münasibətlərdə dönüş nöqtəsi ola bilər. Azərbaycan və İran iki qonşu dövlətdir və min ildən çoxdur ki, bizim aramızda tarixi, dini, mədəni bağlar yaranıb. Axı, biz uzun müddət bir dövlətdə yaşamışıq. Doğrudur, son iki əsrdə Rusiya işğalından sonra ayrılmalı olmuşuq. Bu gün ticarət dövriyyəsinin aşağı səviyyədə, əlaqələrin məhdud çərçivədə olması da danılmaz faktlardır. Əslində, bu qüsurların aradan qaldırılması üçün ilkin addımın atılması, davamlı siyasi dialoqun başlanması çox vacib idi. Dövlət başçıları səviyyəsində dialoq baş tutduğu halda, bir çox məsələlər üzrə qəbul edilmiş qərarların icrası hansısa nazirliyin, komitənin dəftərxanasında, yaxud məmurun kabinetində ilişib qalanda münasibətlər də axsamağa başlayır. Həmin maneələri aradan qaldırmaqdan ötrü yüksək səviyyədə dialoqun aparılmasına ehtiyac vardı.

Hesab edirəm ki, Paşinyanın Bakı səfərindən sonra pozitiv addımların atılacağının şahidi olacağıq. Diqqətimizi cəlb edən məqamlardan biri ikitərəfli münasibətlərdə üçüncü tərəfin müdaxiləsinin olmaması, kənar maraqların ortaya atılmamasıdır. Yəni, ikitərəfli münasibətlər yalnız Azərbaycan və İranın müştərək maraqları əsasında formalaşmalıdır. Bu maraqlara Xəzərin bögüsündən tutmuş sərhədyanı layihələrimiz, Araz nəqliyyat marşrutu, su elektrik stansiyalarının, bəndlərin inşası, eləcə də transmilli Şimal–Cənub layihəsi daxildir. Bunların hamısı, təbii ki, həm Azərbaycanın, həm də İranın maraqlarına cavab verən layihələrdir. Düşünürəm ki, bu istiqamətlər üzrə irəliləmək mümkündür. Bütün hallarda Pezeşkianın Bakıya səfəri, burada keçirdiyi görüşlər əməkdaşlığın davamlı olması və genişlənməsinə öz töhfəsini verəcək.

### Ekspert rəyi



***Fikrət SADIXOV,***
***Qərbi Kaspi Universitetinin***
***professoru, politoloq***

– Azərbaycan və İran bölgədə mühüm rola və çəkiyə malik dövlətlərdir. Bu isə özlüyündə regional təhlükəsizliyə təkan verən ciddi amildir. Məhz bu kontekstdən yanaşsaq, İran Prezidentinin Azərbaycana səfəri, burada bir sıra problemlərin müzakirəsi, bir çox sazişlərin imzalanması məhz bu amilin əyani göstəriciləridir. Artıq imzalanmış sazişlər əsasında Azərbaycanda, regionda böyük layihələr həyata keçiriləcək.

Biz onu da başa düşürük ki, İran qonşu dövlətdir, xalqlarımız əsrlər boyu dostluq və qardaşlıq şəraitində yaşayıblar. Prezident Məsud Pezeşkianın Azərbaycana ilk səfərindən sonra bir sıra istiqamətlərdə əməkdaşlığımız güclənəcək. Şübhəsiz, bu, bir reallıqdır. Çünki əldə olunan razılaşmalar həm Azərbaycanın, həm də İranın dövlət maraqlarına cavab verir.

Onu da qeyd etmək lazımdır ki, İranın liman şəhərində böyük faciə baş verdi. Amma buna baxmayaraq, dövlət başçısı Azərbaycana rəsmi səfərini təxirə salmadı. Bu, Azərbaycan xalqına və dövlətinə dərin hörmətin nümayişi sayılmalıdır. Hesab edirik ki, bu səfərdən sonra ikitərəfli münasibətlər yüksələn xətt üzrə inkişaf edəcək. İnkişafa aparacaq bu yolda tərəflərin çox mühüm addımlar atacağına əminik.

# Hayastanın “tamamlama siyasəti” çoxdan iflasa uğrayıb

## *Aİ-yə üzvlük və Moskvadakı paradla bağlı verilən qəfil sual Paşinyanı mat qoydu*



**Nikol Paşinyan iqtidarının bir-biri ilə kəskin ziddiyyətdə olan güc mərkəzləri ilə yaxınlaşmaq istəyi heç kəs üçün sirr deyil. Əlbəttə, biz bölgəyə cəmi 200 il əvvəl köçürülmüş ermənilərin xislətinə bələd olmasaydıq, “yaxınlaşmaq” sözü əvəzinə, “yaxından əməkdaşlıq” sözünü yazardıq. Amma ermənilərinki “yaxından əməkdaşlıq” deyil, məhz “yaxınlaşmaq”dır. Bir qədər də konkretləşdirsək, bu, böyük güc mərkəzlərinə qısılmaq, onların himayəsi altına sığınmaq, özləri üçün “qoruyucu mələk” tapmaqdır. Haylar tarixən çar Rusiyasının timsalında özlərinə arxa-dayaq tapmışdılar. Onların bu bölgəyə köçürülmələri, 1828-ci il martın 21-də (Azərbaycan xalqının təntənə ilə qeyd etdiyi Novruz bayramı günündə) imperator I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqlarının torpaqları əsasında “Erməni vilayəti”nin yaradılması, 1836-cı ildə erməni qriqorian kilsəsinin təhriki ilə müstəqil alban kilsəsinin ləğv olunması Rusiya imperiyasının xidmətidir. Ermənistanda sovet hakimiyyətinin qurulması, Zəngəzur və Dərələyəz kimi tarixi Azərbaycan torpaqlarının onun tərkibinə verilməsi isə bolşeviklərin “əməyinin bəhrəsidir”.**

Bu da paradoksal haldır ki, haylar, eyni zamanda, hələ Sovet İttifaqı dövründə onunla kəskin qarşıdurma şəraitində olan ABŞ, Kanada, Fransa, Yunanıstan, Latın Amerikası, Yaxın Şərqin bir sıra ölkələri, eləcə də Avropa İttifaqı ilə möhkəm əlaqələr qurublar. Onlar okeanın o tayında həm demokratların, həm respublikaçıların qılığına girməyi, həm Senatda, həm Nümayəndələr Palatasıda, həm də Ağ evdə özlərinə lobbiçi tapmağı bacarıblar.

Yeri gəlmişkən, bir məqamı da qeyd etmək istərdik. Hazırda belə bir fikir yayğındır ki, 1915-ci il hadisələri ilə bağlı “soyqırımı” sözünü ABŞ prezidentləri arasında ilk dəfə 2021-ci il aprelin 24-də demokrat Co Bayden işlədib. Halbuki, ondan 39 il öncə – 1982-ci il aprelin 24-də respublikaçı Ronald Reyqan saxta olaylara münasibətdə “soyqırımı” sözündən istifadə edib. Elə məhz Reyqandan sonra ABŞ prezidentlərinin qondarma olayların ildönümü günündə ermənilərə müraciət ünvanlaması adət halına gəlib. Onu da bildirək ki, Reyqanın 1915-ci il hadisələrini “soyqırımı” adlandırması həmin dövrdə Ağ Evin nitq yazıları departamentinə rəhbərlik edən Ken Xaçikyan adlı ermənininin sayəsində mümkün olub. ABŞ-ın 40-cı prezidentinin, yəni Reyqanın əksər çıxışlarının mətnlərini məhz o yazırdı.

Fransa hökuməti də hələ SSRİ zamanında İttifaqın vətəndaşları olan ermənilərlə bağlı məsələ qaldırıb. Ölkənin xarici işlər naziri Kristian Pino hələ 1956-cı ildə İrəvana səfər edib. Ermənistanın dövlət müstəqilliyi¬nin bərpasından sonra Fransa Senatı və Milli Asambleyası qondarma erməni “soyqırımı”nın tanınması ilə bağlı 3 dəfə (1998, 2000 və 2001-ci illərdə) qətnamə qəbul edib. 2006-cı ildə isə Fransa qanunverici orqanı plüralizm və söz azadlığı əleyhinə addım ataraq, uydurma olayların tanınmasının in¬karının cinayət məsuliyyəti yaratdığı barədə qanun qəbul edib. Avropa İttifaqı da dəstədən geri qalmayıb. Qurum hələ 1989-cu ildə – Ermənistan və Azərbaycan xalqları arasında münasibətlərin yenicə kəskinləşməyə başladığı vaxtda ermənilərin mənafeyini müdafiə edən qətnamə çıxarıb.

Təbii ki, bütün bunlar ermənilərin, necə deyərlər, “qara qaşına, ala gözünə” görə baş verməyib. Haylar tarixən böyük güc mərkəzlərinə öz xidmətlərini təklif ediblər. Bu xidmətlərin nədən ibarət olduğu da məlumdur: Bölgədə böyük dövlətlərin maraqlarının müdafiəsi, üç tərəfdən müsəlman ölkələrlə əhatə olunmuş Ermənistanın Şərqdə xristianlığın “qoruyucusu” kimi Azərbaycana və Türkiyəyə qarşı fəaliyyət göstərməsi, bu ölkələrə ərazi iddiası qaldırması, türkofob və islamofob dairələrin əlində vasitə olması, kəşfiyyat-diversiya fəaliyyətinin göstərilməsi və sair. Bütün bu əməlləri haylar son iki əsrdə can-başla yerinə yetiriblər.

Ermənistanın əvvəlki hakimiyyətləri həm Rusiya, həm Avropa və ABŞ, eləcə də İran və Yaxın Şərq ölkələri ilə yaxşı münasibətlərə malik olmalarını vaxtilə “tamamlama siyasəti” adlandırırdılar. Siyasətçilər, regionumuzla maraqlanan analitik və ekspertlər isə bu yanaşmanı haqlı olaraq “eyni vaxtda iki stulda əyləşmək” adlandırırlar. Onlar qeyd edirlər ki, burada məqsəd müxtəlif qüvvələr arasında manevr edərək, son nəticədə öz maraqlarını güdməkdir.

Amma daha bu məsələdə də işlər, necə deyərlər, yağ kimi getmir. Onların iç üzü – xisləti çoxlarına aydın olub. Eyni zamanda, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı Rusiyadan, Qərbdən istədikləri dəstəyi ala bilməyən ermənilər məyus durumdadırlar. Onlar gah Rusiyadan, gah da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından incikdirlər. Sən demə, rus İvan Qarabağa gəlib fərari hayların əvəzinə bizimlə döyüşməli, ya da KTMT suveren torpaqlarını işğaldan azad edən Azərbaycana qarşı tədbirlər görməli imiş. Bu inciklik bir neçə il davam etdi. Amma sonra yenə başa düşdülər ki, Rusiya ilə yaxınlıq olmasa, Ermənistanın dövlət kimi varlığını davam etdirməsi mümkün deyil.

İndi Ermənistan hökuməti yeni “sevda”ya düşüb. Bu da “Aİ sevdası”dır. Onlar özlərini Brüsselə yaxın göstərmək üçün, hətta, qoşulma prosesinin başlanmasına dair tələm-tələsik qanun da qəbul ediblər. Maraqlıdır ki, Aİ-nin heç bir rəsmi nümayəndəsi bu məsələyə münasibət bildirmədi. Bu yerdə “qız evində toydur, oğlan evinin xəbəri yoxdur” atalar sözündən istifadə yerinə düşür.

Digər tərəfdən, Ermənistan hökumətini başçısı həm Aİ-yə üzvlükdən dəm vurur, həm də onunla kəskin qarşıdurma şəraitində olan Rusiyaya səfərə hazırlaşır. Paşinyan mayın 9-da faşizm üzərində Qələbənin 80-ci ildönümünü qeyd etmək üçün Moskvaya səfərə hazırlaşır. Bunlar isə bir-biri ilə ziddiyyət təşkil edən məsələlərdir.

Rəsmi İrəvanın belə naqolay əməlləri birmənalı qarşılanmır. Elə aprelin 28-də Tallində Estoniyanın Baş naziri Kristen Mixal ilə keçirdiyi mətbuat konfransında Paşinyan bununla bağlı verilən sualla pis vəziyyətə düşüb. Jurnalist Nikoldan soruşub ki, Ermənistan hökuməti bir tərəfdən Aİ-yə üzvlüklə bağlı məsələ qaldırıb, eyni zamanda, Aİ-nin boykot etdiyi Moskvadakı paradda iştirak etməyə hazırlaşır. Paşinyan isə dərhal “sudan quru çıxmaq” bacarığını işə salaraq deyib: “Biz heç bir istiqamətdə münasibətlərin pisləşməsini qarşımıza məqsəd qoymuruq. Bizim yanaşmamız daha dərin münasibət qurmaq istədiyimiz, lakin münasibətlərin kifayət qədər dərin olmadığı bütün sahələrdə əlaqələri möhkəmləndirmək üçün suverenliyimizdən istifadə etməkdən ibarətdir. Ermənistan–Avropa İttifaqı münasibətləri də məhz belədir. Əlbəttə, bizim müxtəlif istiqamətlərdə xarici əlaqələrimizdə müəyyən gərginlik ola bilər, lakin biz bu vəziyyəti bütün tərəfdaşlarımıza qarşı şəffaflığımız və dürüstlüyümüz vasitəsilə idarə edirik ki, həyata keçirdiyimiz siyasətdə qaranlıq künc-bucaq olmasın”.

Jurnalistin Azərbaycanla sülhün əldə edilməsinə dair sualına Ermənistanın baş naziri belə cavab verib: “Hökumətimiz gündəlik olaraq bu məsələ üzərində işləyir və biz onun həllinə töhfə vermək əzmindəyik. Sülh müqaviləsi imzalamaq məqsədimizə çatana qədər bu strategiyanı davam etdirəcəyik. Biz bu yoldan dönməyəcəyik”.

Göründüyü kimi, Paşinyan vəziyyətdən birtəhər çıxmağa çalışıb. Amma “Qoca qitə”dəkilər də hərif deyillər. Onlar başa düşürlər ki, Aİ-yə üzvlük Paşinyan iqtidarının oyunudur. Ən yumşaq sözlərlə ifadə etsək, bu, bir siyasi gedişdir. Ermənistan quruma üzv olmaq üçün ən ümdə şərtləri də ödəməyib. Onlar Rusiya ilə əlaqələri qoparmadan Aİ-nin kandarından da keçə bilməzlər. Hayastanın “tamamlama siyasəti”, yaxud güc mərkəzləri arasında balans axtarışları çoxdan fiaskoya uğrayıb. Tallində verilən qəfil sual bunun daha bir göstəricisi oldu.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**Ramiyə MƏMMƏDOVA, “World Panorama” Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq**



– Paşinyan Estoniyaya səfəri çərçivəsində bir sıra görüşlər keçirdi. Bildirdi ki, Aİ-yə üzvlük rəsmi İrəvan üçün prioritet məsələlərdən biridir. Əlbəttə, Ermənistan suveren dövlət olaraq Aİ-yə üzvlüyü prioritet hesab edə bilər. Amma söhbət ondan gedir ki, Aİ hazırda cəlbediciliyini itirib. Qurumun yürütdüyü siyasət onun heç də bütün üzvlərini qane etmir. Aİ bu gün müstəqil hərəkət edə bilmir. Təşkilat ABŞ-ın vassalı kimi çıxış edir. Qurum bir sıra məsələlərlə bağlı, hətta, vahid mövqeyini formalaşdıra və onu müdafiə edə bilmir. Bu gün Aİ özünün müdafiəsini, təhlükəsizliyini təmin etməkdə belə çətinlik çəkir.

Bütün bunları Paşinyan da başa düşür. Bilir ki, Aİ-yə üzvlük olduqca uzun sürən prosesdir. Ortada Gürcüstan, Ukrayna, Moldova nümunələri var. Bu ölkələrin Avroatlantik strukturlara inteqrasiya etmək istəyi onlara baha başa gəlib. Nəticədə onların ərazi bütövlüyü pozulub. Üstəlik, nə Aİ-yə, nə də NATO-ya qəbul ediliblər. Paşinyanın Aİ-yə üzvlüklə bağlı qanun qəbul etdirməsinə rəğmən Rusiya ilə də xüsusilə iqtisadi sahədə əməkdaşlıqdan imtina etməməsi, qonşuların acı təcrübəsini yaxşı mənimsədiyindən xəbər verir.

Digər tərəfdən, Aİ iqtisadi təşkilatdır və hətta, nəzəri baxımdan nə vaxtsa üzv olsalar belə, Paşinyanın ölkəsinin təhlükəsizliyini təmin etməyəcək. Buna görə də Nikol ənənəvi müttəfiqi Rusiya ilə əməkdaşlığa üstünlük verir. Ermənistan hər zaman Cənubi Qafqazda Rusiyanın vassalı olub. İstər çar, istər sovet, istərsə də müasir Rusiya bütün məsələlərdə Ermənistana “stavka” edib. Bu yanaşma Ermənistanın müstəqilliyinin bərpa edilməsindən sonra da dəyişməyib. İrəvan indi də Moskvadan gələn göstərişləri icra edir. Sadəcə, “ikili oyun” oynayır.

Rusiya ilə Ermənistan arasında münasibətləri tənzimləyən və uzunmüddətli dövrü əhatə edən müqavilələr imzalanıb ki, Paşinyan onları ləğv edə bilməz. Heç ləğv etməyi də istəmir. Çünki başa düşür ki, bu halda Ermənistanın dövlət büdcəsi böyük gəlirdən məhrum olacaq.

---

### Replika

# Haylar üçün araba kölgəsi

## *Yaxud Koçaryanın Ermənistanı böyük məzarlığa çevirmək yanğısı*





**“Pis həkimin və pis cərrahın öz böyük qəbiristanlıqları var”. Belə bir fikri Ermənistanın ikinci prezidenti Robert Koçaryan səsləndirib. Onun təkcə bu sözü yox, ümumən son zamanlardakı aktivləşməsinin başlıca məqsədi baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaqdır. Əlbəttə, Koçaryanın müxalif düşərgəsi prosesin necə reallaşacağına dair təsəvvürə malik deyil. Görünür, bununla əlaqədar dəqiq baxış ortaya qoymaq mümkünsüzdür. Hərçənd, Robertin Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanı hakimiyyətdən uzaqlaşdrımaq “təcrübəsi” var. Yada salaq ki, həmin “təcrübədə” başlıca leytmotiv Qarabağ idi. Ter-Petrosyan Qarabağ məsələsində dirəniş göstərməyin səmərəsizliyini anlamışdı və müəyyən güzəştlərə razı idi. Amma..**

Bəli, ömrünü başa vurmuş Qarabağ klanının təmsilçisi olan R.Koçaryanın son günlər ipə-sapa yatmadığı diqqətdən yayınmır. Robertin iki gün əvvəl açıqladığı fikirlərə isə bir neçə cəhətdən yanaşmaq mümkündür.

Birincisi, R.Koçaryan özünü ölkənin hazırkı rəhbəri N.Paşinyandan qat-qat üstün göstərmək istəyir, bir növ, erməni xalqının yalnız ona ümid bəslədiyini bəyan edir. Hiss olunur ki, Robert 2026-cı il seçkilərinə indidən start verib.

İkincisi, Koçaryan sırf Qarabağ avantürasına köklənir. O, erməni xalqının bu avantürizmdən xilasında maraqlı deyil. Vəziyyət təxminən belədir: Sadə ermənilər Azərbaycana münasibətdə, müəyyən mənada, yumşala bilərlər və bu, hazırkı erməni iqtidarı üçün lazımdır. Koçaryan isə həmin yumşalmanın yarana biləcəyini duyur və yenidən ziddiyyətləri körükləyir.

Üçüncüsü, Robert Qarabağ avantürası üzərinə köklənərək, onu erməni milli identikliyinin açar mövzusu halına gətirir. Bu məsələdə Azərbaycan düşmən obrazında təqdim edilir. Belə bir təqdimatda başlıca vurğu “düşmənə heç nə verməmək” inadı üzərinə qoyulur. Diqqət yetirək: Koçaryan özünün on il hakimiyyətdə qaldığını bildirir və həmin müddətdə Azərbaycan Ordusunun, guya, həmişə “yerinə oturdulduğu” məntiqini qabardır. Beləliklə, erməni ordusu barədə mif yaradır.

Dördüncüsü, Koçaryan birbaşa Rusiyaya fokuslandığını göstərir. Belə təəssürat yaranır ki, o, Moskvanın sadə ermənilərin nəzərində aşağı düşmüş nüfuzunu qaldırmaq barədə düşünür. Bu düşüncəni Robertin erməni ordusu barədə yaratdığı miflə çulğalaşdırsaq, Ermənistanın ikinci prezidentinin, əslində, nə qədər miskin ovqat daşıdığını görə bilərik. Mənzərə bir atalar sözümüzü xatırladır: İt araba kölgəsində yatır, elə bilir ki, öz kölgəsidir. Koçaryanın Rusiyaya fokuslanması erməni xalqına araba kölgəsi vədindən başqa bir şey deyil.

Beşincisi, Robertin rəzil təfəkkür tərzini şərtləndirən daha bir məqam onun sanki Rusiyanı yenidən erməni avantürizmi naminə dəstəkçi qismində görməsidir. Məxluq özü də fərqinə varmadan hadisə və prosesləri 10-20 il əvvələ qaytarır. Elə zənn edir ki, yenidən “Miatsum” yaratmaq, mübarizə aparmaq mümkündür. Adam məhz bu baxışla Ermənistana rəhbərlik iddiasını ortaya qoyur, mahiyyətcə ölkə üçün fəlakət simfoniyası ifa edir.

Bir anlıq təsəvvür edək ki, Robert hakimiyyətə gəlib və erməni yaraqlıları 1988-1993-cü illərdə olduğutək Azərbaycan kəndlərində təxribatlar törədirlər. Yaxud onlar Ermənistan ərazisi kimi qəbul olunmuş torpaqlardan ərazilərimizi atəşə tutur, şərti sərhədi keçib işğalçılıq həyata keçirmək istəyirlər. Hazırda bunu təsəvvürə gətirmək istənilən ermənini vəlvələyə salır.

Altıncısı, R.Koçaryanın bildirdiklərində təzad var. O, bir tərəfdən sanki erməni ordusu barədə mif yaradır, daha doğrusu, elə danışır ki, sanki özünün hakimiyyətdə olduğu zaman kəsiyində həmin ordu Azərbaycanın öhdəsindən gəlirdi, sonra isə N.Paşinyanı danışıqlar prosesini pozmaqda günahlandırır. Buradan belə nəticəyə gəlmək mümkündür ki, Nikol özü də aldanmış tərəfdir. Yəni, baş nazir əvvəlki iqtidarın erməni ordusunun mifi barədə dediklərini əsas tutub və məsələn, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verib. Bir halda ki, güc var, başqa nə deyilməli idi ki? Gücün olduğunu bildirən isə R.Koçaryan və dostu, Ermənistanın üçüncü prezidenti Serjik Sarkisyan olmuşdu. Yəni, Paşinyan Robertdən və Serjikdən fərqli olaraq, danışıqlarla vaxt uzatmaq istəməmişdi.

Yeddinci məqama diqqət yetirək. İndi təkcə Koçaryanın yox, ümumən müxalif hay düşərgəsinin bildirdiyi odur ki, Nikol “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verməklə səhvə yol verib, baş nazir belə bir fikir işlətməli deyilmiş. Halbuki, həmin düşərgə Qarabağ deyib vay-şivən qaldırır, bölgəni erməni milli identikliyinin rəmzi olaraq vurğulayır. Belədirsə, nə üçün hay müxaliflərin nəzərində Paşinyanın bəyanatı səhv imiş? Məgər müxaliflər eyni sərsəm fikirlər işlətmirlərmi?

Hər halda, Nikol da uzun sürən Qarabağ danışıqlarının nəticəsizliyini görmüşdü. Diqqətə çatdırdığımız sərsəm bəyanatı da bu səbəbdən səsləndirmişdi. Amma Ermənistan tərəfindən fərqli olaraq, Azərbaycan rəhbərliyi həmişə bildirib ki, danışıqlar prosesi, yəni sülh yolu səmərəsini verməsə, ölkəmiz hərbi gücə üstünlük verəcək. Hə, görünür, Koçaryan kimilərin klassik hay düşüncəsinə nəzərən Paşinyan da Rusiyaya sığınaraq erməni ordusu barədə mif yaratmalı, beləliklə, Qarabağ avantürasını qorumalı idi. Yəni, ortada erməni siyasi düşüncə sistemi adına son dərəcə riyakar mənzərə var. Ən pisi isə budur ki, bu mənzərəni yaradanlar Ermənistanda hakimiyyətə iddialıdırlar. İddialıların başında duran isə Koçaryandır.

Sonda yenidən Koçaryanın “Pis həkimin və pis cərrahın öz böyük qəbiristanlıqları var” fikrinə qayıdaq. Məlumdur ki, onun düşüncəsindəki pis həkim də, pis cərrah da Paşinyandır. Bu “həkim-cərrah” 44 günlük müharibə ilə Ermənistanı qəbiristanlığa çevirdi. Robertin də ölkəsi baxımından irəli sürə biləcəyi başqa perspektivlər yoxdur. O, hakimiyyətə Qarabağ avantürası üzərində gəlməyi düşünür, açıq şəkildə dilə gətirməsə də, revanşizmi təlqin edir. Sanki, Azərbaycan 1988-1993-cü illərin Azərbaycanı imiş. Nəzərə alaq ki, Robert özünün ucuz populizmini tələbə-gənclərlə görüşdə aşılayır. Bir anlıq onun yenidən hakimiyyətə gəldiyini düşünək. Bu düşüncənin məntiqi yekunu olaraq gözümüz önündə yalnız bir mənzərə canlanır: Ermənistan adlı daha böyük qəbiristanlıq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Heydər Əliyev: Bizim İranla əlaqələrimiz xüsusi xarakter daşıyır

## *Zaman Ulu öndərin bu qiymətinin düzgünlüyünü bir daha təsdiqləyir*

**Yadımdadır, Ümummilli liderimiz jurnalistlərlə söhbətlərindən birində demişdi ki, həm Bakının, həm də Tehranın qarşısında duran əsas vəzifələrdən biri də qarşılıqlı anlaşmaya nail olmaq, mehriban qonşuluq prinsiplərinə əməl etmək, hər iki tərəfin maraq və mənafelərinə cavab verən əməkdaşlıq sahələrini tapmaq, yaratmaq, inkişaf etdirməkdir. Çünki Allah bizi qonşu yaradıbsa, biz həmin iradəyə qarşı gedə bilmərik. Əlavə edirdi ki, İran heç zaman buradan heç yerə köçüb getməyəcək, bizim də elə bir fikrimiz yoxdur. Ona görə də keçmiş əsrlərdə mövcud olmuş dostluq, qardaşlıq əlaqələrini nəinki qorumalı, həm də inkişaf etdirməliyik.**

**Allah-təala bizə bu aqibəti veribdir. Allah-təala bizi həmişə bir olmağa dəvət edibdir, biz də bir olmuşuq. Müəyyən səbəblərdən, məsələn, XIX əsrin əvvəllərində biz İrandan ayrılmışıq. İran da Azərbaycandan ayrılıbdır. Bu ayrılıq dövründə də biz bir-birimizdən ayrılmamışıq, bir yerdə olmuşuq.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin İran İslam Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdəki söhbətindən**

**Bakı, 20 iyul 2001-ci il**



Ulu öndər İran rəsmiləri ilə görüşəndə həmişə Bakının Tehranla əməkdaşlığa sədaqətli olduğunu xatırladırdı: “Azərbaycan Prezidenti kimi mən dəfələrlə qeyd etmişəm ki, İran dünyanın böyük, qüdrətli və çox qədim tarixə malik olan ölkələrindən biridir. İran xalqı dünya mədəniyyətinə, dünya sivilizasiyasına böyük töhfələr vermişdir. Bizim üçün, Azərbaycan üçün isə İran həm dostdur, həm qardaşdır, həm də qonşudur. Bunun da böyük tarixi var... Bizim tariximizin, əlaqələrimizin xüsusiyyəti ondan ibarətdir ki, dostluğumuzun, qardaşlığımızın dərin kökləri vardır. Bizi bir-birimizə bağlayan milli-mənəvi, dini ənənələrimiz vardır”.

... Biz məmnunuq ki, Prezident İlham Əliyev də Ulu öndərin xarici siyasət kursunun mühüm tərkib hissələrindən olan Azərbaycan – İran münasibətlərinin daha da yaxşılaşdırılması istiqamətində daim uğurlu addımlar atır. Biz bunu dövlət başçımızın İran İslam Respublikasının mərhum Prezidenti İbrahim Rəisi ilə qurduğu dostluq və tərəfdaşlıq münasibətlərində də gördük, indiki Prezident Məsud Pezeşkianla olan səmimi əməkdaşlıqda da. Təsadüfi deyil ki, cənab Məsud Pezeşkian prezident seçildikdən dərhal sonra ilk telefon danışıqlarından birini Azərbaycan Prezidenti ilə etmişdi. Prezident İlham Əliyev də iranlı həmkarını Azərbaycana səfərə dəvət etmişdi.

Bu da səbəbsiz deyil. Çünki bu gün dünyanın hər yerindəki mütərəqqi düşüncəli insanların hamısı Prezident İlham Əliyevin siyasi uzaqgörənliyini, liderlik məharətini və beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslərə adekvat münasibət bildirmək bacarığını yüksək qiymətləndirir. Biz bunu Amerika qitəsində də gördük, Asiyada da ( bu məqamda dövlət başçımızın Çin Xalq Respublikasına uğurlu səfərinin nəticələrini xatırlatmaq kifayətdir). Bütün bunların fonunda rəsmi Tehranın Azərbaycanla əməkdaşlığı zamanın tələbləri səviyyəsinə qaldırmaq istəyi tamamilə təbii və başadüşüləndir.

Bu zaman biz başqa bir mühüm faktı da yada salmalıyıq. Belə ki, Prezident İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsindən dərhal sonra bəyan etmişdi ki, regionun problemlərinin həllinə dünyanın hansı tərəfindənsə, kiminsə gəlib müdaxilə etməsinə imkan verməmək üçün biz 3+3 variantını məqbul sayırıq. Yəni, bütün problemlər regionun altı dövləti tərəfindən həll edilməlidir. Həmin dövrdə Bakıya gələn İran rəsmiləri Azərbaycanın o təklifini dəstəklədiklərini bildirirdilər. İndi isə İran həmin təklifi dəstəkləməklə kifayətlənmir, onun həyata keçirilməsini tələb edir. Bu isə Azərbaycan Prezidentinin siyasi uzaqgörənliyinin növbəti təzahürüdür.

Ekspertlər yazırlar ki, İranın 12 dövlətlə quru sərhədləri var. Ancaq ən etibarlı sərhəd Azərbaycanladır. 44 günlük müharibədən sonra – 2020-ci ilin noyabrın 16-da Prezident İlham Əliyevin Xudafərinə səfəri və Xudafərin körpüsünü “Dostluq körpüsü” adlandırması cənub qonşumuzda hamı tərəfindən alqışlanmışdı.

Ancaq həm Bakıda, həm də Tehranda daha çox alqışlanan başqa bir məqam da var. Bu isə rəsmi Bakının İrana münasibətinin hər zaman xoşməramlı olmasıdır. Mütəxəssislərin fikrincə, Azərbaycanın əsas mövqeyi dövlətlərin dinc yanaşı mövcudluğu, daxili işlərə qarışmamaq, hər iki xalqın seçiminə hörmətlə yanaşılması və mehriban qonşuluq siyasətinin qorunmasından ibarətdir.

Sonda onu da xatırladaq ki, Azərbaycan dövləti sərhəd qonşularımız Türkiyə, Rusiya və İranla həmişə ən yüksək səviyyəli təmaslara həm təşəbbüs göstərib, həm də evsahibliyi edib. Yəqin ki, 2016-cı ildə Bakıda, 2017-ci ildə Tehranda keçirilmiş Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli Zirvə görüşlərini heç kəs unutmayıb.

Sonda dövlət başçımızın 2017-ci il noyabrın 1-də Tehranda Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli Zirvə görüşündə səsləndirdiyi fikirləri xatırladırıq: “Üçtərəfli format iqtisadi əməkdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması üçün yaxşı imkan yaratmışdır. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu gündəlikdə olan vacib məsələlərdəndir. Qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya və İran ilə ticarət dövriyyəsi 2017-ci ilin yanvar-sentyabr aylarında 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Gələcəkdə biz bu müsbət dinamikanı saxlamalı və artırmalıyıq. İrandan və Rusiyadan Azərbaycan iqtisadiyyatına qoyulan sərmayənin həcmi artır... Üç ölkə arasında əlaqələrin uğurlu inkişafının nəticəsi olaraq biznes dairələri də daha inamla sərmayə qoymağa başlamışlar. Ümid edirəm ki, bugünkü Zirvə görüşü də ölkələrimizin biznes dairələrinin daha da ruhlandırılmasına və qarşılıqlı sərmayə qoyuluşunun artırılmasına xidmət edəcək”.

Biz isə ümid edirik ki, cənab Prezident Məsud Pezeşkianın Bakı səfəri də ölkələrarası əməkdaşlığa yeni stimul olacaq, daha geniş üfüqlərin açılmasına zəmin yaradacaq.

***İttifaq MİRZƏBƏYLİ***

# Qlobal Cənub QHT-ləri “ikili standartlar”ı ittiham edir

**Bakıda keçirilən “Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi” adlı forum aprelin 29-da işini panel iclaslarla davam etdirib.**



COP29-un Azərbaycan üzrə Gənclər İqlim Çempionu, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı Katibliyinin rəhbəri Leyla Həsənova və Bərpa Olunan Enerji və Enerji Səmərəliliyi üzrə Ərəb Platformasının prezidenti Kamel Esseghairinin moderatorluğu ilə keçirilən paneldə “Artıq ikili standartlar yoxdur: QHT-lər katalizator kimi, Qlobal Cənubda ədalətli inkişaf” mövzusunda müzakirələr aparılıb.

Paneldə çıxış edən İqlim Fəaliyyətləri üçün Liberiya Gəncləri səfiri Ezekiel Nyanfor ikili standartların aradan qaldırılması və ədalətli inkişaf baxımından forumun körpü rolunu oynadığını bildirərək deyib: “Cənub və Şimal coğrafiyalarının öz problemlərini bölüşmələri üçün buranın ideal platforma olduğunu düşünürəm. Hər iki tərəf ikili standartlardan uzaqlaşmalıdır”.

Bəhreynin Birgə Yaşayış Proqramı üzrə Baş jurnalisti Fatima Al Najem qeyd edib ki, Azərbaycan Qlobal Cənubun səsini dünyaya çatdırmaq üçün çox önəmli platforma yaradıb. Bu təşəbbüs yalnız siyasi və diplomatik əhəmiyyət daşımır, bu, eyni zamanda, QHT-lərin öz aralarında dialoq qurmaları, təcrübə bölüşmələri və birgə fəaliyyət göstərmələri üçün dəyərli məkandır. Bu platforma bizi birləşdirən, bizi gücləndirən yoldur.

Serbiyanın İnsan Hüquqları Uğrunda Gənclər Təşəbbüsünün hüquq müdafiəçisi Petkoviç İsidora beynəlxalq münasibətlərdə ikili standartların artıq adi hal aldığını vurğulayıb. Onun sözlərinə görə, insan haqları, iqlim ədaləti, inkişaf hüququ kimi anlayışlar bəzi ölkələr üçün prinsip, digərləri üçün isə, sadəcə, vasitə kimi istifadə olunur.

Belarus Gənclər Təşkilatları Komitəsinin sədri Pavel Alekso gəncləri gələcəyin qurucuları kimi dəyərləndirib. O qeyd edib: “Belarus gənclər təşkilatları ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində bizim gənclərimiz bir çox təşəbbüslərdə fəal iştirak ediblər. Bu da göstərir ki, gənclər sərhəd tanımırlar. Onların potensialı beynəlxalq əməkdaşlıq vasitəsilə daha da güclənir”.

Cibutinin "Bab Et Mandeb" Assosiasiyasının nümayəndəsi Abdira Gueh Ragueh yoxsul ölkələrin inkişaf etmələri üçün maliyyə dəstəyinin vacibliyini qeyd edib. Deyib ki, əsl dəyişiklik, əsl davamlı inkişaf yerli səviyyədə, xalqın içindən çıxan həll yolları ilə baş verir. İqlim dəyişikliyi ilə mübarizə üçün ən effektiv yanaşmalardan biri lokal resurslardan istifadə, yerli biliklərə və təcrübəyə əsaslanmaqdır. Çünki hər bir cəmiyyətin özünəməxsus şəraiti və ehtiyacları var.



Niger Milli Gənclər Şurasının nümayəndəsi Aliou Omarou qeyd edib ki, münaqişələr, çətinliklər ən çox yerli əhaliyə təsir edir. “Mənim ölkəmin olduğu bölgə - Sahel və Qərbi Afrika iqlim dəyişikliyindən ən çox əziyyət çəkən coğrafiyalardan biridir. Amma Qərb ölkələri bu vəziyyətə, sadəcə, baxmaqla kifayətlənirlər. Bizim torpaqlarımız qızıl, uran, neft, qaz və digər təbii ehtiyatlarla zəngindir. Ancaq bu sərvətlər bizə firavanlıq yox, istismar gətirib”, - deyə o bildirib.

Panel iclası müzakirələrlə davam etdirilib.

*

Forum çərçivəsində “Sərhədləri aşmaq: firavan gələcək naminə D8 əməkdaşlığı” mövzusunda panel müzakirəsi təşkil olunub.

İclasın moderatoru, Azərbaycan Respublikası Gənclər Fondunun şöbə müdiri Orduxan Qəhrəmanzadə olub. Onun sözlərinə görə, Azərbaycanın D8-ə üzv olması bizim üçün tarixi bir addımdır. Bu, təşkilatın yaranmasından sonra baş tutan ilk genişlənmə hadisəsidir. Bu fakt Prezident İlham Əliyevin uğurlu və ardıcıl xarici siyasətinin bariz göstəricisidir.

Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin sədri Hüseyn Böyükfırat qeyd edib ki, bu gün dünyada ən çox ehtiyac duyulan dəyərlər D8 bayrağında ifadə olunan altı əsas prinsipdə əks olunub. Bunlar müharibə yox, sülh, münaqişə yox, dialoq, ikili standartlar yox, ədalət, üstünlük yox, bərabərlik, istismar yox, əməkdaşlıq, zülm və hökmranlıq yox, insan haqları, demokratiya və azadlıqdır. Bu prinsiplər yalnız D8 ölkələri üçün deyil, bütün dünya üçün vacibdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov bildirib ki, D8 alyansı tərkibində 10 milyon nəfər əhalisi olan ölkədən tutmuş 300 milyona yaxın əhalisi olan dövlətlər yer alır və bu müxtəliflik böyük potensial deməkdir. Onun sözlərinə görə, bu təşkilat qlobal həmrəylik və qarşılıqlı inkişaf üçün mühüm platforma ola bilər..

Ərəb Dövlətləri Liqasının Ətraf Mühit və Meteorologiya İdarəsinin direktoru Mahmud Fəth-Allahın fikrincə, inkişaf etməkdə olan ölkələrin - Qlobal Cənubun beynəlxalq təşəbbüslərdə iştirakı bilik və öhdəliklərin paylaşılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu iştirak qlobal siyasət və qərarların daha inklüziv və müxtəlif baxışları əhatə etməsinə imkan yaradır. O bildirib ki, Qlobal Cənub ölkələrinin beynəlxalq platformalarda fəal iştirakı onların səslərinin eşidilməsini təmin edir və qlobal qərarlara təsir imkanlarını artırır. Bu, həmçinin onların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

İqlim dəyişikliyi üzrə fəal Olumide Idovu diqqətə çatdırıb ki, D8 təşkilatı yoxsulluq, iqlim dəyişikliyinin təsirləri, rəqəmsal bərabərsizlik, ticarət balanssızlığı və digər qlobal çağırışlar daxil olmaqla, Qlobal Cənub ölkələrinin üzləşdiyi ədalətsizliklərə qarşı mübarizədə və onlara cavab verilməsində vahid cəbhə kimi çıxış edir. Ekofəal qeyd edib ki, hazırda keçirilən tədbirlər və müzakirə olunan mövzular D8 əməkdaşlığının firavan gələcək naminə necə gücləndirilə biləcəyini göstərir.

Digər çıxış edənlər Banqladeşin SETU təşkilatının icraçı direktoru Abdul Quader, İnformasiya Texnologiyaları və Açıq Mənbə Assosiasiyasının nümayəndəsi Irvan Nanda, Gənc Sülh və İnkişaf Korpusunun (YPDC) üzvü Adnan Ullah, Malayziyanın “Generation Nexus” təşkilatının nümayəndəsi Muhammad Naufal Qlobal Cənub ölkələrinin birgə əməkdaşlığının və inkişafının vacibliyini vurğulayıblar. Onlar rəqəmsal bərabərlik, gənclərin sülh və inkişaf proseslərinə cəlb edilməsi, həmçinin sosial bərabərlik və inklüzivlik prinsiplərinin təşviqinin Qlobal Cənubun dayanıqlı inkişafı üçün əsas amillər olduğunu qeyd ediblər. Eyni zamanda, texnoloji bərabərliyin təmin edilməsi, gənclərin liderlik bacarıqlarının inkişafı və ortaq gələcək üçün güclü tərəfdaşlıq yaradılması yolları ətrafında fikir mübadiləsi aparılıb.

Panel iclas müzakirələrlə davam etdirilib.

*

Forum çərçivəsində Azərbaycan qeyri-hökumət təşkilatları (QHT) və beynəlxalq QHT-lər arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Müxtəlif ölkələrdən gələn QHT nümayəndələri ilə əməkdaşlıq memorandumları imzalanıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi Çin və Özbəkistan nümayəndəlikləri ilə əməkdaşlıq barədə razılıq əldə edib. Bundan əlavə, Azərbaycanın müxtəlif QHT-ləri də beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq sənədləri imzalayıblar.

İmzalanan memorandumlar müxtəlif sahələrdə - insan hüquqları, sosial rifah, iqlim dəyişikliyi, əlilliyi olan şəxslərin hüquqları və vətəndaş cəmiyyətinin gücləndirilməsi istiqamətində birgə layihələrin reallaşdırılmasını nəzərdə tutur.

***XQ***



# Postmünaqişə mərhələsində uğurlu liderlik

IV MƏQALƏ

## İlham Əliyev təcrübəsi (2003–2020-ci illər)

Prezident İlham Əliyevin siyasi təcrübəsini ümumi səviyyədə üç aspektin qarşılıqlı əlaqəsində dərk etmək olar: Birincisi, həmin təcrübənin Azərbaycan siyasi mədəniyyəti kontekstində öncəki nəsillərin təcrübəsinin davamı kimi. İkincisi, yeni siyasi nəsil üçün bu təcrübənin hazır fəaliyyət şərtləri və qaydaları nümunəsi kimi. Üçüncüsü, Prezidentin siyasi təcrübəsi yeni siyasi dəyərlər və normalar yaradan uğurlu fəaliyyət kimi.

Birinci aspekt Azərbaycanın liderlik ənənəsində siyasi varisliyi ifadə edirsə, ikinci aspekt XXI əsrin çağırışları fonunda Azərbaycanda uğurlu liderliyin ümumi siyasi kriteriyaları və qaydaları nümunəsinin yaradılmasını əhatə edir, üçüncü aspekt isə konkret olaraq yeni siyasi dəyərlər və normalara aiddir. Politologiya elmi prizmasında bu üç aspektin sintezi liderin fəaliyyət mühiti (siyasi mədəniyyət sistemi), fəaliyyətin əsas siyasi parametrləri (şərtlər və qaydalar) və həmin fəaliyyətin kreativliyi (liderin yaradıcı fəaliyyəti sayəsində yeni siyasi dəyərlər və normaların formalaşması) vəhdətini ifadə edir.

Lakin, zənnimizcə, vurğulanan faktorların vəhdəti də realpolitika müstəvisində siyasi təcrübənin mövcudluğunu tam əks etdirmir. Onlara cəmiyyət və dövlət naminə əldə edilən müsbət nəticələr də əlavə olunmalıdır. Çünki liderin fəaliyyət mühitində mövcud şərtlər və qaydalar praktiki olaraq yeni dəyərlər və normaların formalaşması ilə yekunlaşmırsa, siyasi təcrübə prosessuallığını itirir – o, fraqmentar formada müəyyən müddət mövcud olaraq qalır və sonra cəmiyyətin siyasi səhnəsindən silinir.

Deməli, siyasi təcrübə konkret müsbət nəticələri olan mürəkkəb və çoxəhatəli prosesdir. Vurğulanan şərtlər daxilində Azərbaycanın dövlət başçısı və lideri İlham Əliyevin 2003-2020-ci illəri əhatə edən fəaliyyətinə baxsaq, onun başlıca fərqləndirici keyfiyyətlərini müəyyənləşdirə bilərik.

### Daxili birliyin təmini

XXI əsrin başlanğıcında Azərbaycan cəmiyyəti üçün daxili birlik (və ya toplumsal həmrəylik) çox aktual məsələ idi. Əslində, cəmiyyətdə həmrəylik və ümumiyyətlə, azərbaycanlıların həmrəyliyi məsələsi müstəqil dövlət quruculuğu üçün həmişə aktual olmuşdur. XXI əsrin başlanğıcını ona görə bu mövzuda xüsusi ayırırıq ki, birincisi, 2003-cü ildə Azərbayanda lider taleyin hökmü ilə dəyişdi, ikincisi, həmin dönəmdə qlobal geosiyasi dinamika olduqca mürəkkəb idi. Azərbaycanda İlham Əliyevin çox təcrübəli, məharətli və yüksək zəka sahibi Heydər Əliyevi necə əvəz edəcəyi məsələsi onda çoxlarına aydın deyildi. Bundan başqa, kənardan olan təxribat xarakterli təsirlər cəmiyyətdə Ulu öndərin formalaşdırdığı multikultural mahiyyətli birliyi poza bilərdi. Bu səbəbdən prezident kimi fəaliyyətə başlayan İlham Əliyevin siyasi etibar və etimadı qazanaraq, bütün cəmiyyəti sıx birləşdirməsi və dünya azərbaycanlılarının həmrəyliyini yeni səviyyəyə qaldırması aktual vəzifə idi.

Təcrübə göstərdi ki, Azərbaycan Prezidenti bu vəzifənin öhdəsindən tam gələ bilmişdir. Həmin faktı siyasi liderlər və tədqiqatçılar II Qarabağ müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsini təmin edən faktorlar sırasında xalqın birliyi və Prezident–Xalq həmrəyliyi kontekstində ayrıca vurğulayırlar. Bu zaman, İlham Əliyev birliyi təmin edən yeni siyasi dəyərlər və normalar da yaratmışdır. Məsələnin bu aspekti çox əhəmiyyətlidir.

### Yeni siyasi dəyərlər

Həmin dəyərlər azərbaycançılıqla multikulturalizmin sintezində formalaşdırıldı. Onların motivəedici mexanizmini isə milli ideya təşkil etmişdir. Milli ideyanın "ərazi bütövlüyünün təmini kimi" həyata keçirilməsi prosesində azərbaycançılıqla multikulturalizmin qarşılıqlı münasibətlərində yaranan yeni siyasi dəyərlər İlham Əliyevin xidməti idi. O sırada yeni birləşdirci dəyərlər kimi müstəqil dövlətçiliyə bağlılıq duyğusunun tərbiyəsini və gənclərin milli kökə sədaqətini ifadə edən vətənsevərliyin daha da inkişaf etdirilməsini göstərə bilərik. Politoloji baxımdan maraqlıdır ki, bu iki mühüm faktorun reallaşmasında istiqamətverici və stimullaşdırıcı rolu Azərbaycan liderinin 2003-2020-ci illərdə var gücü ilə müxtəlif səviyyələrdə dövlətin müstəqilliyini müdafiə etməsi oynamışdır.

Onun bariz nümunəsi kimi, Prezident İlham Əliyevin Avropa İttifaqı ilə münasibətlərin inkişaf etdirilməsində tam müstəqil mövqe tutmasını göstərə bilərik. 2013-cü ildə İlham Əliyev Aİ-yə assosiativ üzvlüyü rədd edən təkliflər paketini Brüsselə təqdim etdi. O dönəmdə bir sıra postsovet respublikaları isə assosiativ üzv olmağa can atır və bunu yeganə düzgün seçim hesab edirdilər. Sonrakı illərdə baş verən hadisələr göstərdi ki, Azərbaycan lideri tam haqlıdır və indi assosiativ üzvlüyə can atan dövlətlər seçimlərini dəyişməyə çalışırlar.

Bu proseslərin fonunda azərbaycanlı gənclərin vətənsevərlik duyğuları da daim inkişaf etmişdir. Bu keyfiyyətin əyani təzahürü Vətən müharibəsində özünü tam göstərmişdir. Azərbaycan vətəndaşları olan gənclərimiz savaş meydanına, sözün həqiqi mənasında, axışdı. Təsadüfi deyildir ki, müharibənin gedişində bir nəfər də olsun Azərbaycan əsgəri fərarilik etmədi. Dünya hərb tarixində belə faktlara böyük önəm verirlər. Tam aydın oldu ki, XXI əsrdə azərbaycanlı gənclərin milli vətənpərvər və vətənsevər ruhda tərbiyəsi uğurlu olmuşdur.

### Yeni siyasi normalar

Öncə "siyasi norma" anlayışının politoloji anlamına baxaq. Tərifə görə, siyasi normalar siyasi sistemdə siyasi subyektlərin iştirakını tənzimləyən və ümumi qəbul edilən davranış qaydalarıdır. Siyasi normalar elə kompleksdir ki, özlərində ümumi şüarları, konkret siyasi təklifləri, filosofların, siyasətçilərin və liderlərin ideyalarını ehtiva edirlər. Bura partiyaların və ictimai birliklərin proqramları və nizamnamələri də daxildir.

Siyasi normaları formal və qeyri-formal kimi iki qrupa ayırırlar. Formal qrupa, məsələn, qanunvericilik aid edilir. Qeyri-formal qrupa isə ənənələr, etik normalar, diplomatik etiket aid edilə bilər. Siyasi normalar siyasi mədəniyyət əsasında təmin edilə bilərlər. Filosoflar vurğulayırlar ki, siyasi normalar cəmiyyətin bütün sosial normalar sisteminə təsir edir.

Bundan başqa, siyasi normaların müxtəlif elementləri tarixi şəraitdən asılı olaraq daha da aktuallaşa bilərlər. 2003-2020-ci illərdə Azərbaycan siyasi mühiti üçün siyasi subyektlər arasında dialoq məsələsi çox aktuallaşmışdı. Bunun əsas səbəbi milli ideyanı reallaşdırmaq üçün bütövlükdə cəmiyyətin monolit güc kimi birləşmə ehtiyacı ilə bağlı idi.

Eyni zamanda, Azərbaycan cəmiyyətində bütün kəsimlər arasında həmrəyliyi və məqsəd vahidliyini pozmaq üçün müxtəlif istiqamətlərdən informasiya təsirləri azalmaq bilmirdi.

Bunlara görə, həm qanunvericilik, həm də qeyri-formal istiqamətlər üzrə siyasi normaların yeni şərtlərə uyğunlaşdırılması vacib məsələ idi. Siyasi idarəetmədə bu məqam vitse-prezidentlik institutunun təsis edilməsində əksini tapmışdır. Filosoflar bununla bağlı yazırlar ki, "...İnstitusional islahatlar ölkədə milli dövlət idarəetmə sisteminin zamanın dəyişən hədəf və tələblərinə uyğun qurulmasını zəruri edir. İslahatlar institusional qurumların, dövlət və hakimiyyət sisteminin dəyişən tələb və çağırışlarına uyğun mexanizmlərini şərtləndirir".

Siyasi normaların qeyri-formal aspekti də çox əhəmiyyətlidir. İlham Əliyev 2003-2020-ci illərdə Azərbaycanda siyasi liderlik ənənəsinə yeni çalarlar əlavə etdi. Siyasi münasibətlərdə etik normaları yeniləşdirdi və özünəxas diplomatik etiket nümunəsi yaratdı. Bu faktorların hər biri üzrə faktlar kifayət qədərdir.

Siyasi liderlik ənənəsində İlham Əliyev siyasi qüvvələrin birləşdirilməsi istiqamətində çox səmərəli addım atmışdır. Artıq 2020-ci ilə ölkənin bütün siyasi qüvvələri vahid məqsəd ətrafında birləşmişdi – Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək məsələsində eyni mövqedə idilər. Bunu II Qarabağ müharibəsindəki Qələbəyə müxalif siyasi qüvvələrin verdikləri qiymət aydın göstərir. Onların hər biri qələbəni Prezident İlham Əliyevin şəksiz uğuru hesab etdilər və buna görə də fəaliyyətlərini tənzimləməyə çalışdılar.

Burada siyasi normaların yeniləşməsi baxımından müasir dövr üçün çox maraqlı bir proses özünü göstərdi. Azərbaycanda fəaliyyət göstərən bir neçə müxalif siyasi partiya özünü buraxdı. Onların hər biri bunun eyni səbəbini göstərdi: Azərbaycan milli ideyanı reallaşdırdı, ölkənin ərazi bütövlüyünü və suverenliyi tam bərpa etdi. Partiyaların yaranmasında əsas məqsəd məhz bu olduğuna görə, artıq fəaliyyətə ehtiyac qalmır. Bu, həqiqi mənada siyasi normalarda yeniləşmə idi. Onun bir neçə əlamətini göstərə bilərik:

Birincisi, siyasi partiyalar 2003–2020-ci illərdə addım-addım həyata keçirilən daxili siyasətin tam uğurlu olduğunu və nəticədə ümumilikdə siyasi mədəniyyətin və onun daxilində siyasi normaların dəyişdiyini qəbul etmişlər.

İkincisi, bu prosesdə İlham Əliyevin təşəbbüsü ilə başladılan siyasi dialoqu yeni siyasi norma kimi tam qəbul etmişlər.

Üçüncüsü, bunların əsasında artıq İlham Əliyevə siyasi rəqib olmağın mənasını görmürlər. Çünki Azərbaycan liderinin cəmiyyətdə və dünyada nüfuzu o dərəcədə yüksəkdir ki, ona alternativ olmaq imkanlarının yoxluğunu etiraf etmişlər.

Dördüncüsü, bu siyasi norma yeniləşməsi XXI əsrdə perspektivli ola biləcək siyasi qüvvələrin Azərbaycanda formalaşması imkanlarının mövcudluğu baxımından vacib prosesdir. Həmin prosesdə də yenilik yeni siyasi qüvvələrin İlham Əliyev siyasətinə alternativ olmaqda deyil, siyasi varislik əsasında onu yeni şərtlərlə inkişafı zərurətini qəbul etməklə bağlıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Bakıda Əfqanıstan müzakirəsi




**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və 20 ölkənin xüsusi xidmət orqanları nümayəndələrinin iştirakı ilə Bakıda "Əfqanıstan: regional təmaslar, təhlükəsizlik və inkişaf" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.**

Tədbiri giriş nitqi ilə açaraq, qonaqları salamlayan DTX-nin rəisi, general-polkovnik Əli Nağıyev Əfqanıstana dair bundan əvvəlki toplantıların davamı olaraq, budəfəki konfransın Bakı şəhərində keçirilməsini önəmli hadisə kimi qiymətləndirmişdir. O, beynəlxalq tədbirin Əfqanıstanda mərkəzləşdirilmiş, beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunan dövlətin bərqərar olunmasına əhəmiyyətli dərəcədə töhfə verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Xidmət rəisi uzun illərin sınağından çıxmış və qarşılıqlı etimad əsasında qurulmuş Azərbaycan–Əfqanıstan əlaqələrindən, eləcə də xalqlararası dərin tarixi-mədəni bağlılıqdan danışaraq qeyd etmişdir ki, Azərbaycan hər zaman Əfqanıstanda daxili siyasi sabitliyin və təhlükəsizliyin təmin olunması üçün irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləmiş, bu istiqamətdə səylərini heç bir vaxt əsirgəməmişdir.

General-polkovnik Əli Nağıyev diqqəti Əfqanıstana transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən beynəlxalq terrorçuluğa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və qeyri-qanuni miqrasiyaya qarşı apardığı mübarizədə dünya ölkələrinin hərtərəfli dəstək verməsinin zəruriliyinə yönəltmişdir.

Əfqanıstanda vəziyyətin gərgin qalmasında maraqlı olan pozucu qüvvələrin və terror qruplaşmalarının destruktiv cəhdlərinin qarşısının alınmasında vahid mövqe ortaya qoyulmasının tədbirin keçirilməsində əsas məqsədlərdən biri olduğunu vurğulayan xidmət rəisi Əfqanıstanın beynəlxalq münasibətlər sistemində öz yerini tutmasının, bu ölkədə əmin-amanlığın təmin edilməsinin vacibliyini qeyd etmiş, bütün bunlar üçün region ölkələrinin və digər dövlətlərin koordinasiyalı fəaliyyət və birgə səy göstərəcəklərinə inamını bildirmişdir.

Konfransda digər ölkələrin təmsilçiləri də mövzu ilə bağlı çıxışlar etmiş, tədbirin Əfqanıstanda sülhün və təhlükəsizliyin təminatı yönündə daha ciddi addımların atılmasına lazımi imkanlar açacağına, beynəlxalq aləm tərəfindən Əfqanıstanda davamlı sabitliyin formalaşmasına dəstək göstəriləcəyinə inamlarını ifadə etmişlər.

***XQ***

## NAXÇIVAN XƏBƏRLƏRİ



### Hərracların Təşkili Mərkəzi

**Dünən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin yenidən qurulmuş binası istifadəyə verilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açılış mərasimində iştirak edib. Binada yaradılmış şəraitlə tanış olan səlahiyyətli nümayəndə işçiləri təbrik edib, onlara səmərəli fəaliyyət arzulayıb.

Mərasimdə çıxış edən Fuad Nəcəfli Azərbaycanın davamlı inkişaf modelinin tərkib hissəsi olan Naxçıvanda həyata keçirilən sistemli islahatların və sosial-iqtisadi layihələrin iqtisadi münasibətlərin müasirləşdirilməsinə və şəffaflığın təmin olunmasına xidmət etdiyini söyləyib. O bildirib ki, "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin yaradılması da məhz bu məqsədlərə yönəlmiş əhəmiyyətli addımdır. Mərkəzin fəaliyyəti muxtar respublikada şəffaf iqtisadi mühitin formalaşmasına, sahibkarlığın inkişafına və səmərəli idarəetmənin təmininə mühüm töhfə verəcək.

Muxtar respublikanın bugünkü iqtisadi inkişaf dinamikasının qürurverici göstəricilərlə müşahidə olunduğunu diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, 2025-ci ilin yanvar–mart aylarında ümumi daxili məhsulun həcmi 344 milyon 310 min 200 manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artım nümayiş etdirib. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 730,7 manat olmaqla, 0,6 faiz artıb. Bu reallıqlar Naxçıvanın inkişafına yönəlmiş 2023-2027-ci illər üçün Dövlət Proqramının uğurla icra olunduğunu göstərir. Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvanın regional və beynəlxalq iqtisadi proseslərdə rolu daha da artacaq, sənaye parkları və yeni yaradılan müəssisələr Orta Dəhlizin yeni seqmenti kimi fəaliyyət göstərəcəkdir.

Naxçıvan MR iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov nazirlikdə və onun strukturlarında elektron informasiya sistemlərinin yaradılması istiqamətində həyata keçirilən işlər barədə məlumat verib. Qeyd edib ki, nazirliyin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara, o cümlədən sahibkarlara göstərilən 190 dövlət xidmətinin 110-u elektronlaşdırılıb.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Xidmətinin rəis müavini Müslüm Cabbarzadə Naxçıvanda hərracların təşkili ilə bağlı müasir inzibatçılıq və şəffaflaşma barədə məlumat verib.

### Rəqəmsallaşma və qanunvericilik

**Muxtar respublikanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Ədliyyə Nazirliyi ilə birgə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Rəqəmsallaşma və qanunvericilik" mövzusunda hibrid vebinar keçirib.**



Toplantını giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rahid Ələkbərli rəqəmsal cəmiyyət quruculuğu, onun sosial-iqtisadi aspektləri, təhlükəsizliyi, eləcə də gündəlik həyatımıza göstərdiyi təsirdən danışaraq bildirib ki, bu texnologiyalar müasir dünyamıza modern inkişaf gətirir. Muxtar respublikada da bu sahənin sürətli inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Muxtar respublika ədliyyə nazirinin müavini Hüseyn Səfərov vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində konstitusiyanın yaratdığı demokratik əsasların rolunu və önəmini qeyd edərək bildirib ki, Əsas qanun müstəqil dövlət anlayışının hüquqi ifadəsidir.

Vebinarın davamında hər iki nazirliyin əməkdaşları "Konstitusiya və Suverenlik İli" çərçivəsində konstitusiya normalarının tətbiqi, normayaratma prosesləri və suverenliyin müasir çağırışlara uyğun qorunması mövzusunda geniş diskussiya aparıblar. "Rəqəmsal inkişaf və dövlət", "Tarixin izi ilə, Ali qanunun hazırlanması və Konstitusiya anlayışlar-mahiyyət", "Konstitusiya nəzarət mexanizmi və normayaratma prosesində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin rolu", "Suverən Azərbaycan Respublikası" və "Ədliyyə fəaliyyəti konstitusion əsasda, Konstitusiya və suverenlik hüquqi dövlət nəzdində" mövzularında təqdimatlar edilib, interaktiv müzakirə aparılıb.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Azərbaycan – İran əməkdaşlığı ortaq maraqlar üzərində genişlənir



**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursunda qonşu dövlətlərlə dostluq münasibətlərinə əsaslanan əlaqələrin davamlı inkişafına mühüm önəm verilir. Bu baxımdan İran Azərbaycan üçün dost və tərəfdaş ölkə olmaqla yanaşı, xalqlarımız arasında da qədim tarixə malik əlaqələr mövcuddur. Şübhəsiz ki, bu amil iki ölkə arasında münasibətlərin dərinləşməsini, əlaqələrin möhkəmlənməsini və dinamik inkişafını şərtləndirir.**

Bütün bunlar barədə prezidentlər İlham Əliyevin və Məsud Pezeşkianın iştirakı ilə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində, dövlət başçılarının məhdud və geniş tərkibli görüşlərində, mətbuata bəyanatlarında, eləcə də biznes forumundakı çıxışlarında ətraflı bəhs edilib. Dövlətimizin başçısı biznes – forumda, diqqətə çatdırıb ki, ölkələrimizin vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik kimi məsələlər hər iki ölkənin iş adamlarına aydın olmalıdır: “Yəni, qaydalar nədir, qanunlar nədir? Ondan sonra əlbəttə ki, böyük sərmayə qoyuluşundan söhbət gedə bilər. Mən hesab edirəm ki, uzun fasilədən sonra Azərbaycan və İran iş adamlarının belə mötəbər toplantısı, xüsusilə prezidentlərin iştirakı ilə biznes – forumun keçirilməsi çox ciddi bir addımdır və əlbəttə ki, biz iş adamlarımızdan konkret nəticələr gözləyirik”.

Bildirilib ki, Azərbaycanda dövlət xətti ilə bir çox infrastruktur layihələri həyata keçirilir və İran şirkətləri bu layihələrdə iştirak etməyə dəvət olunur. Burada dəmir və avtomobil yolları, kommunikasiya xətləri və elektrik xətləri kimi layihələrin reallaşdırılması bu gün əsas gündəlikdədir. Eyni zamanda, hazırda erməni işğalından azad edilmiş ərazilərdə geniş quruculuq işləri gedir, işğal dövründə yerlə – yeksan olunan kəndlər, şəhərlər demək olar ki, sıfırdan qurulur. Ona görə orada böyük iş imkanları yaradılır və İrandan– dost, qardaş ölkədən olan biznesmenlərin bu istiqamətdə də fəaliyyət göstərmələri də arzu olunur.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri çərçivəsində müzakirə edilən məsələlər arasında elektroenergetika təşəbbüslərinə geniş yer ayrılıb. Burada elektrik stansiyalarının tikintisi ilə yanaşı, eyni zamanda, ötürücü xətlərin çəkilməsi məsələsi də nəzərdən keçirilib. Bununla da sözügedən sahədə təcrübəsi olan şirkətlər üçün yaxşı fürsətlər, yaxşı imkanlar yaradılıb. Gələcəkdə isə iki dövlət arasında həm ikitərəfli, həm də çoxtərəfli, yəni qonşu ölkələrlə birlikdə enerji mübadiləsi layihələrinə də baxılması nəzərdə tutulub.

İki ölkə arasında iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsindən söhbət gedərkən, Azərbaycanda “yaşıl” enerjinin istehsalı prosesinin artıq başlanıldığı və bunun böyük gələcəyinin olduğu xatırladılıb. Respublikamızın 5 ildən sonra 6500 meqavat gücündə Günəş, külək və su enerji potensialının gerçəkləşəcəyi və bunun böyük hissəsinin ixracyönümlü enerji növləri olacağı bildirilib. Müzakirələrdə bu istiqamətdə əlbəttə ki, indidən hazırlıq işlərinin aparılmasının zəruriliyi xatırladılıb.

Azərbaycan – İran dövlət başçılarının görüşlərində, eyni zamanda, Araz dəhlizi layihəsinin böyük diqqət çəkdiyi xatırladılmaqla bərabər, bu təşəbbüslə bağlı həm bölgədə, həm də dünyada müxtəlif fərziyyələr, şayiələr gəzdiyi qeyd edilib. Dövlətimizin başçısı tərəfindən buna heç bir əsas olmadığı diqqətə çatdırılaraq bunun, sadəcə, yeni bir nəqliyyat, bağlantı layihəsi olduğu və Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihə kimi diqqətdə saxlanıldığı bildirilib.

Xatırladılıb ki, Araz dəhlizi layihəsinin gerçəkləşdirilməsi çərçivəsində burada, eyni zamanda, böyük tranzit imkanları yaranacaq. Bu, sadəcə, bölgənin layihəsi deyil, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olacaq. Bir tərəfi Aralıq dənizinə, digər tərəfi Fars körfəzinə uzanan yeni nəqliyyat bağlantı dəhlizi kimi fəaliyyət göstərəcək və bir çox ölkələr bundan fayda götürəcək.

Prezident İlham Əliyev bununla bağlı vurğulayıb ki, sözügedən layihənin ərsəyə gəlməsində əsas rol yenə də Azərbaycan və İranın üzərinə düşür və bu istiqamətdə respublikamız tərəfindən aparılan işlər demək olar ki, tamamlanıb. Araz çayı üzərində Azərbaycan tərəfinə düşən körpünün inşası demək olar ki, hazırdır, o cümlədən sərhəd– keçid məntəqəsinin inşası prosesi gedir. Əgər hər şey istənilən kimi olsa, bu ilin sonuna qədər avtomobil körpüsü istismara verilə bilər.

Dəmir yolu körpüsü də müzakirə mövzusudur. Azərbaycan dəmir yolunu artıq gələn il İran sərhədinə, Zəngilan – Ağbənd istiqamətinə çatdıra bilər və təbii olaraq İran ərazisində dəmir yolu inşası da nəzərdə tutularsa, o zaman bu da beynəlxalq nəqliyyat dəhlizi olacaq. Yəni, çox geniş perspektivlər açılır və bütün bunları həyata keçirmək üçün əsas amillər– birincisi, Azərbaycan – İran arasındakı dostluq, ikincisi, qarşılıqlı siyasi iradə, üçüncüsü bu layihələrin bir çox ölkələrə xidmət göstərməsi və qarşılıqlı fayda verməsi – məsələsi var.

***XQ-nin analitik qrupu***

## EKSPERT RƏYİ



**Aqil ƏSƏDOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru**

Azərbaycan – İran münasibətləri çoxşaxəli olmaqla, tarixi, siyasi, mədəni və iqtisadi baxımdan olduqca mürəkkəb proseslərdən keçib. Bu münasibətlərin formalaşması və inkişafında həm regional, həm də qlobal amillər mühüm rol oynayıb.

Azərbaycan hər zaman bu məsələyə həssas və diqqətlə yanaşıb. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə qeyd edib: “Biz Azərbaycan ilə İran arasında dövlətlərarası əlaqələrin hərtərəfli inkişafına xüsusi önəm veririk. Ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın ortaq tarixi, dini və mədəni dəyərlərinə əsaslanaraq möhkəmlənir”. Dövlət başçısının bu sözləri iki ölkə arasında həm coğrafi, həm də mənəvi bağlılığın dərinliyini nümayiş etdirir.

Azərbaycan – İran münasibətlərinin formalaşma dinamikası düzxətli olmasa da, yaxın qonşuluq, eyni coğrafiyanı bölüşmək və xalqlar arasındakı tarixi – dini bağlar iki ölkə arasında davamlı münasibətləri şərtləndirir. Məhz bunun nəticəsidir ki, Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi daim artan xətt üzrə inkişaf edir.

2024-cü ildə bu dövriyyə 647 milyon ABŞ dolları (2023-cü illə müqayisədə 33 faiz çox) təşkil edib. 2024-cü ildə Azərbaycandan İrana 14 milyon dollar dəyərində məhsul ixrac olunub, əvəzində qonşu ölkədən 633 milyon dollar dəyərində müxtəlif mallar gətirilib. İrandan əsasən quş əti, dondurulmuş balıq, süd və süd məhsulları, meyvə – tərəvəz, çay, qənnadı məmulatları, tikinti materialları və sənaye məhsulları idxal olunub. Azərbaycandan isə polad yarımfabrikatlar, təbii qaz, elektrik enerjisi, yeyinti sənayesi tullantıları və digər məhsullar ixrac edilib.

Hazırda Azərbaycanda 1000-dən çox İran şirkəti qeydiyyatdan keçib, İranın ölkəmizə yatırdığı investisiyaların həcmi isə 3,4 milyard ABŞ dollarını keçib. İki ölkə arasında investisiyaların təşviqi və qorunması, enerji, nəqliyyat, gömrük, turizm və digər sahələri əhatə edən, təxminən, 30 sənəd imzalanıb.

Əməkdaşlıq çərçivəsində Neftçala Sənaye Məhəlləsində birgə avtomobil istehsalı həyata keçirilir, Pirallahı Sənaye Parkında 20,6 milyon ABŞ dolları investisiya qoyulması və əczaçılıq zavodunun inşası nəzərdə tutulur. “Caspian Pharmed” əczaçılıq müəssisəsi Azərbaycanda əczaçılıq sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla, yerli istehsal hesabına əhalini keyfiyyətli dərman məhsulları ilə təmin edəcəyi, bu sahədə idxaldan asılılığı azaldacağı və ixrac potensialını artıracağı gözlənilir. Zavodun fəaliyyəti nəticəsində 90 nəfərin daimi iş yeri ilə təmin olunacağı nəzərdə tutulur.

İki ölkə arasında əməkdaşlığın mühüm istiqamətlərindən birini də nəqliyyat əlaqələri təşkil edir. Nəqliyyat – logistika sahəsində əməkdaşlığın əsas istiqamətlərindən biri Şimal – Cənub Nəqliyyat Dəhlizinin inkişafıdır. 2023-cü ildə bu marşrut üzrə yükdaşımaların 50 faiz artması və Ağbənd dəmir yolu körpüsünün tikintisi iki ölkənin logistika imkanlarının genişlənməsinə xidmət edir. Şimal –Cənub Nəqliyyat Dəhlizi həm Avropa ilə Asiya arasında ən qısa və səmərəli tranzit yolu kimi çıxış edir, həm də iqtisadiyyatın şaxələndirilməsinə, eləcə də beynəlxalq ticarətin genişlənməsinə şərait yaradır.

Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Hindistan və Cənub – Şərqi Asiya ölkələrindən gələn yüklərin İranın Bəndər – Abbas limanından Azərbaycan üzərindən daşınmasını gerçəkləşdirəcək. İldə 15 milyon ton yük daşınması planlaşdırılan bu tranzitdən Azərbaycan çox böyük gəlir (ildə, təxminən, 250-300 milyon dollar) əldə edəcək.

Bu dəhlizlə Cənub – Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcək. Yüklərin Süveyş kanalı vasitəsilə daşınmasından 800 kilometr daha az məsafə qət ediləcək. Eyni zamanda, daşıma müddəti 20 gün azalacaq və yüklər daha etibarlı yolla mənzil başına çatdırılacaq.

Təqribi hesablamalara görə, hər 15 ton yükün daşınmasında 2500 dolardan çox vəsaitin qənaət edilməsi imkanı var. Bu baxımdan Azərbaycan üçün Şimal – Cənub Nəqliyyat Dəhlizinin Qərb marşrutu (Rusiya ərazisində Həştərxan və Mahaçqaladan keçməklə Azərbaycan ilə Samurdan Astaraya, daha sonra inşası davam etdirilən Astara – Rəşt – Qəzvin yeni dəmir yolu vasitəsilə İran dəmir yollarına birləşir) strateji önəm daşıyır.

Şimal – Cənub Nəqliyyat Dəhlizi vasitəsilə Hindistandan Avropaya qədər yüklərin daşınması təmin olunur. Bu dəhlizin mühüm hissəsi olan Qəzvin – Rəşt – Astara (İran) – Astara (Azərbaycan) dəmir yolu xəttinin tam istismara verilməsi prioritet məsələ kimi dəyərləndirilir.

Avtomobil daşımaları sahəsində də iki ölkə arasında əməkdaşlıq inkişaf edir. “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında” Saziş çərçivəsində Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında İran ərazisindən keçən yükdaşımaları həyata keçirilir.

Hazırda bu məqsədlə Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvanda İran üzərindən bağlantı yaradılacaq körpülərin layihələndirilməsi artıq başa çatdırılıb. Gündəlik 1100 avtomobil, 30 avtobus və 15 min sərnişinin bu marşrutdan istifadə edəcəyi gözlənilir.

Azərbaycan və İran arasında hava nəqliyyatı da uğurla fəaliyyət göstərir. “Azərbaycan Hava Yolları” və “İran Air” Bakı və Tehran arasında müntəzəm uçuşlar həyata keçirir. Dəniz nəqliyyatı sahəsində isə Dövlət Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri vasitəsilə Azərbaycandan və Türkmənistandan İrana yüklər daşınır.

Ən mühüm əməkdaşlıq layihələrindən biri Azərbaycan – İran sərhədində yerləşən “Xudafərin” və “Qız Qalası” hidroelektrik kompleksləridir. 2024-cü ildə istifadəyə verilmiş bu obyektlər enerji təminatı və kənd təsərrüfatı sahəsində suvarma sistemlərinin inkişafına mühüm töhfə verir. Prezident İlham Əliyev açılış mərasimində İran – Azərbaycan münasibətlərinin sarsılmaz olduğunu bir daha bəyan edərək bildirib: “İran – Azərbaycan birliyi və dostluğu sarsılmazdır. Heç kim bizim aramıza nifaq sala bilməz”.

Enerji sahəsində əməkdaşlıq da davam etdirilir. “Xudafərin”, “Qız Qalası”, “Ordubad” və “Marazad” su elektrik stansiyalarının inşası, 330 kV-luq İmişli –Parsabad elektrik xəttinin tikintisi, eləcə də 2016-cı ildə imzalanmış elektrik enerjisinin satışı ilə bağlı Çərçivə Sazişi bu istiqamətdə atılmış mühüm addımlardır. Kənd təsərrüfatı sahəsində isə əməkdaşlıq müxtəlif istiqamətləri (toxumçuluq, quşçuluq və heyvandarlıq sahəsində təcrübə mübadiləsi, bitki xəstəliklərinə qarşı mübarizə, şoran torpaqların səmərəli istifadəsi və kənd təsərrüfatı texnikasının mübadiləsi) əhatə edir.

# TDT ölkələrinin rəqabət qurumları da dostluq qurur



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstana işgüzar səfər edib. Səfər çərçivəsində agentliyin nümayəndələri Türk Dövlətləri Təşkilatı (TDT) ölkələrinin rəqabət qurumu rəhbərlərinin II iclasında iştirak ediblər.**

İclasda süni intellekt sahəsində müasir tendensiyalar və təcrübələr üzrə rəqabət siyasəti, o cümlədən rəqəmsal bazarların tənzimlənməsi, kartel sövdələşmələrinin aşkarlanması və rəqabət orqanları arasında təcrübə mübadiləsi məqsədilə geniş müzakirələr aparılıb.

Tədbirin açılışında Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin dövlət katibi Boqlarka İlleş, Macarıstan Rəqabət Qurumunun Prezidenti Ksaba Balaş Riqo və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev çıxış ediblər. Toplantıda Azərbaycanla yanaşı, TDT-yə üzv olan digər ölkələr – Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin rəqabət orqanlarının rəhbərləri də iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxışı zamanı rəqabətin təmin edilməsinin hər bir ölkənin iqtisadi inkişafı üçün önəmini vurğulayıb, bu sahədə TDT ölkələri arasında əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini qeyd edib. TDT-nin ölkələr arasında mədəni, siyasi, strateji, o cümlədən iqtisadi əlaqələrin gücləndirilməsində rolu diqqətə çatdırılıb. Təşkilatın ticarət, nəqliyyat, rəqəmsal transformasiya, enerji, turizm, təhsil, mübadilə proqramları, mədəni irs və insan kapitalının inkişafı kimi sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsinə töhfəsindən bəhs edilib.

Qloballaşmanın gətirdiyi çağırışlar çərçivəsində rəqabətli iqtisadi mühitin qorunması və inklüziv, strateji rəqabət siyasətinin qəbul edilməsinin vacibliyindən bəhs edən agentlik sədri Azərbaycan Respublikası Prezidentinin bu sahədə institusional çərçivənin gücləndirilməsi üçün atdığı mühüm addımları qeyd edib. Ölkəmizdə 2024-cü ilin 1 iyul tarixindən qüvvəyə minən Rəqabət Məcəlləsinin rəqabət, antiinhisar fəaliyyəti və bazar iştirakçılarının hüquq və vəzifələrinə dair geniş tənzimləyici mexanizmləri əhatə etdiyi vurğulanıb.

Görüşün yekunu olaraq iştirakçılar TDT çərçivəsində rəqabət qurumları arasında əməkdaşlığın davam etdirilməsi, kartellərlə mübarizə, eləcə də süni intellekt texnologiyaları sahələrində birgə təcrübə və bilik mübadiləsinin aparılmasını dəstəkləyiblər.

Sonda TDT ölkələrinin rəqabət qurumu rəhbərlərinin növbəti görüşünün keçirilməsi barədə birgə kommünike imzalanıb.

***XQ***

# Səudiyyə Ərəbistanı ilə əczaçılıq və dənizçilik sahələrində əməkdaşlıq

**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşəbbüsü ilə Azərbaycanın “Parla Pharmaceuticals” və Səudiyyə Ərəbistanının “National Development Group Holding” şirkətləri arasında əczaçılıq sahəsində Anlaşma Memorandumu, “ADO-G” (Azərbaycan) və “SMI/BLUE MASAR” (Səudiyyə Ərəbistanı) arasında isə dənizçilik infrastrukturu üzrə razılaşma sənədi imzalanıb.**



KOBİA-dan verilən məlumata görə, sənədlərin imzalanması Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq üzrə müştərək komissiyanın Ər-Riyadda keçirilən 8-ci iclası çərçivəsində təşkil olunmuş Azərbaycan – Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 6-cı iclasında baş tutub.

KOBİA və Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının təşkilatçılığı ilə keçirilmiş tədbirdə hər iki ölkədən rəsmi şəxslər və iş adamları, o cümlədən sənaye, kənd təsərrüfatı, inşaat, əczaçılıq, xidmət, memarlıq və dizayn, logistika, turizm, bərpa olunan enerji kimi sektorlarda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin və biznes assosiasiyaların 30-a yaxın nümayəndəsi iştirak edib.

İclasda Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Səudiyyə Ərəbistanının investisiya naziri Xalid Alfaleh iki ölkə arasında iqtisadi-ticarət əlaqələri, investisiya qoyuluşu və ixrac imkanları barədə fikirlərini bölüşüblər.

İşgüzar Şuranın həmsədrləri – “Al Rajhi İnternational for İnvestment” şirkətinin baş icraçı direktoru Əhməd Əli Əl Daxil və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, eləcə də İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov işgüzar dairələr arasında ticarət və investisiya sahəsində əlaqələrin genişləndirilməsi perspektivləri, Azərbaycanda yerli və xarici iş adamlarına göstərilən dəstək və xidmətlər, İşgüzar Şuranın fəaliyyəti barədə məlumat veriblər.

İclasda, həmçinin işgüzar dairələrin iştirakı ilə ortaq təşəbbüslərin və layihələrin reallaşdırılması, əməkdaşlığın genişləndirilməsi sahəsində Azərbaycan – Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının imkanlarından istifadə məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində “ACWA Power” tərəfindən təqdimat, iş adamları arasında “B2B” görüşlər də keçirilib.

***XQ***

# Azərbaycan–Çin hərtərəfli tərəfdaşlığı qlobal önəm daşıyır

(əvvəli 1-ci səhifədə)



Ümumilikdə, cari il yanvarın 1-nə xarici dövlət borcunun ÜDM-ə nisbətinin 2024-cü ilin əvvəli ilə müqayisədə 2 faiz bəndi azalması, mübadilə olunan valyuta ehtiyatlarının xarici borcumuzdan 14 dəfə çox olması, işsizlik, yoxsulluq səviyyəsinin 5 faizə endirilməsi ölkədə həyata keçirilən struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsinin, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsinin məntiqi nəticəsidir.

Qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə həyata keçirilməsinə isə son 10 ildə gerçəkləşdirilən genişmiqyaslı islahatların uğurlu nəticələri əsaslı təsir göstərib. Belə ki, bu müddətdə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi sayəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya edib. Azərbaycan 4-cü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilib. Bu dövrdə milli iqtisadiyyat 15 faiz böyüyüb, qeyri-neft-qaz ümumi daxili məhsul (ÜDM) isə 1,4 dəfə artıb. 2011-ci illə müqayisədə qeyri-neft-qaz ixracının 78,3 faiz yüksəlməsinə nail olunub.

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın "yaşıl" enerji siyasətini uğurla həyata keçirdiyini də diqqətə çatdıraraq deyib: "Hələ ki, bizim imzaladığımız və icra fazasında olan müqavilələr respublikamıza 2030-cu ilə qədər 6500 meqavat bərpaolunan enerji verəcək. Sadəcə, müqayisə üçün deyim ki, Azərbaycanın



ümumi quraşdırılmış gücü 8 min meqavat təşkil edir. Beləliklə, beş ildən sonra biz demək olar ki, elektrik enerjisinin bugünkü tutumunu iki dəfə artırmış olacağıq – 6 min meqavat Günəş və külək elektrik enerjisindən əldə olunacaq, 500 meqavat hidroelektrik stansiyalarından gələcək. Bu, bizim üçün həlledici olacaq".

Dövlətimizin başçısı bunun səbəbini ölkəmizin elektrik enerjisini istehsal etmək üçün əsasən təbii qazdan istifadə olunmasını dayandıracağı ilə əlaqələndirərək bildirib ki, Azərbaycan elektrik enerjisini bərpaolunan enerji resurslarından əldə edəcək və təbii qazı beynəlxalq bazarlara ixraca yönəldəcək. Əlbəttə ki, bu yolla geniş mənfəət əldə ediləcək. Eyni zamanda, daxili ehtiyaclar üçün də enerjiyə qənaət olunacaq.

Ölkə rəhbərinin sözlərinə görə, Azərbaycan artıq küçələrdə hərəkət edən elektriklə işləyən 160 avtobus alıb, əlavə 200 avtobusun respublikaya gətirilməsi üçün podrat müqaviləsi bağlanılıb. Ən vacibi isə odur ki, Çinin "BYD Company Limited" (BYD) şirkəti ilə respublikamızda elektrik avtobus istehsalının lokallaşdırılması layihəsi üzrə "Layihənin icra müqaviləsi" imzalanıb. Müqaviləyə əsasən Azərbaycanda yerli istehsalın qurulması və 2030-cu ilədək mərhələli şəkildə lokallaşdırma səviyyəsinin 40 faizə çatdırılması planlaşdırılıb. Onu da qeyd edək ki, BYD şirkətilə bağlanmış müqavilə əsasında COP29 konfransı çərçivəsində pilot olaraq ölkəmizə 160 ədəd elektrik mühərrikli avtobus gətirilib və marşrut xəttinə çıxarılıb.

Yeri gəlmişkən, 1995-ci ildə yaradılan BYD şirkəti 2023-cü ildə 3 milyon yeni enerji avtomobilinin rekord satışını həyata keçirməklə dünya birincisi kimi qeydə alınıb. Şirkətin fəaliyyəti beynəlxalq aləmdə avtomobil istehsalı, elektronika, elektrik batareyaları, bərpaolunan enerji və dəmir yolu nəqliyyatı sahələrində son yeniliklərin tətbiqini gerçəkləşdirən dünyamiqyaslı aparıcı texnologiya şirkət olaraq yüksək dəyərləndirilib.

Prezident İlham Əliyev müsahibəsində ölkələrimiz arasında turizm sektorunun inkişaf etdirilməsinin zəruriliyi ilə bağlı fikirlərini də diqqətə çatdırıb. Dövlətimizin başçısı respublikamızın turizm sektorunu inkişafın yeni mərhələyə yüksəltmək üçün Azərbaycanın geniş coğrafi üstünlüklərə malik olması, Xəzər dənizi, xizək kurortları, meşələr və çaylar, hətta yarımsəhra ərazinin mövcudluğunu xatırlatması qarşıya qoyulan məqsədin reallığından irəli gəlib. Ölkə rəhbəri bundan əlavə, Azərbaycanın çox yaxşı mətbəxinin, qonaqpərvər əhalisinin də olmasını turizmin sürətli inkişafına müsbət təsir göstərən amillərdən olduğunu vurğulayıb.

Ölkə rəhbəri daha sonra dost ölkə ilə viza rejiminin ləğvini yüksək dəyərləndirib: "Adətən, biz bunu həmişə ikitərəfli əsasda edirdik. Lakin bu halda biz dostluğumuzu və səmimiliyimizi nümayiş etdirmək üçün bunu birtərəfli qaydada etdik. Bu gün, həmçinin həmkarlarımla aviareyslərin sayının artırılması barədə danışdıq. Hazırda düşünürəm ki, həftədə 6 və ya 7 aviareys həyata keçirilir. Ötən il viza rejimi ləğv ediləndən sonra Çindən bundan demək olar ki, iki dəfə çox turist qəbul etdiyimizi nəzərə alsaq, ümidvaram, bu rəqəm artacaq. Bu gün mən öyrəndim ki, 150 milyon çinli xaricə səfər edir. Görüşlərimdən birində söylədim ki, onların cəmi 1 faizi Azərbaycana gəlsə, bizim üçün yetərli olacaq".

Dost ölkə respublikamızla iqtisadi münasibətlərində nəqliyyat əlaqələrinin genişlənməsinə də xüsusi diqqət yetirir. Bu baxımdan Çinin Şərq–Qərb və Şimal–Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla bu sahədə əməkdaşlığa verdiyi dəyər xüsusi əhəmiyyətə malikdir. "Bir kəmər, bir yol" layihəsinin tərkib hissəsi hesab olunan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat marşrutudur.

Orta Dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələrilə Çin arasında illik ticarət dövriyyəsi 700 milyard dolların üzərindədir. 2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda 2 dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması həyata keçirilir və 2020-2024-cü illərdə daşınma həcmi 2,5 dəfə artıb.

Prezident İlham Əliyev Orta Dəhlizin inkişafına və modernləşdirilməsinə xüsusi önəm verir. Dəhliz çərçivəsində yerləşən infrastrukturların fəaliyyətinin səmərəliyinin artırılmasını diqqətdə saxlayır. Dövlətimizin başçısının Bakı Beynəlxalq Dəniz Ticarət Limanının malik olduğu indiki 100 min TEU və 15 milyon ton ümumi yükaşırma qabiliyyətinin yetərli olmadığnı bildirməsi və limanın ümumi yükaşırma qabiliyyətinin 25 milyon tona və 500 yüz min, yaxud, hətta bir milyon TEU-ya çatdırılmasını zəruri hesab etməsi də vurğulanan fikrin bariz ifadəsidir.

Dövlətimizin başçısı müsahibəsində ölkələrimiz arasında idxal-ixrac əməliyyatlarının vəziyyətinə də toxunub. Ölkə rəhbəri Çinin, həqiqətən, idxal baxımından bir nömrəli və ticarət dövriyyəsi cəhətdən isə 4-cü tərəfdaş olduğunu vurğulayıb: "Biz Çində 6 Azərbaycan Ticarət Evi açmışıq. Biz artıq Çinə şərab ixrac etməyə başlamışıq. Sizin bazarınızda daha çox payımızın olmasını istəyirik. "Bir kəmər, bir yol" layihəsinə gəlincə, bizim üçün bu təşəbbüs yalnız bir tranzit marşrutu deyil. Biz bu marşrut üzərində şirkətlər qurmaq istəyirik, çünki bizim coğrafi mövqeyimiz əlverişlidir. Biz Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzərində yerləşirik. Bağlantılara gəlincə, biz artıq bütün infrastrukturu – dəmir yollarını, dəniz limanlarını, magistral yolları, 8 beynəlxalq hava limanı inşa etmişik. Biz qlobal miqyasda ən böyük yükdaşıma, hava yolu ilə yükdaşıma şirkətlərindən birinə sahibik. Beləliklə, hədəfimiz bu marşrut üzərində biznes qurmaqdır".

Şərq–Qərb (Orta Dəhliz) marşurut xətti Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük daşımalarının artırılmasına xidmət edir. Bu nəqliyyat dəhliz üzrə hərəkət edən blok qatarı orta hesabla 14-16 günə Çindən Avropaya yükləri çatdırır. Bu da adıçəkilən dəhlizinin əsas üstünlüklərindən biridir.

Orta Dəhlizin inkişafı və səmərəliyinin artırılması çərçivəsində indiyədək Sian (Çin) limanında Qazaxıstan terminalının tikintisi və Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə işlər başa çatdırılıb, Dostık–Moyıntı dəmir yolu hissəsində ikinci, Almatıdan yan keçən xəttin, eləcə də Poti limanında bu il işə salınması nəzərdə tutulan konteyner terminalının tikintisinə başlanılıb. Bundan əlavə, 2025-ci ilin ortalarına qədər Aktau limanında konteyner qovşağının inşası, eləcə də Qazaxıstan tərəfinin Kurık və Bakı limanları arasında fəaliyyət göstərəcək öz bərələrini alması planlaşdırılıb.

Hazırda respublikamızda Bakı limanının 2-ci fazasının tikintisi davam etdirilir, quru yük körpüsü və liman stansiyalarının ötürücülük qabiliyyəti artırılır, eləcə də ölkəmizin dəmir yolları üçün vaqon parkının yenilənməsi nəzərdə tutulur, dəmir yollarının Ələt–Böyük Kəsik hissəsinin modernləşdirilməsi sürətlə həyata keçirilir.

Gürcüstan tərəfində keçid dəmir yolunun modernləşdirilməsi üzrə işlər artıq başa çatdırılıb və ilin sonunadək bu marşrutda ötürücülük qabiliyyətini artırmaq məqsədilə əlavə lokomotivlərin alınması planlaşdırılıb.

Azərbaycanda nəqliyyat dəhlizlərinin inkişafına önəm verilməsi daim diqqətdə saxlanılıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, artıq qonşularımızla birlikdə yüklərin keçidini xeyli asanlaşdırmaq və sürətləndirmək üçün birgə müəssisə yaradılıb. Məsələn, bu gün nəqliyyat infrastrukturu və həmçinin gömrüyümüzdə idarəetmədə islahatlar, o cümlədən rəqəmsallaşma ilə əlaqədar Çindən Azərbaycan vasitəsilə Qara dənizə yüklərin daşınma müddəti cəmi 10 gündən 12 günədəkdir. Ötən il Çinlə Azərbaycan arasında tranzit daşımalarında 86 faiz artım olub. Bu, yalnız başlanğıcdır. Azərbaycan vasitəsilə nəqliyyat marşrutları, həqiqətən, hazırda mövcud olan digər marşrutlar arasında ən təhlükəsiz, ən qısa və ən cəlbedici marşrutlardan biri olacaq.

***V.BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Lətif ZEYNALLI,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin aparıcı məsləhətçisi, iqtisad üzrə fəlsəfə doktoru**

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması münasibətlərin yeni mərhələyə keçməsinə zəmin yaradır. Səfər çərçivəsində hər iki dövlətin xarici işlər nazirləri tərəfindən Azərbaycanla Çin arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi ilə bağlı saziş imzalanıb.

Dövlət başçılarının birgə bəyanatında da qeyd olunub ki, tərəflər insanlar arasında mübadilənin daha da sadələşdirilməsinə kömək etməyə hazır olduqlarını bildirirlər, bütün sahələrdə əlaqələrin və əməkdaşlığın genişləndirilməsi üçün təkan olacaq ümumvətəndaş pasportuna malik şəxslər üçün "Vizaların qarşılıqlı ləğvi haqqında hökumətlərarası Saziş"in razılaşdırılmasını və imzalanmasını alqışlayırlar.

Vizasız səyahət imkanlarının yaradılması iki ölkə arasında qarşılıqlı etimadın və əməkdaşlığın dərinləşməsinə, eləcə də turizm, iqtisadi və mədəni əlaqələrin genişlənməsinə mühüm töhfə vermək məqsədi daşıyır. Hələ ötən il qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"yə əsasən, etibarlı ümumvətəndaş pasportuna malik Çin vətəndaşları üçün vizasız rejim tətbiq olunur.

Bunun nəticəsində turizm sahəsində dinamika yüksəlib. 2024-cü ildə ölkəmizə səfər edən Çin vətəndaşlarının sayı 2023-cü ilə nəzərən 1,93 dəfə artıb. 2025-ci ilin yanvar ayı isə turizm statistikası baxımından ümidverici göstəricilərlə yadda qalıb və ölkəmizə gələn xarici turistlərin ümumi sayında ötən ilin eyni dövrü ilə müqayisədə 4 faizlik artım qeydə alınıb. Yanvar ayında Şərqi Asiya ölkələrindən Azərbaycana gələn 2983 turistin 2603 nəfəri, yəni 87,3 faizi Çin vətəndaşları olub. Diqqəti cəlb edən məqamlardan biri də odur ki, 2025-ci ilin yanvar ayında Azərbaycana səfər edən Çin turistlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 116 faiz artıb. Bu göstərici təkcə statistik rəqəm deyil, iki ölkə arasında böyüyən qarşılıqlı marağın real ifadəsidir.

2020–2024-cü illər ərzində Çinə səfər edən Azərbaycan vətəndaşlarının sayında 2,2 dəfə artım müşahidə olunub. 2025-ci ilin yanvar ayında isə 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə Çinə səfər edən Azərbaycan vətəndaşlarının sayında 32,4 faiz artım qeydə alınıb. Qarşıdakı dövrdə Azərbaycan vətəndaşları üçün Çinə vizasız giriş rejiminin tətbiqi iki ölkə arasında turizm əlaqələrini daha da inkişaf etdirəcək. Bu təşəbbüs sayəsində Azərbaycan turistləri Çin iqtisadiyyatına valyuta axını təmin edəcək, müxtəlif sahələrdə alış-veriş edərək yerli bazarı canlandıracaq, şəxsi vəsaitlərini sərf etməklə daxili istehlakı artıracaq və eyni zamanda Çin xalqının zəngin mədəniyyəti və tarixi irsi ilə yaxından tanış olma imkanı əldə edəcəklər. Bu, təkcə diplomatik münasibətlərin deyil, xalqlar arasında dostluğun və mədəni yaxınlığın da inkişafına güclü impuls verəcək, əməkdaşlığın yeni mərhələyə keçməsinə zəmin yaradacaq.

Azərbaycanla Çin arasında olan bu dinamika ölkələrarası münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu və qarşılıqlı turizm potensialının sürətlə genişləndiyini nümayiş etdirir. Bu tərəfdaşlıq hər iki ölkənin iqtisadiyyatının müxtəlif sahələrində, xüsusən də turizm, ticarət və xidmət sektorlarında yeni imkanlar yaratmaqla yerli bazarların canlanmasına və iş imkanlarının artmasına töhfə verəcək. Qeyd olunan müsbət tendensiya Azərbaycanın dünya turizm xəritəsində artan cazibədarlığını bir daha təsdiq edir, ölkənin beynəlxalq turizm sahəsindəki mövqeyini gücləndirir.



# Xırmandalının fermer qızı

## Bu zərif qadının qabarlı əlləri minlərlə insana ruzi yetirir

**Masallı rayonunun Xırmandalı kənd sakini Sərimə Əhmədova uzun illərdir ki, quşçuluqla məşğul olur. Özünə məxsus pay torpağında ferma yaradaraq 3 minə yaxın toyuq-cücənin qayğısına təkbaşına qalan Sərimə xanım səhərdən axşamadək fərdi təsərrüfatında çalışır. Əvvəlcə cücələrin yemini, dərmanını verir, sonra damazlıq toyuqlara qulluq edir, yumurtaları yığır.**

O, kənd təsərrüfatı ilə məktəbdə oxuduğu zamanlardan məşğul olub. Mərhum atası Qulam kişi uzun illər Xırmandalı kəndində kolxoza rəhbərlik edib. Övladlarını kiçik yaşlarından əməyə alışdıran Qulam kişi onlarda təsərrüfata, əkin-biçinə maraq oyada bilib.

Sərimə xanım o illəri belə xatırlayır: “Ailədə 9 uşaq olmuşuq. Mən sonuncu idim. Müharibə iştirakçısı, təssərrüfat rəhbəri olan atamız sözü, əməli ilə kənddə yüksək hörmət və nüfuz qazanmışdı. O həm də son dərəcə gözütox insan idi. Özü müharibə iştirakçısı olsa da, veteranlara verilən yardımlardan imtina edirdi. Deyirdi ki, cəbhədə mənimlə yanaşı döyüşən neçə-neçə igidimiz gözümün önündə həlak olub. Mən isə odun-alovun içində sağ qalmışam, hələ bir yardım da almalıyam?! Mənim payımı da müharibədə həlak olan, sağlamlığını itirən şəxslərin ailələrinə verin. Gözümü açandan atamın tələbkarlığı ilə tarlada, fermada çalışaraq halal çörək qazanmaqla böyümüşəm”.

... Xırmandalı rayonun nisbətən uzaq, çöl kəndlərindən sayılır. Yay fəsli quraq keçən kəndin payızı, qışı yağmurlu olur. Dəniz səviyyəsindən 80 metr aşağıda yerləşən kəndin torpaqları, əsasən, şorandır. Əhali heyvandarlıq, əkinçilik və bostançılıqla yanaşı, son vaxtlar tütünçülüklə də məşğul olur.

Dolanışığını alın təri, halal yolla təmin edən Sərimə xanım qazandığı bütün uğurlara təkbaşına nail olub. Deyir ki, 20 ilə yaxındır ki, bu işlə məşğuldur. Şəhərdə yaşayan qardaşları fərdi təsərrüfat yaradıb idarə etməyin çətin olacağını düşünərək onu bu işdən çəkindirməyə çalışıblar. Hətta Sərimə onu Bakıda yaşamağa dəvət edən qardaşlarının təklifini qəbul etsə də, şəxsi təsərrüfat yaratmaq istəyi, əmək sahəsində uğur qazanmaq həvəsi bu xanımı geri, kəndə qayıtmağa vadar edib. Bu inadkarlığını görən universitet müəllimi olan qardaşı oğlu Bədəl bibisinə mənəvi dəstək göstərib, onu bir qədər də həvəsləndirib.

Sərimə xanım deyir ki, pay torpağı az olduğu üçün burada buğda və digər bitkiləri əkib-becərməyi perspektivsiz hesab etdiyindən quşçuluqla məşğul olmağı qərara alıb. Bu yolda müəyyən çətinliklərlə üzləşsə də, istəyinə nail olub. Ömrünün son illərində xəstə yatan atasına qulluq etməklə yanaşı, bu işi qura bilib: “Atam razı deyildi. Deyirdi ki, bu tək adamın, özü də zənən işi deyil. O, vaxtilə təsərrüfat başçısı işlədiyindən dövlət dəstəyi və maliyyə yardımı olmadan tək adamın bu işlərdə necə çətinliklə üzləşəcəyini yaxşı bilirdi. Mənim isə istəyimdən dönməyə fikrim yox idi. Hətta bu işdə tərəddüd edən bütün yaxınlarımı da bunu bacaracağıma inandırmağa çalışırdım.



Bunu görən atam kövrələrək alnımdan öpdü. Mənə bu çətin işdə həm ata, həm də təcrübəli sahibkar kimi xeyir-duasını verdi. Ailəmizin hər bir üzvünə 22 sot pay torpağı verilmişdi. Atam da torpağını mənə bağışladı. Amma bu, quşçuluq təsərrüfatımı genişləndirmək üçün kifayət etmir. İstəyirəm ki, geniş torpağım olsun. Həmin sahəni əkib, yem tədarükü görüm. Hazırda icarədarların istifadəsində olan dövlət fonduna məxsus torpaqlar taxılçılıq üçün bir o qədər də rentabelli deyil. Həmin torpaqlar əkilsə də, yüksək məhsuldarlıq əldə etmək çətindir. Üstəlik də, hər il dövlətdən alınan vəsait boş yerə xərclənilir”.

Kənardan baxdıqda ilk baxışdan onun fermada çalışması inandırıcı görünmür. Yalnız qabarlı əlləri bu xanımın əmək, zəhmət fədaisi olduğunu təsdiqləyir. O, avtomobili peşəkarcasına idarə edir, bütün işlərinin arxasınca özü gedir. Əllərinin qabarı ilə qürur duyduğunu söyləyən fermer xanım deyir ki, sağ olsun dövlətimizi, kəndə qaz, yol çəkib, körpü salıb. Rayon rəhbəri də subasma hallarının qarşısını almaq üçün kanallar çəkdirib. Daha kənddə yaşamağa nə var ki! Bu səbəbdən də kəndə qayıdanların sayı getdikcə artır.

Sərimə xanımda toyuq-cücə bəsləməyə uşaq yaşlarında maraq yaranıb. O, həmin illəri belə xatırlayır: “Qonşuluqda inkubator aparatı yerləşdirmişdilər. Həmin aparatdakı yumurtalardan müəyyən müddətdən sonra cücələr çıxırdı. Bir dəfə qonşunun evinin arxasındakı çökəklikdən civilti səsləri eşitdim. Maraqlandım ki, bu, nə səsdir. Dedilər, yumurtadan çıxmayan cücələrdir, gec əmələ gəlir deyə, çıxarıb ora tökürlər. Ürəyim ağrıdı. Axı onlar canlı idilər.



Dərəyə enərək 22 yumurta seçib evə gətirdim. Odun sobasının altına düzdüm. İstidən o cücələr yumurtanı deşib çıxdılar. Bəzilərinin isə zəif olduqlarından gücləri çatmadığını görüb yumurtaları özüm deşdim. Hamısını böyütdüm. İnanmazsınız, necə də gözəl idilər. Həyətdə, çöldə işləyəndə ürəyim onların yanında olardı, tez qaçardım evə. Sonradan özüm də yumurta alıb aparatda cücə çıxartdırdım. Beləcə, bu işə başladım”.

Bundan əvvəl kənddə bəziləri ona sosial müavinət almaq üçün müraciət etməyi tövsiyə etsələr də, razılaşmayıb. Deyib ki, sağlamlığı ona işləməyə imkan verdiyi halda, dövlətə niyə əlavə yük olmalıdır ki?

... Bu gün kənddə yaşayıb təsərrüfatın müxtəlif sahələrində, eləcə də aqrar sektorda uğurla fəaliyyət göstərən qadınlarımız çoxdur. Onların kənd təsərrüfatının inkişafında fəal rol oynaması sözügedən sahəyə göstərilən hərtərəfli dövlət qayğısının nəticəsidir. Aqrar sahənin çətinliklərini zərif çiyinlərində daşıyan qadınlarımız ölkədə sahibkarlığın inkişafına mühüm töhfələr verirlər. Doğma kəndində quşçuluq təsərrüfatını inkişaf etdirən Sərimə xanım da bütün çətinliklərə rəğmən, il ərzində 10 tona qədər quş əti istehsalına nail olur.

Düşünürəm ki, Kənd Təsərrüfatı Nazirliyi belə təsərrüfatları inkişaf etdirməkdə, kəndlərdə iş yerləri yaratmaqla daxili bazarda məhsul bolluğuna töhfə verməkdə Sərimə Əhmədova kimi xanım fermerlərimizə dəstəyini bir qədər də artırmalıdır.

***İltifat HACIXANOĞLU***

# Polad magistrallara yeni lokomotivlər çıxacaq



**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) tərkibində fəaliyyət göstərən “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (ADY) Çinin “CRRC Ziyang Co., Ltd” şirkətindən 7 ədəd yeni lokomotiv və ehtiyat hissələri əldə edəcək.**

“Azərbaycan Dəmir Yolları” QSC-dən XQ-yə verilən məlumata görə, lokomotivlərin və ehtiyat hissələrinin alınması ilə bağlı bütün texniki və kommersiya məsələləri razılaşdırılıb. Sazişin ümumi dəyəri 26 milyon ABŞ dolları təşkil edir. Qabaqcıl texnologiyalarla, innovativ dartı sistemləri ilə təchiz olunmuş və yüksək texniki göstəricilərə malik müasir AC50 tipli magistral dizel lokomotivi yüksək dartı gücü, daha böyük yanacaq tutumu və etibarlılığı ilə seçilir.

AC50 modeli Beynəlxalq Dəmir Yolları İttifaqı tərəfindən müəyyən edilmiş IIIA səviyyəli ekoloji standartlara cavab verir. Bu, lokomotivdən xüsusi emissiya tələbləri olan ərazilərdə istifadə etməyə imkan verir. Lokomotivlərin xüsusən Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə, eləcə də digər istiqamətlərdə artan yükdaşımalara xidmət etmək məqsədilə istifadəsi nəzərdə tutulur. Növbəti mərhələdə əlavə 14 ədəd magistral lokomotivin alınması planlaşdırılır.

Qeyd edək ki, Azərbaycanın ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə tranzit yüklərin davamlı artmasını nəzərə alaraq ADY yüklərin təhlükəsiz daşınması məqsədilə lokomotiv parkının yenilənməsinə və genişləndirilməsinə ciddi önəm verir.

# AİB-in fəal əməkdaşlıq etdiyi Azərbaycan şirkətləri




**Asiya İnkişaf Bankı (AİB) 2020-ci il yanvarın 1-dən dən 2024-cü il dekabrın 31-dək olan dövr ərzində maliyyələşdirdiyi mallar, işlər və yardımçı xidmətlər üzrə müqavilələrdə iştirak edən Azərbaycanın beş aparıcı podratçısı və tədarükçüsünün göstərildiyi hesabatı dərc edib.**

Bildirilib ki, qurum həmin dövr ərzində Azərbaycan şirkətləri ilə ümumi məbləği 535,57 milyon ABŞ dolları təşkil edən müqavilələr imzalayıb. Siyahıya ən iri məbləğdə müqavilələr bağlamış (nəqliyyat sektorunda 156,28 milyon dollar həcmində) “Lankaran Yol Tikinti” OJSC şirkəti başçılıq edir. İkinci yerdə 39,19 milyon dollar həcmində müqavilələr bağlamış “AS Inshaat-N LLC” şirkəti, üçüncü yerdə isə 37,26 milyon ABŞ dolları həcmində müqavilə qazanmış “Archico LLC” şirkəti gəlir. Hər iki şirkət su təchizatı və digər şəhər infrastrukturu və xidmətləri sahəsində fəaliyyət göstərir.

İlk beşliyə düşən digər şirkətlər isə 22,55 milyon dollar məbləğində müqavilə imzalamış “Azerbaijan Research and Production Association” və 15,64 milyon dollar məbləğində müqavilələr əldə etmiş “Hayat Group MMC” ilə “Bioworks Verfahrenstechnik GmbH”-nin birgə müəssisəsidir. Həmin şirkətlər də su təchizatı və şəhər infrastrukturu sahəsində fəaliyyət göstərirlər. Yerdə qalan məbləğin 264,65 milyon dolları isə müxtəlif bankın müxtəlif layihələrində iştirak edən digər Azərbaycan podratçıları və tədarükçüləri arasında bölüşdürülüb.

Xatırladaq ki, Asiya İnkişaf Bankı 1999-cu ildən etibarən Azərbaycanla əməkdaşlıq edir. Bank ölkə iqtisadiyyatının şaxələndirilməsi, idarəetmənin yaxşılaşdırılması və inklüziv inkişafın stimullaşdırılması üzrə səylərini dəstəkləməyə davam edir.

# Ölkəmiz “Hotelstars” İttifaqına üzv seçilib

**Aprelin 28-də “Hotelstars” İttifaqının Norveçin Oslo şəhərində keçirilən 9-cu Baş Assambleyasında Azərbaycanın tamhüquqlu üzv statusu yekdilliklə təsdiqlənib. Bu barədə Azərbaycan Dövlət Turizm Agentliyi məlumat yayıb. Bildirilib ki, Cənubi Qafqaz regionu üzrə ilk dəfə olaraq məhz Azərbaycan tamhüquqlu üzvlük statusu alaraq qurumun idarəedici strukturlarında təmsil olunmaq imkanı qazanıb.**

Assambleyada çıxış edən Azərbaycan Turizm Bürosunun İdarə Heyəti sədrinin müavini Rəşad Əliyev son illər ölkəmizdə hotelçilik sahəsində beynəlxalq keyfiyyət standartlarının yüksəldilməsinin təşviq olunduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, hotellərin ulduz kateqoriyalarını müəyyən edən sertifikatlaşma orqanı tərəfindən indiyədək 263 hotelə müxtəlif ulduz dərəcələrinin verilib. O, bu ildən Azərbaycanın regionları üzrə ulduz təsnifatı prosesi aparılacağını və dövlət – özəl tərəfdaşlığının bir istiqaməti kimi regionlarda yerləşən hotellərə birinci il üzrə sertifikat tarifi tətbiq edilməyəcəyini vurğulayıb.




Xatırladaq ki, Azərbaycan Turizm Bürosu və Azərbaycan Hotel Assosiasiyası arasında 2018-ci ildə imzalanmış birgə fəaliyyət müqaviləsinə əsasən mehmanxanaların ulduz kateqoriyaları “Hotelstars” İttifaqının təsnifat meyarları əsasında hazırlanan Milli Ulduz Təsnifat Sistemi ilə müəyyənləşdirilir.

# TAP 45 milyard kubmetr qaz nəql edib

**2025-ci il martın 1-dən 29-dək Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 0,9 milyard kubmetr qaz nəql edilib. Bunun 0,74 milyard kubmetri İtaliyaya, 0,07 milyard kubmetri isə Yunanıstan və Bolqarıstana çatdırılıb. Bu barədə kəmərin operatoru olan TAP AG konsorsiumu məlumat yayıb.**



Bildirilib ki, 2020-ci il dekabrın 31-də kommersiya fəaliyyətinə başlayan TAP kəməri ilə 2025-ci il martın 29-dək, ümumilikdə, 45,29 milyard kubmetr qaz nəql olunub.

Qeyd edək ki, TAP Yunanıstan – Türkiyə sərhədindən İtaliyanın cənubuna qədər təbii qazın nəqlini təmin edir və maraqlı tərəflərə qazın müxtəlif Avropa ölkələrinə çatdırılması imkanını təqdim edir.

Boru kəməri Cənub Qaz Dəhlizi çərçivəsində birbaşa və iqtisadi cəhətdən sərfəli nəqliyyat marşrutu təklif edir. Bu dəhliz Xəzər dənizindən Avropaya qədər uzanan 3500 kilometrlik qaz kəməri zəncirini əhatə edir.

# Əmək müqavilələri 1,9 milyona çatıb

**Azərbaycan Sahibkarlar (İşgötürənlər) Təşkilatları Milli Konfederasiyasından aldığımız məlumata əsasən, cari il aprelin 1-dək ölkə iqtisadiyyatında əmək müqavilələrinin ümumi sayı təxminən 1,9 milyon nəfəri əhatə edib. Onlardan 900 min nəfəri dövlət sektorunda, 1 milyon nəfəri isə özəl sektorda fəaliyyət göstərir.**

Bu il aprelin 1-dək ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,2 faiz artaraq 1043,6 manat təşkil edib. Bu gün Azərbaycan iqtisadiyyatı modernləşmə, rəqabətədavamlılıq və innovativ yanaşmalarla yeni mərhələyə qədəm qoyub. Müasir biznes mərkəzləri, sənaye zonaları və texnoparkların inkişafı ilə paralel olaraq, insan kapitalı, kadr potensialı və əmək resurslarının səmərəli idarə olunması məsələləri ön plana çıxıb.



Məlumatda qeyd edilir ki, əmək məhsuldarlığı yalnız iqtisadi amillərlə deyil, işçinin psixoloji və fiziki rifahı ilə sıx bağlıdır. Məhz buna görə də Azərbaycan Sahibkarlar (İşgötürənlər) Təşkilatları Milli Konfederasiyası iş yerlərində İş Sağlamlığı və Təhlükəsizliyi İdarəetmə Sistemi (İSO) kimi beynəlxalq standartların tətbiqini təşviq edir. Hazırda ölkədə bu standartlara uyğun fəaliyyət göstərən müəssisələrin sayının əvvəlki illərlə müqayisədə 2,5 dəfə artması da bunun bariz ifadəsidir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yeni dünya nizamına doğru: Fırtına qoynunda bəşəri ahəng axtarışı

**(əvvəli ötən sayımızda)**

## Çin ilə münasibətlərin strateji prinsipləri

Çin ilə münasibətlərinin spektrinə nəzər saldıqda görünür ki, bu ölkə Azərbaycanın xarici əlaqələri üçün çox ciddi qlobal alternativ qütbdür. Bu həm iqtisadi, maliyyə, həm də siyasi baxımdan bir alternativdir. Çinin tərəfdaş ölkələrin daxili işlərinə qarışmaması, yalnız iqtisadi, kommersiya əlaqələri qurması Pekini bütün ölkələr üçün cəzbedici iqtisadi tərəfdaşa çevirir. Tarixdən bir misal gətirməklə bu məqamı daha aydın təsəvvür edə bilərik. Orta əsrlər dövründə İspaniya Yaponiyada ticarət üzərində monopoliya ilə yanaşı, həm də xristianlığı yayır, zərurət yarandıqda xristian icması vasitəsilə Yaponiya hökumətinə təzyiq göstərirdi. Yeni formalaşan dünya gücü Niderland isə heç bir dini və ideoloji şərtlər qoymadan yalnız kommersiya işləri ilə məşğul olurdu. Nəticədə Yaponiya dövləti ispanları ölkədən qovdu, ticarəti dayandırdı, onların yerini isə Niderland şirkəti tutdu. Yeri gəlmişkən, indi Tramp hökuməti bu təcrübəni tətbiq etməyə başlayıb. ABŞ-ın başqa ölkələrə ideoloji müdaxilə və təzyiqini nəzərdə tutan mexanizmlər USAIDi, "Amerikanın səsi" radiosu və s. strukturlar ləğv olunur və münasibətlərin qurulması üçün demokratiya və insan haqları kimi tələblər qoyulmur.

Bu mənada Çin əlverişli iqtisadi tərəfdaş və alternativdir. Məsələn, Azərbaycan Beynəlxalq Valyuta Fondu (BVF) ilə əməkdaşlığı dayandırıb, Çinin təşəbbüsü ilə təsis edilmiş Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) ilə əməkdaşlıq edir. Siyasi alternativ kimi isə Azərbaycan Çin ilə strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb, "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyənlər sırasında olub. Azərbaycan ŞƏT-ə üzv ola bilər, geosiyasi baxımdan isə Qlobal Cənub Azərbaycanı Çin ilə birləşdirir. İqtisadi əlaqələr də bütün sferaları əhatə edir:

Çin şirkətləri müxtəlif sahələrdə, o cümlədən "yaşıl" enerji və ictimai nəqliyyat vasitələri istehsalı sahəsində strateji tərəfdaş olmağa dəvət edilir;

Çin şirkətlərinin Günəş panelləri Azərbaycanda başqa ölkələrin sərmayəsi ilə inşa edilən stansiyalarda istifadə olunur;

Müdafiə sahəsində də əməkdaşlığa hazırlıq gedir;

Çindən gələn yüklərin bir hissəsi Zəngəzurdan, Zəngilan istiqamətindən keçməyə dəvət olunur.



Yeri gəlmişkən, Azərbaycan Cənubi Qafqazda Çinin ən böyük ticarət tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsinin artımı ötən il 21 faiz (3,7 milyard dollar) təşkil edib. Bu ilin ilk üç ayı üzrə də müsbət dinamika qorunaraq qarşılıqlı ticarət həcmi 37 faizdən (1,02 milyard dollar) artıq yüksəlib. Çindən Azərbaycana yönələn investisiyaların həcmi 942 milyon ABŞ dollarına çatıb. Eyni zamanda, Dövlət Neft Fondunun da daxil olduğu Azərbaycan sərmayələrinin Çinə yatırılan ümumi həcmi təqribən 2,1 milyard ABŞ dollarına yüksəlib.

Göründüyü kimi, Azərbaycan hazırda qlobal konfiqurasiyanın çox mühüm qütbü olan Çin ilə ticarət, investisiya, nəqliyyat və sənaye sahələrində tərəfdaşlığı dərinləşdirməklə kifayətlənmir. Eyni zamanda, Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı dərinləşdirməklə, BRICS ilə təmasları intensivləşdirməklə siyasi əlaqələri də yeni səviyyəyə qaldırır, AİİB ilə əməkdaşlıq isə alternativ beynəlxalq maliyyə tərəfdaşlığının nümunəsidir. Müdafiə sənayesi sahəsində birgə layihələrə dair danışıqlara başlanması isə münasibətləri daha da dərinləşdirə bilər.

## ABŞ ilə münasibətlərin tezisləri



Prezident İlham Əliyev ABŞ ilə Bayden–Blinken dövründə korlanmış münasibətləri Donald Tramp dönəmində yeni səhifədən başlamaq və yeni strateji səviyyəyə yüksəltməyin mümkünlüyü haqda bəyanat vermişdi: "...ümidlər var, ümidlər böyükdür. O cümlədən Amerika–Azərbaycan strateji əlaqələrinə yaxınlaşmaq da mümkün olacaq. Mən hesab edirəm ki, əgər hər iki tərəf maraqlı olsa, biz Amerika–Azərbaycan əlaqələrini strateji səviyyəyə qaldıra bilərik". Azərbaycan Prezidentinin 2025-ci ilin yanvarında səsləndirdiyi bu fikirlərlə aprelin 10-da Prezident Donald Trampın Prezident İlham Əliyevə ünvanlandığı məktubda qeyd olunmuş "birgə işləməyi səbirsizliklə gözləyirəm" ifadəsi, "ABŞ-ın Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olduğu"nu vurğulaması, gələcək əməkdaşlıqda "möhtəşəm məqamların" olacağını qeyd etməsi artıq ABŞ–Azərbaycan münasibətlərində post Bayden dövrünün başlandığını, yeni səhifənin açıldığını deməyə əsas verir.

ABŞ Prezidentinin məktubunda Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə sarsılmaz dəstək ifadə edilməsi dünyanın xaos dövründə ölkəmizin beynəlxalq təhlükəsizliyi üçün çox vacib bəyanatdır və yeni situasiyada Azərbaycanın beynəlxalq mövqeyini gücləndirir.

Azərbaycanın İsrailə verdiyi dəstəyə görə təşəkkür məqamında isə Donald Tramp Azərbaycanı "Amerikanın dostunun dostu" kimi dəyərləndirir, bununla da ölkəmizi İsraillə eyni sırada Amerikanın dostları sırasına daxil edir. Başqa tərəfdən isə ABŞ Prezidentinin Türkiyə ilə İsrail arasında vasitəçilik missiyasına görə təşəkkür etməsi İsrailin və onun strateji müttəfiqi olan Amerikanın təhlükəsizliyinə Azərbaycanın verdiyi töhfə kimi qiymətləndirməsidir. Deməli, Azərbaycan Yaxın Şərqdə təhlükəsizliyə töhfə vermək potensialına malikdir, konkret halda vasitəçilik missiyası təsirli olub və praktik olaraq yeni mexanizmin qurulmasında iştirak edir. Həm də bu, təkcə İsrail ilə məhdudlaşmır, Suriya ilə yeni səhifənin açılması, Birləşmiş Ərəb Əmirlikləri, Qətər kimi Körfəz ölkələri ilə sıx əməkdaşlıq formatları, D8 təşkilatına üzvlük də Türkiyə ilə yanaşı, Azərbaycanı da Yaxın Şərqin təhlükəsizlik arxitekturasının tərkib hissəsinə çevirir. Cənubi Qafqazda da təhlükəsizlik arxitekturasının memarı olmaq üçün iqtisadi, siyasi, hərbi və s. "kartlar" Azərbaycanın əlindədir. Odur ki, Azərbaycan Yaxın Şərqlə yanaşı, Cənubi Qafqaz və Mərkəzi Asiya strategiyasında da ABŞın vazkeçilməz tərəfdaşı ola bilər. Prezident Donald Trampın Yaxın Şərqdə əsas tərəfdaş kimi gördüyü Türkiyə Prezidenti isə Antalyada görüş zamanı Azərbaycanı Cənubi Qafqazın sülh arxitektoru kimi gördüyünü deyib.

Nəticədə:

Azərbaycan ABŞ üçün Yaxın Şərqdəki tərəfdaşlarının təhlükəsizliyində vacib amildir;

ABŞ-ın NATO-dakı tərəfdaşları Avropanın enerji və nəqliyyat, ticarət təhlükəsizliyi üçün dəyişməz tərəfdaşdır.

## Yekun

Prezident İlham Əliyevin TDT və Rusiya ilə strateji müttəfiqlik, Aİ ilə enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaşlıq, Çin ilə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırması, ABŞın administrasiyası ilə strateji tərəfdaşlığı genişləndirməyə hazır olması haqda bəyanatları göstərir ki, Azərbaycan Prezidenti qlobal qarşıdurmaya əsas təsiredici qüvvələrin siyahısını dəqiq müəyyənləşdirib və nəinki əsas aktorları, həm də onların hər birinin qlobal qarşıdurmadakı başlıca məqsədlərini də aydınlaşdırıb.

Əsas aktorların və onların başlıca məqsədlərinin aydınlaşdırılması Azərbaycana imkan verir ki, öz milli hədəflərini bu məqsədlərlə uzlaşdırsın, kiminlə hansı mərhələdə ziddiyyətlərin ortaya çıxa biləcəyini proqnozlaşdırsın, beləliklə hər mərhələyə uyğun ittifaqlarda iştirak etsin. Məsələn, Fransa ilə münasibətlərdə yaranmış ziddiyyətlər, AŞPA və AP ilə problemlərin idarə olunmasında Şərqi Avropadakı müttəfiqləri və Türkiyə ilə ittifaq sayəsində Azərbaycan rəqibləri çıxılmaz vəziyyətə saldı.

Rusiya ilə hərbi qarşıdurma və iqtisadi sanksiyalar rejimində olan, ABŞ ilə münasibətlərində hərbi-siyasi və iqtisadi müstəvilərdə problemləri yaranmış Avropanın türk dövlətlərinə ehtiyacı artmaqdadır. Belə bir məqamda Fransanın təhriki ilə Azərbaycana edilmiş təzyiqlər və Azərbaycanın verdiyi əks-təzyiq reaksiyası qoca qitəni Parisin yedəyində getməməyə inandırıb.

Rusiyanın bugünkü əsas hədəfi Ukrayna savaşından qalib çıxmaq, Qara dənizdə və Avropa təhlükəsizliyində geosiyasi mövqelərini gücləndirmək, iqtisadi sanksiyaların təsirini azaltmaqdır. Azərbaycan yaranmış çox mürəkkəb situasiyada bacarıqla manevr edir: Rusiyaya qarşı sanksiya siyasətinə qoşulmur, Şimal–Cənub nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq edir, eyni zamanda, Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, humanitar yardım göstərir, paralel olaraq Avropanı qazla təmin edir, ABŞ ilə əlaqələri isə strateji səviyyəyə qaldırmağa hazırdır.

Bu platformanı "heç kimə qarşı olmadan qarşıduran tərəflərin legitim maraqları ilə həmrəy olmaq" siyasəti adlandırmaq olar. Bu, tətbiqi xeyli mürəkkəb olan, həm iqtisadi və siyasi resurs, həm də siyasi iradə tələb edən bir siyasi platformadır. Münaqişədə iştirak etmədən tərəflərlə legitim müstəvilərdə əməkdaşlıq imkanı yaradır.

Bu, xaos dövrünün ən ideal siyasi, iqtisadi və təhlükəsizlik strategiyasıdır.

Bu, elə bir davranış formuludur ki, çoxqütblü nizama xas olan şərtlərin, qüvvələr nisbətinin, beynəlxalq tərəfdaşların, müttəfiq və rəqiblərin çevik, gözlənilməz dəyişməsi hallarında bütün situasiyalara adaptasiya olunmaq qabiliyyətindədir. Məsələn, Rusiya–Çin, ABŞ–Rusiya münasibətlərindəki bugünkü şərtlərin dəyişməsi Azərbaycanın sabit münasibətlərinə tektonik təsirlər göstərməyəcək. Odur ki, bu siyasi strategiya qlobal xaos dövründə milli təhlükəsizlik, xarici investisiyalar və yükdaşımalar üçün riskləri minimallaşdırır.

***İbrahim MƏMMƏDOV,***
***tarix üzrə fəlsəfə doktoru***

---

# NATO-nun Gürcüstan təlimində Azərbaycan da iştirak edir

**"Hazırda dünyada terror, nüvə silahlarının yayılması, həmçinin dezinformasiya və iqlim dəyişikliyi kimi çoxsayda müxtəlif təhlükələr mövcuddur. Bu problemlər həll edilməlidir. Artıq NATO üzvü ölkələr müdafiə xərclərini artırıblar. Bütün bunlar lazımdır, lakin yaxın 4 – 5 ildə gələcək təhlükələrin öhdəsindən gəlmək üçün kifayət deyil ... Münaqişənin qarşısını almaq üçün ona hazırlaşmaq lazımdır. Artıq müharibə təfəkkürünə keçməyin vaxtı çatıb". Bu sözləri NATO-nun baş katibi Mark Rutte 2025-ci ildə keçiriləcək hərbi təlimlərin vacibliyinə toxunarkən deyib.**

Təlimlərdən biri Gürcüstan Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "NATO – Gürcüstan təlimi 2025" rəsmi olaraq start götürüb. Bu, üç ildən bir keçirilən NATO – Gürcüstan birgə təlimləri silsiləsində dördüncü təlimdir. O kompüter dəstəyi ilə briqada səviyyəsində keçirilən komanda-qərargah məşqlərindən ibarətdir. Məqsədi çoxmillətli briqada bölmələrinin böhran əməliyyatlarının planlaşdırılması və icrası üzrə hazırlıq səviyyəsinin artırılmasıdır. Həm də iştirakçı ölkələrin müdafiə qabiliyyətini artırmaqdan və Alyansa üzv olmayan ölkələrdə yarana biləcək böhranlı vəziyyətə çevik reaksiya mexanizmlərini hazırlamaqdan ibarətdir.



Təlimlərdə NATO-ya üzv və tərəfdaş olan 17 ölkə iştirak edir. Gürcüstanla yanaşı, Azərbaycan, Bolqarıstan, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İtaliya, Litva, Polşa, Slovakiya, Türkiyə, Böyük Britaniya, ABŞ, Moldova, Ermənistan və Tunis nümayəndələri təlimlərə qatılıblar. Çoxmillətli tədbirə bir sıra beynəlxalq təşkilatlar və bölmələr də cəlb olunublar.

Onu da qeyd edək ki, NATO təlimlərində Gürcüstanla yanaşı, Azərbaycan və Ermənistan da iştirak edir. Bəs bu təlimlər Azərbaycana nə verir? Yada salaq ki, Azərbaycan – NATO tərəfdaşlığının 30 ildən artıq tarixi var. 1994-cü il mayın 4-də Belçikanın paytaxtı Brüsseldə NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramının çərçivə sazişinin imzalanması ilə Azərbaycan – NATO münasibətlərinin beynəlxalq müstəvidə təməli qoyulub. Bununla da ölkəmiz alyansın hərbi strukturları ilə əməkdaşlıq etmək, birgə təlimlər keçirmək imkanları qazanıb. Azərbaycan bu proqrama qoşulmaqla özünü etibarlı və nümunəvi tərəfdaş kimi göstərməyə müvəffəq olub. Eyni zamanda, NATO standartlarına uyğun olaraq, Azərbaycan Ordusunda islahatlar aparılıb, təlimlər həyata keçirilib. Şimal Atlantik Alyansında mövcud olan qabaqcıl təcrübələr Azərbaycan Ordusunda da tətbiq edilib.

NATO – Azərbaycan əməkdaşlığı elm və təhsil kimi sahələrdə də uğurla inkişaf etdirilir. Hərbi kadrların hazırlanmasında blokun təcrübəsindən geniş istifadə olunur.

Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin tədrisinin məzmun və formasının Avropa təhsil standartlarına və Boloniya prosesinə uyğunlaşdırılması, eləcə də pedaqoji kadrların təkmilləşdirilməsi sahəsində ciddi işlər görülür. Əməkdaşlıq azərbaycanlı hərbçilərin Türkiyə hərbi məktəblərində təhsil almasına imkan yaradıb. Onlar Macarlstan və s. ölkələrdə hərbi kurslarda iştirak edirlər.

Alyansın həyata keçirdiyi tədbirlər çərcivəsində ölkəmizdə də kurslar təşkil olunur. Məsələn, Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2025-ci il üçün "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən Bakıda "Hərbi əməliyyatların hüquqi aspektləri" mövzusunda kurs keçirilir. Kursun əsas məqsədi Silahlı Münaqişələr Hüququnun yaranması və prinsipləri, güc tətbiq etmək üçün hüquqi çərçivə sənədi, sülhə dəstək əməliyyatlarının hüquqi aspektləri, əməliyyatlarda hədəf almanın hüquqi aspektləri, mülki əhalinin müdafiəsi, mədəni sərvətlərin qorunması, rəhbər heyətin məsuliyyəti, NATO missiyalarında qüvvələrin statusu və imtiyazları, həmçinin sülhməramlı əməliyyatlar zamanı beynəlxalq müqavilələr mövzularında təcrübələrin aşılanmasıdır.

Hazırda azərbaycanlı zabitlər həm də NATO qərargahında bu qurumla sıx əməkdaşlıq edirlər. İslahatlar çərçivəsində Prezident İlham Əliyev Azərbaycan Ordusunda Türkiyə modelinin tətbiq olunması ilə bağlı göstəriş verib. Onu da qeyd edək ki, Azərbaycan NATO ilə terror təhlükəsi ilə bağlı kəşfiyyat mübadiləsi həyata keçirir, siyasi müzakirələrdə iştirak edir.

Ölkəmizlə NATO arasında əməkdaşlığın əsasını təşkil edən məsələlərdən biri də döyüşçülərimizin etibarlı tərəfdaş kimi sülhməramlı əməliyyatlarda iştirakıdır. Azərbaycan müxtəlif vaxtlarda Kosovo, İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edib. Belə ki, 2002-ci il noyabrın 20-də Azərbaycan Ordusunun 22 nəfərlik sülhməramlı taqımı Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) tərkibində fəaliyyət göstərməyə başlayıb. Sonradan kontingentinin sayı artırılıb. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsinin və ISAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyini təmin edib, patrul xidmətini həyata keçirib. Bu missiya 26 avqust 2021-ci ildə başa çatıb. Belə ki, Əfqanıstanın Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifələrini yerinə yetirən 120 nəfərdən ibarət Azərbaycan sülhməramlısı tam heyətdə avqustun 26-da bu ölkədən çıxıb. Bu isə ölkəmizin NATO ilə əməkdaşlığa sadiqliyini bir daha nümayiş etdirir. Bu, bizim üçün böyük təcrübə olub.

2004-cü ildə isə Azərbaycan Prezidenti Brüsseldə Azərbaycanın ilk Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını (FTƏP) NATO rəhbərliyinə təqdim edib. Əməkdaşlıq fəaliyyətləri, islahat planları və siyasi dialoq prosesləri FTƏP-də öz əksini tapıb. Silahlı qüvvələr üzərində tam demokratik nəzarətin yaradılması, müdafiə tədbirlərinin formalaşdırılması, o cümlədən, NATO-nun norma və standartlarına uyğun olaraq bütün silahlı qüvvələrin təşkilati strukturunun yaradılması əməkdaşlığın əsas sahələridir.

Onu da qeyd edək ki, müdafiə və təhlükəsizlik sektorunda islahatlar, hərbi qüvvələrin NATO standartlarına uyğun inkişaf etdirilməsi, NATO-nun sülhə dəstək əməliyyat və missiyalarında iştirakla yanaşı, Azərbaycan – NATO əməkdaşlığı geniş spektrli olmaqla, enerji təhlükəsizliyi, fövqəladə hallara hazırlıq, meydana çıxan təhlükəsizlik çağırışları ilə mübarizə, ictimai diplomatiya, humanitar minatəmizləmə və digər qarşılıqlı maraq doğuran qeyri-hərbi sahələri də əhatə edir. Deməli, Avropanın enerji təhlükəsizliyi də Şimal Alyansı ilə əməkdaşlığımızda aparıcı rol oynayır. Azərbaycan Avropanın 11 ölkəsinə qaz nəql edir ki, onların da əksəriyyəti NATO-ya üzv dövlətlərdir. Bu isə həm böyük üstünlük, həm də böyük məsuliyyətdir. Şübhəsiz ki, tərəflər arasında nəqliyyat əlaqələri də mühüm əhəmiyyət daşıyır.

Azərbaycanla NATO arasında davamlı yüksək səviyyəli qarşılıqlı səfərlər də tərəfdaşlığın inkişafında mühüm rol oynayır. Bütün bu faktlar göstərir ki, Azərbaycan bundan sonra da həm NATO, həm də ayrı-ayrı dövlətlərlə hərbi əməkdaşlıq çərçivəsində fəaliyyət göstərəcək, Alyansın təcrübəsinin hərtərəfli və dərindən öyrənilməsinə imkanlar qazanacaq.

Ümumiyyətlə, Azərbaycan – NATO münasibətlərini qısa olaraq belə xarakterizə etmək olar: Azərbaycan Respublikası Avropa və Avroatlantik məkanda qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırımlısında NATO ilə birgə işləyir. Ölkəmiz təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropada yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir.

Beləliklə, bu həm də onu göstərir ki, tərəfdaşlığımız təkcə siyasi dialoqa yox, həmçinin əyani əməkdaşlığa söykənir. Bundan əlavə, təbii ki, bu regionda sülh bölgə xalqları, ölkələri üçün çox vacibdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Xocalı, sənə ədaləti biz özümüz gətirdik!



(əvvəli 1-ci səhifədə)

Əlbəttə, işğaldan azad edilmiş ərazilərimizə “Böyük Qayıdış”ın hər anı şanlı tariximizin zəfər səlnamələrinin davamı kimi mühüm əhəmiyyət daşıyır. Ancaq aprelin 28-də reallaşan bugünkü köç digərlərindən fərqlənir. Çünki hər dəfə sevinclə, sevgiylə öz doğma sakinlərinə qucaq açdıqca Xocalının da unudulmayacaq dərdləri azalır, yaraları sağalır, şəhidlərinin ruhları əbədi dinclik tapır. Çox şükür, bu qədim yurdumuz yenidən qayğısız, xoşbəxt günlərinə dönür...



Hamı səbirsizliklə köç karvanını gözləyir. Məlumat alırıq ki, maşınlar Ağdamı keçməkdədir. Fürsətdən istifadə edib Xocalı sakini, dəhşətli soyqırımı gecəsinin də, şəhərin yenidən qurulmasının da şahidi və iştirakçısı Sovet Allahverdiyevlə söhbətləşirik. Sovet müəllimi çoxdan tanıyıram. Məcburi köçkünlük illərində Xocalı rayonunda müxtəlif vəzifələrdə çalışıb. Həmişə də həmyerlilərinin qayğılarıyla maraqlanıb, onların dərd-sərlərinə şərik olub. Rəşadətli orsumuzun 2023-cü il sentyabrın 19–20-də Qarabağda erməni separatçılarına qarşı keçirdikləri lokal antiterror tədbirlərindən az sonra burada işləmək, başlanan bərpa-quruculuq işlərində iştirak etmək məqsədilə Xocalıya gəlib. Həmin ilin oktyabrından doğma yurdunda yaşayır, bir neçə ay əvvəl isə öz evinə yığışıb. Bildirdi ki, evi yenidən bərpa edilib, içərisində hər cür şərait yaradılıb:



– Xocalının hər qarışına bələd olduğum üçün şəhərdə bərpa-quruculuq prosesi başlayanda məni də məsləhətçi kimi dəvət etdilər. Salamat qalmış evlərin kimə məxsus olması, yandırılmış və ya tamamilə dağıdılmış evlərin yerləri haqqında məlumat verirdim. Məsələn, bax, bu qarşımızdakı 4 tikilinin yerində vaxtilə evlər vardı (əlilə yaxınlıqdakı yan-yana, əhalinin məşulluğunu və peşə ixtisasına yiyələnməsini təmin etmək məqsədilə təmir olunmuş binaları göstərir – M.R.), ermənilər kürüyüb hərbi obyektlər tikmişdilər...

Yenidən Xocalıda yaşamaq, burada işləmək böyük xoşbəxtlikdir. Hərdən elə bilirəm şirin yuxudayam. Əhali qayıtdıqca Xocalı da dirçəlir. Günahsız insanların qanı ilə suvarılmış bu torpaqlarda yeni, daha gözəl şəhərin salınması şəhidlərimizin ruhuna ən böyük ehtiramdır!

Söhbətimiz yarımçıq qalır. Budur, 137 nəfərdən ibarət 33 ailəni həsrətin, acıların, məcburi köçkünlüyün bitdiyi müqəddəs yurda daşıyan köç karvanı Xocalıya çatır və bununla da şəhərdə daimi məskunlaşacaq sakinlərin sayı 341 nəfər çatır.

Möhtəşəm qələbələrimizin memarı, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi hər köçdə olduğu kimi, xocalılıların da rahat, təhlükəsiz qayıdışı üçün bütün tədbirləri görüb. Köç karvanını polis və səhiyyə işçiləri müşayiət edir. Avtomobillər dayanır, Xocalının sakinləri illər boyu arzuladıqları torpağa qədəm basırlar – bir qismi yenidən, bir qismi ilk dəfə.

Gözlənildiyi kimi, sevinclə kədər bir-birinə qarışır, vaxtilə min-bir müsibətlə tərk etməli olduqları, bir gecədə neçə-neçə əzizlərini, yaxınlarını itirdikləri Xocalıya dönənlər göz yaşlarına hakim ola bilmirlər. Sanki Xocalı da bu duyğuları qarşılıqsız buraxmır, göydən yaz yağışı çiləyir. Ancaq hər kəsin çöhrəsində sözlə ifadə edilə bilməyəcək qürur var. Uşaqlı-böyüklü hamı qalib ölkənin vətəndaşı olmağın qürurunu yaşayır.

Elə sakinlərə yeni evlərinin açarlarının təqdim edilməsi mərasimində çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsin icraçı direktoru Telman Kərimli də bu günün tarixi və qürurverici gün olduğunu dedi. Bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən “Böyük Qayıdış” proqramı çərçivəsində doğma torpaqlarımıza geri dönüşümüz reallığa çevrilir. Bu təkcə ata-baba yurduna qayıdan ailələr üçün deyil, bütün Azərbaycan xalqı üçün böyük sevinc və qürurdur. Çünki Xocalının dirçəlişi, burda həyatın yenidən canlanması, bir zamanlar işğal altında olan torpaqlarımızda bu gün üçrəngli bayrağımızın dalğalanması dövlətimizin gücünün və xalqımızın əzminin bariz nümunəsidir. Bugünkü köç təkcə bir köç deyil, həm də yenidən qurulan, çiçəklənən Xocalının başlanğıcıdır.

T.Kərimli dövlətimizin bundan sonra da xocalılıların yanında olacağını, onların sosial qayğılarının və məşğulluq məsələlərinin diqqətdə saxlanılacağını da sakinlərin diqqətinə çatdırdı.

Adlar səsləndi, evlərin açarları sahiblərinə təqdim edildi. Daha sonra məcburi köçkünlük həyatı rəsmi olaraq sona çatan xocalılılar yeni evlərində yerləşməyə başladılar. Biz də “Xalq Qəzeti” olaraq sakinləri təbrik edənlər sırasına qoşulduq, onların bir neçəsindən hansı hisslər keçirdiyini soruşduq. Həmsöhbət olduğumuz Kəmalə İsmayılova iki övladı ilə Xocalıya ilk dəfədir gəldiyini dedi:

–Xocalı faciəsi baş verəndən bir il sonra, məcburi köçkün kimi doğulmuşam. Bu günə qədər Xocalını görməmişdim, ancaq o qanlı gecə haqqında danışılanlar, izlədiyimiz dəhşətli kadrlar elə balacalığımdan ürəyimdə bir nisgilə çevrilmişdi. Oğlum da, qızım da Xocalı sevgisi ilə böyüyürlər. İndiyə qədər biz bu hissləri uzaqdan-uzağa yaşayırdıq, bu gündən sonra isə Xocalının özündə yaşayacağıq. Çox qürurluyam. Maşından düşüb yerə ayaq basandan bu torpağa bağlılıq, qəribə duyğular doldu qəlbimə. Uşaqlarım da sevinirlər, çatandan sağa-sola qaçır, oynayırlar. Başda möhtərəm Prezidentimiz olmaqla bu günü bizə bəxş edənənlərə sonsuz minnətdarlığımı bildirirəm!

Faciə gecəsi şəhid olmuş həyat yoldaşının xatirəsinə Nişanə adı qoyduğu qızı, babasının şəklini bağrına basmış nəvəsi Nurayla bir qərinəlik həsrətdən sonra Xocalıya qayıdan Fitat Məmmədova da yaşadığı bütün ağrı-acılara rəğmən bu gün sevinc və qürur içində olduğunu bildirdi:

– Xocalıda doğulub-böyümüşəm. Soyqırımı törədilən zaman erməni vəhşiliyinin acılarını ən ağır şəkildə yaşamışam. Mən o gecədə həyat yoldaşımı, qardaşlarımı, daha neçə əzizlərimi itirmişəm. Ancaq bütün acılar keçmişdə qaldı. Mən bu gün çox xoşbəxtəm ki, qızım, nəvələrim şəhidlərimin qanı tökülən torpağa qayıdaraq öz evimizdə yaşayacaq, babalarının ocağını yandıracaqlar. Bu, mənim üçün ən böyük təsəllidir. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Heç zaman unutmayacağımız bu gözəl anlar üçün dövlətimizə, möhtərəm cənab Prezidentimizə minnətdaram! Bu xoşbəxtliyi bizə qismət edən Allaha şükürlər olsun!

Amin! Xocalının əzəli, əbədi sakinləri ilə vidalaşarkən biz də onların arzularına, dualarına qoşulur, “doğma yurdunuza xoş gəldiniz, əziz xocalılılar!” deyirik!

Bu gün Xocalının gülən gözləri ölkəmizə sevinc saçır!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**



# Siyasi partiya liderləri Laçında

**Ölkəmizdə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti və bununla əlaqədar formalaşmaqda olan yeni siyasi mədəniyyət çərçivəsində siyasi partiya sədrlərinin işğaldan azad edilmiş ərazilərə birgə səfərlərinin təşkili Azərbaycan ictimaiyyəti tərəfindən artıq müsbət demokratik ənənə kimi qəbul olunur. Milli həmrəylik təzahürü ilə təcəssüm olunan və ictimaiyyət tərəfindən təqdir edilən bu demokratik təcrübə siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı və işgüzar münasibətləri daha da dərinləşdirir.**

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi şəkildə müxtəlif səpgili layihələr icra edilir. Görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və bu kimi digər layihələr siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət göstərir. Azərbaycan ictimaiyyəti təqribən son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar hökumət tərəfindən atılan bütün təşəbbüslər mediada açıq şəkildə işıqlandırılır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri prinsipial və davamlı şəkildə qeyd edir.

Siyasi partiya rəhbərlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərlərinin təşkili təcrübəsi konkret məsələlərin müzakirəsi üçün işgüzar mühiti yaratmaqla tərəflər arasında konstruktiv əməkdaşlığı təşviq edir.

və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib.

Ölkədə həmrəylik mühitinin qorunmasında siyasi partiyaların müstəsna əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Vətənpərvər qüvvələri birləşdirən əsas amilin milli maraqlar və dövlətçilik mövqeyi olduğunu bildirən Ədalət Vəliyev bildirib ki, Laçının timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan bərpa-quruculuq işlərinin səviyyəsi haqqında təsəvvürlər formalaşa bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı müasir Azərbaycan tarixinin ən qürurlu səhifələrindən olduğunu bildirən Administrasiya rəsmisi mövcud istiqamətdə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş müvafiq dövlət proqramlarından da söhbət açıb.

Suverenliyin tam bərpasının Azərbaycan tarixinin mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsi olduğunu xüsusi vurğulayan Ədalət Vəliyev diqqətə çatdırıb ki, ölkəmizdə yaşanan milli həmrəylik mühiti sabitlik və dayanıqlı inkişafın zəmanətidir. Siyasi dialoqda fəal iştirak edən siyasi partiyalar həmrəylik mühitinin qorunmasına öz töhfələrini verirlər. Odur ki, siyasi partiyaların Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu cür layihələrdə fəal iştirakı bilavasitə milli və siyasi həmrəyliyin təzahürüdür.



Ölkəmizdə yaşanan siyasi dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, beynəlxalq tədbirlərdə də tərəf müqabili kimi iştirak edirlər. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə birgə səfərlərlə yanaşı, ölkə siyasiləri, həmçinin Şuşa Bəyannaməsinin birinci ildönümü ilə əlaqədar 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş “Azərbaycan–Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir” adlı beynəlxalq konfransa da qatılıblar. Bununla da siyasi partiyalar cəmiyyətin intellektual potensialının səfərbər edilməsi kimi dövlət üçün mühüm və strateji vəzifənin icrasını təmin etmiş olurlar.

Növbəti, artıq sayca 6-cı olan birgə səfərin ünvanı Laçındır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə aprelin 29-da həyata keçirilmiş səfərdə ümumilikdə 80 nəfər olmaqla, 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər. Səfər çərçivəsində Zabuxçay su anbarı, Laçın şəhəri, o cümlədən Heydər Əliyev küçəsi, “Lacinema” kino mərkəzi, “Hoçazfilm” kinopavilyonu və Bəylik kəndində aparılan bərpa və yenidənqurma işləri ilə tanışlıq olub, habelə “Zerti Aqro-Sənaye Parkı”nda fəaliyyət göstərən müəssisələr haqında ətraflı məlumatlar verilib.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Laçın şəhərində iştirakçılar qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı şəkildə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti

Səfər çərçivəsində siyasilər Laçının iqtisadi, habelə turizm potensialı ilə də tanış olublar. İştirakçılara bildirilib ki, Laçının turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Hökumətin bu cür təşəbbüslərində siyasi partiyaların fəal iştirakı sayəsində siyasətdə konstruktiv əməkdaşlıq, dövlət naminə şəxsi ambisiyalardan imtina olunması, milli həmrəylik, habelə etibarlı münasibətlər təmin edilir. Əlamətdar və müsbət haldır ki, sözügedən səfərlər Prezident İlham Əliyevin yerlərdə yeni yaşayış məkanların rəsmi açılışlardan və Qarabağa köçmüş sakinlər ilə görüşlərdən sonra təşkil olunur. Sözügedən hal bir daha ölkəmizdə sağlam iqtidar-müxalifət münasibətlərinin mövcudluğundan xəbər verir.

Xatırladaq ki, sağlam və səmərəli əməkdaşlıq mühitinin bərqərar olunmasına xidmət edən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha əvvəl Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran və Xankəndiyə təşkil olunub.

***XQ***



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 137** **Bakı şəhəri, 25 aprel 2025-ci il**

**“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

1.1. “Memarlıq abidələri” bölməsinə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu” hissəsindən sonra aşağıdakı məzmunda “Binəqədi rayonu” hissəsi əlavə edilsin:

“Binəqədi rayonu

| | | | | |
|---|---|---|---|---|
| 93-14. | Heydər Məscidi | 2012-2014-cü illər | Həmzə Babaşov küçəsi, 6 | „ |

1.2. “Arxeoloji abidələr” bölməsi üzrə:

1.2.1. “Binəqədi rayonu” hissəsi üzrə:

1.2.1.1. 490-cı və 491-ci bəndlərdə “Xocahəsən” sözü “Xocəsən” sözü ilə əvəz edilsin;

1.2.1.2. aşağıdakı məzmunda 491-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 491-1. | Ovdan | XX əsr | Biləcəri qəsəbəsi, Xocəsən qəsəbəsi, Xəzri küçəsi, giriş 137 |

1.2.2. “Abşeron rayonu” hissəsinin 605-ci bəndi ləğv edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

2.1. “Memarlıq abidələri” bölməsi üzrə:

2.1.1. “Binəqədi rayonu” hissəsi üzrə:

2.1.1.1. 2570-2573-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2570. | Məscid | 1658-ci il | Biləcəri qəsəbəsi, Aşıq Şəmşir küçəsi, 10 |
| 2571. | Hacı Əmrah hamamı | 1915-1916-cı illər | Binəqədi qəsəbəsi, Orxan Cabbarov küçəsi, giriş 4 |
| 2572. | İnzibati bina | 1914-cü il | Binəqədi qəsəbəsi, Binəqədi şosesi, 8 |
| 2573. | Məscid və minarə | 1818-ci il, 1909-1914-cü illər | Binəqədi qəsəbəsi, Gülməmməd Ramazanov küçəsi, 101 |

2.1.1.2. aşağıdakı məzmunda 2573-1-2573-8-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 2573-1. | Əlimurad hamamı | XVIII-XIX əsrlər | Görədil bağları massivi |
| 2573-2. | Məmməd Həsən hamamı | XIX əsr | Görədil bağları massivi |
| 2573-3. | Hacı Ağa Murad hamamı | XIX-XX əsrlər | Görədil bağları massivi |
| 2573-4. | Suvurma qülləsi | XIX əsrin sonu-XX əsrin əvvəlləri | Biləcəri qəsəbəsi, Əhməd Qasımov küçəsi |
| 2573-5. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Geodeziya və Kartoqrafiya Agentliyi” publik hüquqi şəxsin binası | 1980-ci il | Atatürk prospekti, 224 (70) |
| 2573-6. | Müqəddəs Varfolomey kilsəsi | XX əsrin əvvəlləri | Biləcəri qəsəbəsi, Mehdi Hüseynzadə küçəsi, 89A-91 |
| 2573-7. | İnzibati bina (“Azərbaycan Dəmir Yolları” QSC-nin İnfrastruktur Departamentinin 2 nömrəli Biləcəri Yol Sahəsinin binası) | XX əsrin əvvəlləri | Biləcəri qəsəbəsi, Mehdi Hüseynzadə küçəsi, giriş 49 |
| 2573-8. | Bakı şəhəri 6 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin binası | XIX əsrin sonu-XX əsrin əvvəlləri | Biləcəri qəsəbəsi, Mehdi Hüseynzadə küçəsi, giriş 85 |

2.1.2. “Abşeron rayonu” hissəsinin 4000-ci və 4012-ci bəndləri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 140** **Bakı şəhəri, 25 aprel 2025-ci il**

**“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1201-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1201-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I); 2024, № 3, maddə 296) ilə təsdiq edilmiş “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası”nın 4.3.1-ci yarımbəndində “qeydiyyat vəsiqəsinin” sözləri “vəsiqənin” sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 502 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2083 (Cild I); 2024, № 7, maddə 908) ilə təsdiq edilmiş “Dərman vasitələrinin ekspertizasının, o cümlədən sadələşdirilmiş ekspertizasının aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.13.5-ci yarımbənddə “vəsiqə” sözü “dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin” sözləri ilə əvəz edilsin;

2.2. 6.12.2-ci yarımbənddə və 6.13-cü bənddə ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “dövlət qeydiyyatı haqqında vəsiqə” sözləri ilə əvəz edilsin;

2.3. həmin Qaydaya 2 nömrəli əlavə - “Dərman vasitəsinə dair EKSPERTİZA RƏYİ”ndə “Vəsiqə sahibi” sözləri “Ərizəçi” sözü ilə, “Vəsiqə.sahibinin” sözləri “Ərizəçinin” sözü ilə, “Marketing Authorization holder” sözləri hər iki halda “Applicant” sözü ilə əvəz edilsin;

2.4. həmin Qaydaya 3 nömrəli əlavə - “Dərman vasitəsinin qeydiyyat sənədlərində edilən dəyişikliklərə dair EKSPERTİZA RƏYİ”ndə (hər iki halda) “Vəsiqə” sözü “Dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin” sözləri ilə əvəz edilsin;

2.5. həmin Qaydaya 4 nömrəli əlavə - “Dərman vasitələrinin idxalı üçün EKSPERTİZA RƏYİ”ndə “Vəsiqə sahibi” sözləri “Ərizəçi” sözü ilə, “Vəsiqə sahibinin” sözləri “Ərizəçinin” sözü ilə, “Marketing Authorization holder” sözləri hər iki halda “Applicant” sözü ilə əvəz edilsin;

2.6. həmin Qaydaya 5 nömrəli əlavə - “Tibb vasitəsinin tərkibində olan dərman maddəsinə dair EKSPERTİZA RƏYİ”ndə “Vəsiqə sahibi” sözləri “Ərizəçi” sözü ilə, “Vəsiqə sahibinin” sözləri “Ərizəçinin” sözü ilə, “Marketing Authorization holder” sözləri hər iki halda “Applicant” sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 iyul tarixli 345 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 906) ilə təsdiq edilmiş “Dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrinin aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.4-cü bənddə “qeydiyyat vəsiqəsinin (bundan sonra – qeydiyyat vəsiqəsi)” sözləri “vəsiqənin (bundan sonra – vəsiqə)” sözləri ilə əvəz edilsin;

3.2. 2.1.3-cü yarımbənddə, 3.1-ci bənddə, 3.4.1-ci yarımbənddə (hər iki halda), 4.1-ci bənddə ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.3. 6-cı hissə üzrə:

3.3.1. adında, 6.1-ci (hər iki halda) və 6.2-ci bəndlərdə, 6.3-cü bəndin birinci cümləsində, 6.4-cü bəndin ikinci cümləsində (hər iki halda) və 6.6-cı bənddə ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.3.2. 6.7-ci bənddə “qeydiyyat vəsiqələri” sözləri “vəsiqələr” sözü ilə əvəz edilsin;

3.3.3. 6.8-ci və 6.9-cu (hər iki halda) bəndlərdə, 6.10-cu bəndin ikinci cümləsində ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.3.4. 6.11-ci bəndin birinci cümləsində “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə, ikinci cümləsində “Qeydiyyat vəsiqəsinin” sözləri “Vəsiqənin” sözü ilə əvəz edilsin;

3.3.5. 6.12-ci bənd üzrə:

3.3.5.1. birinci cümlədə “Qeydiyyat vəsiqəsində” sözləri “Vəsiqədə” sözü ilə, “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə, “qeydiyyat vəsiqəsində” sözləri “vəsiqədə” sözü ilə əvəz edilsin;

3.3.5.2. ikinci, üçüncü, dördüncü cümlələrdə və beşinci cümlədə (hər iki halda) ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.3.6. 6.13-cü bənddə “Qeydiyyat vəsiqəsində” sözləri “Vəsiqədə” sözü ilə, “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə əvəz edilsin;

3.3.7. 6.14-cü bənd üzrə:

3.3.7.1. birinci cümlədə “Qeydiyyat vəsiqəsi” sözləri “Vəsiqə” sözü ilə əvəz edilsin;

3.3.7.2. ikinci və üçüncü cümlələrdə ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.3.8. 6.15-ci bənddə “qeydiyyat vəsiqəsinin” sözləri “vəsiqənin” sözü ilə əvəz edilsin;

3.4. 7-ci hissə üzrə:

3.4.1. adında və 7.1-ci bənddə ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.4.2. 7.2-ci bənd üzrə:

3.4.2.1. birinci cümlədə “Qeydiyyat vəsiqəsində” sözləri “Vəsiqədə” sözü ilə, “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə əvəz edilsin;

3.4.2.2. ikinci, üçüncü cümlələrdə və dördüncü cümlədə (hər iki halda) ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.4.3. 7.3-cü bənd üzrə:

3.4.3.1. birinci cümlədə “qeydiyyat vəsiqəsinin” sözləri “vəsiqənin” sözü ilə əvəz edilsin;

3.4.3.2. ikinci cümlədə “eyni zamanda ərizəçiyə” sözləri “ərizəçiyə eyni zamanda” sözləri ilə əvəz edilsin;

3.4.4. 7.4-cü bəndin ikinci cümləsində (hər iki halda), 7.6-cı və 7.7-ci (hər iki halda) bəndlərdə, 7.8-ci bəndin birinci cümləsində, 7.9-cu, 7.11-ci və 7.12-ci bəndlərdə ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

3.5. 8-ci hissə üzrə:

3.5.1. adında “Qeydiyyat vəsiqəsinin” sözləri “Vəsiqənin” sözü ilə əvəz edilsin;

3.5.2. 8.1-ci bənddə “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə əvəz edilsin;

3.6. 10-cu hissə üzrə:

3.6.1. 10.2-ci bəndin ikinci cümləsində “qeydiyyat vəsiqəsində” sözləri “vəsiqədə” sözü ilə əvəz edilsin;

3.6.2. 10.5-ci bənddə “Qeydiyyat vəsiqəsi” sözləri “Vəsiqə” sözü ilə əvəz edilsin;

3.7. 12-ci hissə üzrə:

3.7.1. 12.1.1-ci yarımbənddə “qeydiyyat vəsiqəsinin sahibi” sözləri “onun” sözü ilə əvəz edilsin;

3.7.2. 12.2-ci bəndin ikinci cümləsində “qeydiyyat vəsiqəsinin” sözləri “vəsiqə” sözü ilə əvəz edilsin;

3.8. həmin Qaydaların 2A, 2B, 3A, 3B, 4A, 4B, 5 və 6 nömrəli əlavələrinin adlarında “QEYDİYYAT VƏSİQƏSİ” sözləri “VƏSİQƏ” sözü ilə əvəz edilsin və “REGİSTRATİON” sözü çıxarılsın, mətnlərində ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 iyul tarixli 348 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 909) ilə təsdiq edilmiş “Dərman vasitələrinin təqib və izləmə sistemi”nin Əsasnaməsi”nin 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1.6-cı yarımbənddə “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqənin” sözü ilə əvəz edilsin;

4.2. 4.2.1.14-cü abzasda (hər iki halda), 4.2.2.10-cu abzasda (hər iki halda), 4.2.2.20-ci abzasda (hər iki halda) ismin müvafiq hallarında “qeydiyyat vəsiqəsi” sözləri ismin müvafiq hallarında “vəsiqə” sözü ilə əvəz edilsin;

4.3. 4.2.6-cı yarımbənd üzrə:

4.3.1. birinci cümlədə (hər iki halda) “qeydiyyat vəsiqəsi” sözləri “dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin” sözləri ilə əvəz edilsin;

4.3.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Həmin modula dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin nömrəsi və tarixi barədə məlumatlar, habelə bu Əsasnamənin 4.2.4.3-cü, 4.2.5.1-4.2.5.7-ci abzaslarında olan məlumatlar daxildir;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 138** **Bakı şəhəri, 25 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında” 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında” 2025-ci il 27 yanvar tarixli 309 nömrəli Fərmanının 2-ci hissəsnin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (1 nömrəli əlavə)*.

**2.** “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (2 nömrəli əlavə)*.

**3.** “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri” təsdiq edilsin (3 nömrəli əlavə)*.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**5.** “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında” 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və “Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1548 (Cild I); 2024, № 2, maddə 203) 1-3-cü hissələri ləğv edilsin.

**6.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 141** **Bakı şəhəri, 28 aprel 2025-ci il**

**“Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 iyul tarixli 2250 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 110 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına “Müdafiəçilərə” sözündən sonra “(vəkillərə)” sözü əlavə edilsin.

2. 1-ci hissəyə “maddələrində” sözündən sonra “və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67-1.1-ci və 67-1.2-ci maddələrində” sözləri əlavə edilsin və həmin hissədə “6 manat” sözləri “11 (on bir) manat” sözləri ilə əvəz edilsin.

3. 4-cü hissəyə “əsaslandırılmış qərarı” sözlərindən sonra “və ya məhkəmənin əsaslandırılmış qərardadı” sözləri əlavə edilsin.

4. 5-ci hissədən “, həmçinin mülki işlər” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Dünyadan gələn sorağımız

# Tacik mətbuatının Zərdabisi

## Dost ölkədə ilk qəzeti qarabağlı Mirzə Cəlal Yusifzadə nəşr edib

**İctimai-siyasi hadisələrin tez-tez düyünə düşdüyü zamanlarda Şuşada işıqlı bir nəsil yaşayıb–Yusifzadələr... Qarabağda tanınan nəsillərdən olub.**

Yusifzadələr Şuşada və Qarabağda ruhanilər, alimlər, şairlər nəsli hesab olunub. Bu nəslin ayrı-ayrı nümayəndələri xalqımızın çətin günlərində düşmənlərə qarşı mübarizə aparıb, istiqlal hərəkatında iştirak ediblər.

Yusifzadələr nəslindən tanıdığımız şəxsiyyətlərdən biri Mirzə ağa Yusif idi ki, o, İbrahim xanın sarayında xidmət edən alim və şair kimi tanınıb, Qarabağda və Şuşada sözü keçən kişilərdən olub.

Mirzə ağa Yusifin iki oğlu da sayılıb-seçilənlərdən olub. Oğlanlardan birinin–Mirzə Əliqulunun Mirzə Ələkbər və Mirzə Abbas adlı övladları da Qarabağda şair və alim kimi tanınıblar. Bu haqda professor Nazif Qəhrəmanlı Yusifzadələr haqqında yazdığı kitab və məqalələrdə geniş məlumat verir.

Bizim söhbətimiz isə bu nəsilin işığlı simalarından olan Mirzə Ələkbərin xətti ilə gələn Yusifzadələrdən olacaq. Nədən ki, Mirzə Ələkbərin oğlu Mirzə Cəlal Yusifzadə və Mirzə Cəlalın oğlu Əli Yusifin həyatının bir hissəsi Türküstanla bağlı olub.

*

ABŞ yazıçısı Marlo Morqan yazıb ki, qan və sümük bütün insanlarda var, əsas olan ürək və niyyətdir. Mirzə Cəlalın da ürəyi Vətənin çiçəklənməsi üçün döyünürdü. Niyyəti isə irəli getmək, Vətən övladlarını maarifləndirmək idi.

Mirzə Cəlal Yusifzadə 1862-ci ildə Şuşada Mirzə Ələkbərin ailəsində dünyaya gəlib. İlk təhsilini fars və tacik dillərinin mahir bilicisi atası Mirzə Ələkbərdən alıb. Buxaraya gəlməzdən əvvəl Mirzə Cəlal Bakıda çap edilən “Molla Nəsrəddin” jurnalının fars bölməsinin rəhbəri olub. O, eyni zamanda, Bakıda Mirzə Heydərovla birlikdə iki qəzet də buraxıb, ancaq bunların ömrü az olub.

Mirzə Ələkbər dünyəvi elmlərdən xəbərdar idi. Övladlarını da bu ruhda böyüdürdü,



Özbək dilində çap olunan “Turan” qəzeti

dünyəvi bilikləri öyrənmək və yaymaq... Çünki bu, gələcək həyat yollarında onların əllərindən tutacaqdı.

Mirzə Cəlal iki dəfə evlənib, birinci həyat yoldaşı Leyla xanım gənc yaşlarında vəfat edib, üç uşağı qalıb. Əli Yusifzadə (1898–1937) və iki qızı : Səhba (1896–1923) və Şəhla (1900–1959).

Sonra Mirzə Cəlal əmisi qızı Ziba xanımla evlənib, uşaqları Ziba xanım böyüdüb. Ziba xanım 1940-cı ildə dünyasını dəyişib və Mirzə Cəlalın yanında torpağa tapşırılıb.

Mirzə Ələkbərin digər oğlu Alim Yusifzadə də ali məktəbdə psixologiya kafedrasının müəllimi olub, atasının əsərlərini toplayıb.

*

Mirzə Cəlal Yusifzadə Zaqafqaziya seyminin işində (1918) Müsavat və demokratik bitərəflər qrupunda təmsil olunub. Həmin siyahıda 28-ci şəxs olub, Azərbaycan Cümhuriyyəti Milli Şurasının və Difai Partiyasının üzvü idi.

Nazif Qəhrəmanlı yazır:”1920-ci ilin payızında N.Nərimanov Şuşaya gələrkən Mirzə Cəlalla görüşmüş, onunla söhbət etmişdi”. Alim Yusifzadə öz xatirəsində yazır: “Güman etmək olar ki, Nəriman Nərimanovla aparılmış söhbətdə xalqın savadlanması və maarif məsələlərinin həlli mühüm yer tutmuşdur. Təsadüfi deyildir ki, həmin görüşdən sonra Mirzə Cəlal Qarabulaq (Qaryagin, indi Füzuli şəhəri) qəsəbəsinə, müəllim hazırlığı kurslarında işləməyə dəvət edilmişdir”.

1879-cu ildə atası Mirzə Cəlal Yusifzadəni İraqa və İrana mədrəsə təhsili almağa göndərir. Yeddi il mədrəsə təhsili alıb Vətənə qayıdan Mirzə Cəlal müəllimlik edir, məktəblərdə ana dili, hesab, fars dili fənlərindən dərs deyir.

Müəllim işlədiyi dövrdə uşaqlar üçün mənzum hekayələr qələmə alır, “Fərhad və Şirin” poemasını, sonra isə Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasının təsiri ilə “Fərhad və Şirin” operasının librettosunu yazır.

Jurnalist Fazil Rəhmanzadə “Adın yadigar qalsın” (1986) kitabında yazır ki, 1910-1911-ci illərdə Bakıda çap edilən “Kaspi”,”Baku”,”Günəş” qəzetlərində belə bir operanın yazılması və tamaşaya hazırlanması ilə bağlı xəbərlər yayılıb.

Mirzə Cəlal Yusifzadə o zamanlar Bakıda çap edilən "Həyat", "İrşad", "Təzə həyat", "İttifaq", "Hilal", "Asari-həqiqət", "Sədayi-həqq" və digər qəzetlərə "C. C. Y.", "Cəlal



Mirzə Cəlal Yusifzadə

Qarabaği", "Cəlal Yusifi", "Mirzə Cəlal Yusifzadə" və digər imzalarla məqalələr yazıb.

“Fərhad və Şirin” operasının librettosunu Mirzə Cəlal Yusifzadə böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması əsasında yazıb və tamaşa ilk dəfə 1911-ci il martın 6-da Bakıdakı Nikitin qardaşlarının teatrında göstərilib. 1913-cü ildə isə əsər Şuşada tamaşaya qoyulub. Operanın ilk tamaşasında Fərhadın partiyasını Cabbar Qaryağdıoğlu ifa edib.

*

Məlumddur ki, “Molla Nəsrəddin” jurnalını Türküstanda da oxuyurdular. Qəzet çıxmazdan əvvəl bəzi dövri nəşrlər, o cümlədən “Molla Nəsrəddin” jurnalı Buxarada mədrəsə tələbələri arasında gizli şəkildə yayılıb.

Mirzə Cəlal Yusifzadə 1912-ci ildə bir dostu tərəfindən tacik dilində qəzet çıxarmaq üçün Buxaraya dəvət olunur. İlk tacik milli qəzeti olan “Buxarai Şarif”in birinci nömrəsi 1912-ci il martın 11-də bazar günü işıq üzü görüb. Qəzet ərəb qrafikası ilə böyük formatda Buxaradakı Koqon mətbəəsində dörd səhifədə çap olunub. Qəzetin əsas sponsoru Buxara yəhudisi K.L. Levin olub. Qəzet yeni fəaliyyətə başlayanda həftədə altı gün, bağlanmazdan əvvəl isə həftədə üç gün çıxıb. Redaktorun gərgin işi nəticəsində qəzet qısa müddət ərzində populyarlıq qazanıb. Qəzet İran, İraq, Azərbaycan, Əfqanıstan, Türkiyə, Çin və digər ölkələrin həyatı ilə bağlı informasiyalar verib.

Mirzə Cəlal qəzetin ikinci nömrəsində oxuculara müraciətlə yazırdı:”Allahın adı ilə, bu gündən biz “Buxarai Şarif” qəzetində öz məqsədlərimizi yerinə yetirməyə başlayırıq. Qəzetdə müxtəlif məsələlər işıqlandırılacaq, həm ölkədə, həm də dünyada baş verən hadisələr haqqında məlumat veriləcək. Müqəddəs Buxaranın əhalisi inkişafa doğru irəliləməli, savadsızlığa son qoymalı, dünyada baş verənlərdən xəbərdar olmalıdır”.

Üçüncü nömrədən etibarən qəzetdə “Yerli xəbərlər”, “Türküstandan xəbərlər”, “Xaricdən xəbərlər”, “Buxaradan məktub”, “Nömrəyə məktub” rubrikalarında materiallar çap edilb. “Buxaradan məktublar” və ya “Nömrəyə məktublar” rubrikasında oxucuların müraciətləri də çap olunub. Oxucular bu məktublarda qəzetdəki yazılar, ayrı-ayrı əməkdaşlar haqqında fikirlərini bildiriblər. Bütün məktublara redaktor özü cavab verib.

M.C.Yusifzadə belə hesab edirdi ki, qəzetin əsas vəzifəsi “xalqın maariflənməsidir”. O yazırdı ki, bizim elmə ehtiyacımız var, elmdən başlamaq lazımdır. Onun məqalələrinin, demək olar ki, hamısında belə bir fikir irəli sürülürdü: Buxara əmirliyində cəmiyyətin əsas istiqaməti təhsil sahəsində islahatlar aparmaqdır. “Tartib lozim ast” (“Qayda- qanun lazımdır”) məqaləsində Yusifzadə təhsilin təkmilləşdirilməsi ilə bağlı dəqiq plan irəli sürür, təklif edirdi ki, Buxara əmirliyindəki mədrəsə və məktəblərdə geniş inkişaf etmiş tədris metodundan istifadə olunmalıdır.

O dövrdə elm və təhsil problemləri təkcə Mirzə Cəlalın yox, bütün Buxara cədidlərinin fəaliyyətinin əsasını təşkil edirdi. Mirzə Cəlal və onun əsas köməkçisi olan Mirzə Sirac Buxara əmirliyinin dünyanın inkişaf etmiş ölkələrindən biri olacağına və insanların elmə, mədəniyyətə, təhsilə üz tutacağına inanırdılar. Nəşrdə Buxara əmiri Əmir Əlimxanın fəaliyyəti ilə bağlı yazılar da dərc olunub.

“Buxarai Şarif” qəzetində Mirzə Cəlalın şeirləri də verilib. Bu şeirlərdə xalqın arzu və istəkləri, dövrün problemləri öz əksini tapıb. O, Buxarada yaşayan şair və mütəfəkkirlərə ənənəvi məhəbbət şeirlərindən uzaqlaşıb bütün diqqəti elmə və təhsilə yönəltməyi, müasir cəmiyyətlə ayaqlaşmağı tövsiyə edib. O hesab edib ki, şair xalqın ağrı-acısını duymalı, bu problemlərə biganə qalmamalı, baş verən hadisələri diqqətlə izləməlidir. Mirzə Cəlalın fikrincə təkcə cəmiyyət yox, bütün tacik poeziyası böhran keçirir.

Qəzetin ikinci nömrəsində Mirzə Cəlal maarifin inkişafı ilə bağlı öz proqramını da dərc edib və bununla əlaqədar ideyalarını açıqlayıb.

Yeni ideya daşıyıcıları olan cədidlər qəzetə təbliğat və təşviqat vasitəsi kimi böyük ümid bəsləyirdilər.

“Buxarai Şarif” qəzetinin səhifələrində Mirzə Cəlalın 200-dən çox müxtəlif mövzuda materialı çap olunub, redaktorun 31 şeiri də verilib.

*

“Buxarai Şarif”in əlavəsi kimi çap olunan “Turan” qəzetinin cəmi 153 nömrəsi buraxılıb və 1913-cü il yanvarın 2-də bağlanıb. Qəzet əvvəlcə həftədə iki, sonra isə üç dəfə nəşr olunub, ümumilikdə 49 nömrəsi çap edilib. Qəzetin səhifələrində Buxara əmirliyinin iqtisadi, siyasi və mədəni həyatından bəhs edilir, əmirlikdə islahatların aparılmasının zəruriliyi vurğulanırdı.

Qəzetin ilk 14 nömrəsinə Mizə Cəlal Yusifzadə redaktorluq edib.

Maddi çətinliyə görə K.Levinin mətbəəsi qəzetin nəşrini dayandırdıqdan sonra “Buxarai Şarif”-in 15-ci nömrədən başlayaraq mətbəə xərclərini “Buxarai Şarif” şirkəti şəkir.

Qəzetin 15-ci nömrəsindən 21-ci nömrəsinə qədər redaktoru Mirxaydarxoca Mirbədəlov, 22–25-ci saylarının redaktoru Hüseyn İbrahimov, 26-cı nömrədən sonuncu nömrəsinə qədər isə yenidən Mirxaydarxoca Mirbədəlov olub.

“Turan” qəzetinin cəmi 49 nömrəsi işıq üzü görsə də Buxara əmirliyində qəzetçilik sahəsində mühüm mərhələ olub. Buxara əmirliyi ərazisində nəşr edilən ilk qəzetlər olan “Buxarai Şarif” və “Turan” əmirlikdə milli demokratik ideyaların təbliği, savadsızlığın ləğvi yolu ilə əsrlər boyu mövcud olan geriliyin aradan qaldırılması, Buxarada cədidlərin birləşdirilməsi kimi mövzularda təbliğat işində mühüm rol oynayıb. Bu iki qəzetin cəmi 2600 abunəçisi var idi (“Buxarai Şarif” – 800, “Turan” – 1800).

“Turan” qəzetində də Mirzə Cəlalın təhsil və maariflənməklə bağlı yazıları dərc edilib. O öz oxucularını elm öyrənməyə, Türküstanın regionlarında, Qafqazda, Volqaboyunda yaşayan xalqların təcrübəsindən bəhrələnməyə səsləyib. Bu ideyalar cəmiyyət tərəfindən bəyənilib. Məsələn, Mahmud xoca Behbudi redaktorun qəzetdəki çıxışlarını alqışlayıb, Səmərqənddəki yeni tipli məktəblərdə, həmçinin özünün açdığı məktəbdə bu ideyalardan bəhrələnməyi məsləhət görüb.

Qəzetin populyarlığının artması ilə əlaqədar yerli hakimiyyət orqanları qorxuya düşüb. 1912-ci ilin dekabrında qubernatorun nümayəndəsi Petrov Buxara əmirindən qəzeti bağlamağı xahiş edir. Əmir Əlimxan “Buxarai Şərif” və “Turan” qəzetlərinin bağlanması haqqında fərman verir. Beləliklə 1913-cü il yanvarın 12-də hər iki qəzetin nəşri Rusiya hakimiyyəti tərəfindən qadağan edilir.

Bu qəzetlər bağlandıqdan sonra Mirzə Cəlal Yusifzadə Bakıya qayıdır.

Onu da vurğulamaq lazımdır li, hazırda Tacikistanda martın 11-i, yəni "Buxarayi Şarif" qəzetinn birinci nömrəsinin çap olunduğu gün Milli Mətbuat Günü kimi qeyd olunur.

*

Mirzə Cəlal Bakıya qayıtdıqdan sonra müəllimlik edib, “Ədəbiyyat cəmiyyəti”nin və “Azərbaycan Tədqiq Tətəbbə Cəmiyyəti”-nin üzvü olub. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Ömər Xəyyam, Əlişir Nəvai, Əbdürrəhman Cami kimi klassik sənətkarların həyat və yaradıcılığı ilə bağlı məqalələr yazıb, Ömər Xəyyamın rubailərini dilimizə çevirib.

“Təzə həyat”, “Asari həqiqət” və digər nəşrlərdə “Mirzə Cəlal”, “C”, “Cəlal”, ”C.Y.”, ”Cəlal Yusifzadə”,”Cəlal Yusifi” imzaları ilə məqalələr yazıb.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra “İnqilab və Mədəniyyət” jurnalı, “Ədəbi parçalar” məcmuəsi və “Oktyabr alovları” məcmuəsində bədii əsərlərini və məqalələrini dərc etdirib.

Oğlu Əli Yusifzadə Solovetskdə sürgündə idi və bu onu çox narahat edirdi.

Sovet həbsxanalarında ilk aclıq aksiyasının təşkilində oğlunun də əli olması xəbəri Bakıya da gəlib çatmışdı.

1862-ci ildə Şuşada anadan olan, keşməkeşli bir həyat yaşayan, ömrünü xalqın maariflənməsinə həsr edən Mirzə Cəlal Yusifzadə 1931-ci ildə, 72 yaşında Bakıda oğul həsrətilə dünyasını dəyişib.




“Buharai Şarif” qəzetinin birinci nömrəsi

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Düşənbə**

# Milli jurnalistika elmi və mediamızın uğurları

**Prezident İlham Əliyevin 25 aprel 2025-ci il tarixli sərəncamı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması qərara alınıb. Sərəncamın preambula hissəsində göstərilir ki, 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin ana dilində nəşr etdirdiyi “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir. Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru Vüqar Əhməddir.**





**– Vüqar müəllim, bu il həm milli mətbuatımızın 150, həm də sizin çalışdığınız AMEA-nın 80 yaşı tamam olur. Şöbəniz bilavasitə mətbuat tariximizlə məşğul olduğu üçün suallarımız da bu barədədir. Anadilli mətbuatımızın təşəkkülü milli-mənəvi, mədəni təkamüldə rolunu necə dəyərləndirərdiniz?**

– Görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin ilk dəfə Azərbaycan dilində nəşr etdirdiyi “Əkinçi” qəzetinin bu sarıdan önəmi əvəzsizdir. Yubiley sərəncamında da qeyd edildiyi kimi, həmin qəzetdən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynayıb. Fərəhlidir ki, 80 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları şərəfli tarixi olan anadilli mətbuatımızın təşəkkülü və inkişaf mərhələləri ilə bağlı zaman-zaman araşdırmalar aparıb, elmi məqalələr, kitab və monoqrafiyalar yazıb, elmi iş müdafiə ediblər.

**– Bilirik ki, Ədəbiyyat institutunun əvvəllər “Dövri mətbuat və biblioqrafiya” adlanan müvafiq şöbəsi 10 ildən artıqdır ki, “Mətbuat tarixi və publisistika şöbəsi” adı ilə fəaliyyətini daha da genişləndirib. “Əkinçi”nin və onun ardınca boy göstərən nəşrlər, o cümlədən “Molla Nəsrəddin” jurnalı ilə bağlı az iş görülməyib...**

– Doğrudur. Mətbuatla bağlı alimlərimizin gərgin zəhməti ilə hazırlanıb buraxılan nəşrlərdən ən sanballısı, fikrimcə, “Molla Nəsrəddin” ensiklopediyasıdır. Bu ensiklopediyanın ideya rəhbəri və baş redaktoru AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir. Görkəmli tədqiqatçı Azərbaycan satirik mətbuatının əsasını qoyan, 25 illik fəaliyyəti boyunca milli mətbuatımızın və ədəbiyyatımızın salnaməsini yaradan “Molla Nəsrəddin” jurnalının cahanşümul rolundan bəhs edərək yazır: “Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” jurnalı XX əsrin əvvəllərinin ədəbiyyat və mətbuat cəbhəsinin liderliyi missiyasını uğurla həyata keçirmişdir... C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Möcüz (Şəbüstəri), B.Abbaszadə, Ə.R.Şamçızadə, M.Sidqi, Ə.Məhzun və başqa görkəmli yazıçı, şair və publisistlər “Molla Nəsrəddin” ordusunun mübariz əsgərləri kimi həm milli istiqlal uğrunda, həm də realist-demokratik ədəbiyyat yollarında dönmədən mübarizə aparmaqda davam etmişlər”. Fikrimizcə, “Molla Nəsrəddin” jurnalını bütünlüklə lüğət şəklində sistemə cəlb edən ensiklopediya bu sahə üzrə yığcam məlumat verən elmi nəşr kimi çox yüksək dəyərə layiqdir.

**– Ulu öndərin dövri publisistikaya qayğısı da şöbənizdə hərtərəfli araşdırılır...**

– Bəli. Şöbənin hazırladığı “Heydər Əliyev və milli mətbuat” adlı kitab 2023-cü ildə Ulu öndərin 100 illiyi münasibətilə işıq üzü görüb. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli kitaba “Heydər Əliyevin dövlətçilik siyasətində mətbuat” başlıqlı Ön söz yazıb və dahi şəxsiyyətin üstün keyfiyyətlərinə və onun uzaqgörən siyasəti sayəsində əldə olunan inkişafa nəzər salıb. Akademik görkəmli dövlət xadiminin milli mətbuatın inkişafına verdiyi böyük diqqət və qayğını yüksək dəyərləndirib.

Digər nəşrlərdə, məqalələrdə də Ulu öndərin mətbuatın cəmiyyətin inkişafındakı əvəzsiz gücündən məharətlə istifadə etməsi, dövri nəşrlərin fəaliyyətinin azərbaycançılıq ideologiyasının təbliğinə yönəldilməsində cəsarətli mövqe tutması konkret faktlarla açıqlanır. Ulu öndərin uzaqgörən siyasəti, Azərbaycan xalqı və milli mətbuatımızın qarşısındakı əvəzsiz xidmətləri, gərgin ictimai-siyasi fəaliyyəti haqqında zəngin təsəvvür yaradılır.

**– Daha hansı elmi nəşrlər işıq üzü görüb?**

– Digər nəşrlərdən filologiya elmləri doktoru, dosent Gülbəniz Babayevanın “Molla Nəsrəddin və milli ədəbi dəyərlər” adlı monoqrafiyası, “Ziyayi-Qafqaziyyə” (lüğət, izah və şərhlərlə), “Kəşkül”, “Bəhlul” kimi mətbu orqanların latın qrafikalı əlifbaya transfoneliterasiyası, “İstiqlal” qəzeti və gizli istiqlalçılar”, “Ədəbiyyat qəzeti” və ədəbi-mədəni mühit”, “Azərbaycan” jurnalında publisistika məsələləri”, “Hacı İbrahim Qasımov və “Bəsirət” qəzeti”, “Əhməd bəy Ağaoğlu və Türkiyə mətbuatı”, “Gənclik” jurnalında publisistika məsələləri” mövzularında tədqiqat işləri göstərilə bilər. “Mətbuat tarixi və publisistika məsələləri” (I və II kitablar) toplusunun tərtibi də xüsusi qeyd olunmalıdır. “Azərbaycan uşaq mətbuatında (1906–1920) rus ədəbiyyatı məsələləri”, “Sənətin izi ilə”, “Multikultural mühit və ədəbiyyat”, “Arı”, “Mirat”, “Məşəl”, “Kəlniyyət” jurnallarının əksəriyyət üçün əlçatanlığı da təmin edilib.

Şöbə əməkdaşları “Azərbaycan mətbuatının salnaməsi” üzərində də gərgin çalışıblar, “Həqiqəti-əfkar” qəzetinin tam dəsti Sankt-Peterburq arxivindən institutumuza gətirilib və tədqiqata cəlb edilib. Bütün bunlardan əlavə, “Yaşıl yapraklar” dərgisi nəşrə hazırlanıb, “Hacı İbrahim Qasımovun publisistikası”, “Multikultural mühitin sınaq dövrü həqiqətləri publisistikada” və s. monoqrafiya və kitablar nəşr edilib. Ayrı-ayrı nəşrlərin təqdimat mərasimləri, elmi konfranslar da mətbuat tariximizin sərf-nəzər olunması baxımından yaddaqalan olub. Ötən il keçirilən belə tədbirlərdən “Məhəmməd Əmin Rəsulzadə – 140”, “Ziyayi-Qafqaziyyə” qeyd edilə bilər.

**– Son illərdə mətbuat mövzusunda dissertasiyalar da müdafiə olunubmu?**

– Bəli. Misal üçün, şöbənin əməkdaşı Gülbəniz Babayeva ötən il akademik İsa Həbibbəylinin rəhbərliyi ilə “Molla Nəsrəddin” və türk satirik mətbuatı” adlı doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru adı alıb. Şöbənin elmi işçisi Samirə Kərimovanın “XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problem” mövzusunda tədqiqat işinin elmi müzakirəsi keçirilib. Kiçik elmi işçi Leyla Məmmədova “İkinci Qarabağ savaşı bədii publisistikada” adlı plan işi üzərində işləyir. Şöbə əməkdaşlarının yüzlərlə elmi məqalələri isə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda nəşr edilmiş və bu gün də bu proses davam etməkdədir.

**– Görülən işlər Azərbaycan milli mətbuatının qeyd etməyə hazırlaşdığımız 150, AMEA-nın isə 80 illik yubileyləri ərəfəsində mətbuat tarixi və publisistika şöbəsinin uğur hesabatı sayıla bilər...**

– Elədir. Akademik İsa Həbibbəyli fəaliyyətimizi yüksək dəyərləndirib: “Bu şöbənin çoxcəhətli və ardıcıl fəaliyyəti ilə nəinki mövcud boşluq aradan qaldırılmış, hətta mətbuatşünaslıq sahəsi mühüm addımlarla daha da irəliləmişdir”... Şöbə əməkdaşları bundan sonrakı fəaliyyətlərində də bizə verilən dəyər və qiymətdən ruhlanaraq, Azərbaycan milli mətbuatının və publisistikanın açılmamış səhifələrinin öyrənilməsində, nəşrində əvvəlki əzmkarlıqla çalışacaqlar.

*Müsahibəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

# Bakıda ICESCO-nun regional ofisi açıldı

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva mərasimdə iştirak ediblər







**Aprelin 29-da Bakıda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ICESCO-nun Azərbaycanda yeni istifadəyə verilmiş regional ofisinin rəsmi açılış mərasimi keçirilib.**

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Həmçinin tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki, elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, Özbəkistan, Tacikistan, Qazaxıstan və Qırğızıstanın Azərbaycandakı səfirləri, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova və Azərbaycanda akkreditə olunmuş digər ölkələrin səfirləri, Azərbaycanın ictimai-siyasi xadimləri iştirak ediblər.

ICESCO-nun Bakı ofisinin rəhbəri Abdulhakeem Alsenan bu tarixi əhəmiyyətli tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib.

Sonra tədbirdə çıxış edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki deyib: "Bu gün biz burada, ICESCO-nun yeni regional ofisinin açılışını qeyd edirik, uzun müddətdir arzuladığımız bir xəyala nəfəs veririk. Bu, əlaqələr qurmaq, əməkdaşlıq etmək arzusu və müdriklik, bilik və ortaq məqsədlə qurulmuş gələcəklə bağlı bir xəyaldır. Burada - əsrlər boyu sivilizasiyaların qovuşduğu yer və sülhün beşiyi olan Bakının mərkəzində təhsil, elm, mədəniyyət və kommunikasiyanın, müasirliyin və adət-ənənənin harmoniya içində qovuşduğu bir mərkəz olacaq regional ofisin açılışında iştirak edirik".

Bu regional ofisin Azərbaycana və Mərkəzi Asiyanın ICESCO-nun üzvü olan dövlətlərinə xidmət göstərəcəyini, regionun digər ölkələrinə də öz töhfəsini verməklə yanaşı, əməkdaşlıq və mükəmməllik ruhunu təşviq edəcəyini vurğulayan Salim bin Məhəmməd əl-Maliki deyib: "Əziz dostlar, bu nailiyyət heç də təsadüfən əldə edilməyib. Bu, həqiqi liderliyin, aydın baxışın və daha yaxşı gələcəyə olan davamlı sadiqliyin bəhrəsidir. Parlaq müdrikliyi və biliyin qüdrətinə olan dərin inamı hamımız üçün bir işıq kimi saçan lider, Zati-aliləri Prezident İlham Əliyevə səmimi minnətdarlığımızı bildiririk. Onun davamlı dəstəyi bu baxışı reallaşdırıb. Həmçinin Zati-aliləri, ICESCO-nun xoşməramlı səfiri, təhsilə, mədəniyyətə və insanlığa olan sevgisi ilə bu layihənin reallaşmasına təkan verən Birinci vitse-prezident Mehriban Əliyevaya da minnətdarlığımızı bildiririk.

Bu gün fəxri qonaq qismində tədbirə qoşulan Zati-aliləri Leyla xanıma və Arzu xanıma bizi hörmətlə qarşıladıqlarına və ICESCO ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın həqiqi çempionu olduqlarına görə xüsusi olaraq səmimi minnətdarlığımızı bildiririk".

Bu ofisin xüsusi bir ofis olacağını vurğulayan Salim bin Məhəmməd əl-Maliki qeyd edib: "Bu ofis fərqli şəkildə fəaliyyət göstərəcək. Fərqli ideyalara sahib olacaq. O, məqsədlərinə fərqli şəkildə çatacaq. O, üzv dövlətlərimizlə möhkəm əməkdaşlıq ruhu ilə döyünən, təhsil, mədəniyyət, elm, kommunikasiya sahələrində yeni tərəfdaşlığın ritmlərini əks etdirən canlı bir ürək olacaq.

ICESCO-nun strateji məqsəd və vəzifələrini inkişaf etdirməklə yanaşı, Bakı ofisi ətraf mühitimizi müdrikliklə və təcili olaraq qorumaq, bəşəriyyətə xidmət etmək üçün süni intellekti daha da inkişaf etdirmək, diqqəti sabahın memarları olan gənclərimizə yönəltmək və dəyərli irsimizin, kimliyimizin ruhunun qorunub saxlanılması kimi məqsədlərə xidmət edəcək. Bu ofisdə ilhamverici layihələr və yeni ideyalar yaradılacaq. Burada ölkələr və nəsillər arasında əlaqələri möhkəmləndirən bağlar yaranacaq.

Biz ICESCO olaraq bu mərkəzi xəyallarla, müdrikliklə və biliklə qurmağı seçirik. Bu yeni regional ofis xəyalpərəstləri, o cümlədən bunun reallaşmasını mümkün edən liderləri ləyaqətə, biliyə, mədəniyyətə, sülhə və xüsusilə də gələcəyin formalaşmasında birgə işləməyə çağıran, onlara bələdçilik edən, yollarını işıqlandıran bir mayak olacaq. Sizi bir daha əmin edirəm ki, bu ofis kökü müdriklik, budaqları sülh, meyvələri gələcək nəsillərə ümid mirası olan qüdrətli bir ağacın toxumu olacaq".

Daha sonra tədbirdə ICESCO-nun yaranma tarixi, Azərbaycanla qurulan ikitərəfli əlaqələr barədə videoçarx nümayiş olunub.

Sonda Leyla Əliyeva ofisin xatirə kitabına ürək sözlərini yazıb.

***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva Bakıda Türk Mədəniyyəti və İrsi Fondunda



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Türk Mədəniyyəti və İrsi Fondunun inzibati binasını ziyarət ediblər.**

TMİF-in prezidenti Aktotı Raimkulova qonaqları salamlayaraq rəhbərlik etdiyi qurum tərəfindən türk xalqlarının ortaq irsinin qorunması istiqamətində görülən işlər barədə məlumat verib. Leyla Əliyeva Türk dünyasının zəngin tarixinin və mədəniyyətinin dünyaya tanıdılması məqsədilə TMİF-in atdığı addımları yüksək qiymətləndirib və həyata keçirilən layihə və tədbirlərdə gənclərin iştirakının daha da artırılmasının vacibliyini vurğulayıb.

TMİF-in muzeyində təqdim olunan ənənəvi sənətkarlıq nümunələri və türk xalqlarının maddi-mədəni irsini əks etdirən digər eksponatlarla tanış olan Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin müxtəlif türk musiqi və rəqs nümunələrindən ibarət mədəni proqramı izləyiblər.

Yekunda Leyla Əliyeva TMİF-in xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. Fondun fəaliyyət istiqamətlərinə türk mədəniyyətinin və irsinin qorunması, bərpası və təbliği ilə bağlı müxtəlif layihə və tədbirlərin icrası, dəstəklənməsi daxildir.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Respublikaları üzv, Macarıstan isə müşahidəçi dövlət qismində TMİF-in fəaliyyətində iştirak edir. Təşkilatın mənzil-qərargahı Bakı şəhərində yerləşir.

***XQ***

***Nazim Müzəffərli – 70***

# İqtisad elmini strateji hədəflərə qovuşduran alim

**Prezident İlham Əliyev 17 dekabr 2024-cü ildə "Rossiya-1" telekanalına verdiyi müsahibədə ölkə və dünya ictimaiyyətinin çoxdan gözlədiyi, Ermənistan dövlət orqanlarının və ictimaiyyətinin isə təlaşla qarşıladığı bir rəqəmi – Ermənistanın hərbi təcavüzünün, işğalçılıq siyasətinin Azərbayacana vurduğu maddi ziyanın 150 milyard ABŞ dolları həcmində qiymətləndirildiyini açıqladı.**



Öz qərarlarını zərgər dəqiqliyi ilə ölçüb-biçən və bəyanatlarını aydın və inamla ifadə edən Azərbaycan liderinin bu ciddi açıqlaması ölkəmizin mövqeyinin beynəlxalq məhkəmələrə çıxarmaq üçün mükəmməl hazırlanmasından və lazımi şəkildə əsaslandırılmasından xəbər verirdi. Azərbaycan Prezidenti onun müvafiq sərəncamına əsasən Maliyyə nazirinin sədrliyi ilə yaradılmış dövlət komissiyasının və bu heyətin işinə elmi məsləhətçi və köməkçi qismində cəlb edilmiş Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun baş direktoru Nazim İmanovun rəhbərlik etdiyi elmi qrupun mötəbər qənaətini inam və qətiyyətlə xarici auditoriyaya təqdim etdi. Heç şübhəsiz, bu taleyüklü nəticənin ərsəyə gətirilməsində yurdsevər ziyalı, dərin bilikli iqtisadçı, məsuliyyətli elmi qurum rəhbəri Nazim Müzəffərli İmanovun da layiqli payı və önəmli xidməti var.

Bu il 70 yaşın zirvəsinə yetişmiş Nazim Müzəffərli bu yubileyi mənalı həyatın və zəngin fəaliyyətin yüksək nailiyyətləri ilə qarşılayır. Uca yaradan çox az insana parlaq istedad bəxş edir. Onların da bir hissəsi bu ilahi hədiyyəni qiymtləndirə bilir, zəkasını zəhmətlə birləşdirib Həyatda seçilən izlər qoya bilər. Nazim müəllim məhz belə bir həyat yaşayan, irili-xırdalı uğurlarını öz istedadı və böyük zəhməti sayəsində qazanan insandır.

İqtisad elmləri doktoru, professor Nazim Müzəffərlinin uğurlar silsiləsi gənc yaşlarından başlamış və təbii olaraq onu belə bir yüksək məqama – mötəbər hökumət komissiyasının elmi məsləhətçisi kimi dövlət əhəmiyyətli tarixi bir sənədin hazırlanmasında fəal iştirakçı səviyyəsinə gətirib çıxarmışdır. Alimin yaradıcısı olduğu yeni elmi iqtisad məktəb – post-konflikt ərazilərin öyrənilməsi və yenidən qurulması yollarının elmi əsaslandırılması istiqamətinin aktuallığını, nə qədər böyük bir praktiki əhəmiyyətə malik olduğunu ötən dövrdə dönə-dönə sübuta yetirmişdir.

Nazim Müzəffərli dostu və həmkarı Eldar İsmayılov ilə birgə yazdığı, torpaqlarımızın işğaldan azad edilməsindən 10 il əvvəl çap etdirdiyi "Post-konflikt ərazilərin bərpası: konseptual əsaslar" kitabı ilə elmi tədqiqatların yeni bir istiqamətini müəyyən etmiş, Azərbaycan iqtisad elmində yeni bir elmi istiqamətin əsasını qoymuşdur. Bu tədqiqatlar son illərdə işğaldan azad edilmiş ərazilərin bərpası, qaçqın və köçkünlərin bu ərazilərə qaytarılıb məskunlaşdırılması işində dövlət orqanlarına elmi əsaslarla önəmli dəstək verir.

Bu gün həmin tədqiqatları davam etdirən ETN İqtisadiyyat İnstitutu "Post-konflikt ərazilərin bərpası Elmi Mərkəzi" inamla irəliləyərək işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunun Dövlət Proqramının işlənib hazırlanması və təsdiq olunması ideyası ilə çıxış edir. Elmi qurum bu proqramın metodoloji prinsiplərinin və işçi sxeminin hazırlanması ilə davamlı məşğuldur. Son illərdə bu mövzuda yazılan çoxsaylı əsərlər özlərinin elmi yükünün azlığından və çoxluğundan asılı olmayaraq bu problemə marağın gündən-günə artdığına dəlalət edir.

Ölkə rəhbərliyinin beynəlxalq aləmdə, diplomatiya cəbhəsində ərazilərimizi işğaldan azad etmək üçün apardığı gərgin və qətiyyətli mübarizə dövründə bu əsərlərin elmi dəstəkdən daha çox siyasi önəmi var idi. "Post-konflikt ərazilərin bərpası: konseptual əsaslar" kitabı belə bir gerçəyin ifadəsi idi ki, Qarabağda Azərbaycanın suverenliyinin bərpası mütləq gerçəkləşəcək. Bu mübarizədə Prezident İlham Əliyevin qətiyyəti ümumxalq istəyindən və iradəsindən güc alır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə bu nəşrin dünyanın əsas beyin mərkəzlərində təqdimatının təşkil edilməsi həmin kitabın dövlət siyasəti üçün nə qədər əhəmiyyətli olduğunun aydın göstəricisi idi. Bu təqdimatlar Böyük Britaniya Parlamentinin Lordlar palatasında (London), ABŞ Con Hopkins Universitetində (Vaşinqton), Avropa Parlamentində (Bürüssel), Rusiya Dövlət Humanitar Universitetində və Korinegi İnstitutunun Rusiya Nümayəndəliyində (Moskva) və Qafqazın Straeteji Tədqiqatlar İnstitutunda (Bakı) keçirilmişdir. Kitaba ön söz yazmış Con Hopkins Universiteti Mərkəzi Asiya və Qafqaz İnstitutunun rəhbəri professor Frederik Starın həmin təqdimatlada iştirakı siyasi mərkəzlərin diqqətini cəlb etmiş və böyük əks-səda doğurmuşdur.

Beləliklə, erməni işğalı zamanı Azərbaycana vurulmuş maddi ziyanı qiymətləndirmək üçün dövlət komissiyasına daxil olan çoxsaylı sənədlərin və xarici ekspertlərin hazırladığı hesabatların elmi əsaslarla qiymətləndirilməsi və yekun sənədin hazırlanması üçün Nazim Müzəffərlinin elmi məsləhətçi qismindədövlət komissiyasının işinə cəlb olunması təbii və gözlənilən idi. O, sənədin ən yüksək elmi-metodoloji səviyyədə hazırlanmasına laiqli töhfəsini vermişdir.

Vətən müharibəsində Böyük Zəfərdən sonra qaçqın və köçkünlərin işğaldan azad edilmiş torpaqlara qayıdışa münasibətlərini öyrənmək üçün təşkil olunmuş araşdırmaçılar qruplarının da əksıriyyətini İqtisadiyyat İnstitutunun əməkdaşları təşkil edirdi. ADA Universiteti və İqtisadiyyat İnstitutunun 3 mərhələdə birgə apardığı bu tədqiqatların nəticələri ölkə Prezidentinə təqdim edilmişdir. Həmin tədqiqatların təşkilati rəhbəri Fariz İsmayılov, elmi rəhbəri isə Nazim İmanov olublar.

Qarabağ tədqiqatları və post-konflikt ərazilərin öyrənilməsi Nazim Müzəffərlinin Azərbaycan iqtisad elmində açdığı yeganə istiqamət deyil. Hələ bundan əvvəl o 2 yeni istiqaməti də Azərbaycan iqtisad elmi üçün açmış və sonralar bu yöndə elmi məktəb formalaşdırmışdır. Bunlardan birincisi beynəlxalq müqayisələr sistemlərini öyrənmək və bu sferada Azərbaycanın mövqeyini gücləndirmək üçün tövsiyyələr işləyib hazırlamaq olmuşdur. İkincisi isə dövlətin iqtisadiyyatı tənzimləməsi sistemlərinin öyrənilməsi və tətbiq olunan tənzimləmə sistemlərinin hökümətlərin əldə rəhbər tutduğu sağçı və solçu ideyalogiyalarla nə qədər əlaqəli olduğunun öyrənilməsinə həsr olunan tədqiqatlardır.

İqtisadçı alimin 2006-cı ildə nəşr olunan "Azərbaycanın reytinqi (beynəlxalq elmi müqayisələrdə)" kitabı sonralar Azərbaycan alimlərinin böyük bir qrupunun diqqətinin bu sahəyə yönəlməsinə səbəb olmuş və çoxsaylı tədqiqatlar aparılmış və əsərlər çap edilmişdir. Öncə, Azərbaycanın siyasi düşmənlərinə tutarlı cavablar vermək arzusundan doğan belə tədqiqatlar sonralar ölkə iqtisadiyyatının mühüm problemlərinin aşkara çıxarılması və bu onların əsaslı həll edilməsi üçün təkliflərin hazırlanması işinə çevrildi. ETN İqtisadiyyat İnstitutunun əməkdaşlarının bu istiqamətdə apardığı çoxsaylı təqdiqatların nəticələri son illərdə 15 kitabda öz əksini tapmışdır.

Professor Nazim Müzəffərlinin 2014 ildə nəşr etdirdiyi "İqtisadiyyatın sosialyönlüyü: sağçı və solçu sistemlərdə" kitabı nəyinki iqtisad elminə, ümumiyyətlə dünya ictimaiyyət elmlərinə verilmiş qiymətli bir töhfə sayıla bilər. Bu əsərlə alim çox sadə bir həqiqəti məharətlə aşkara çıxardı və sübuta yetirdi: iqtisadi siyasətin və seçilmiş dövlət tənzimləməsi mexanizmlərinin real nəticələri hökumətlərin və partiyaların əllərində rəhbər tutduğu ideyalogiyalarla heç bir əlaqəsi yoxdur!

Yəni sağçı ideyalarla çıxış edən hökumətlər solçu siyasətçilərin arzusunda olduğu iqtisadi nəticələrə, solçu ideyalarla çıxış edən hökumətlər isə öz fəaliyyətləri ilə sağçı siyasətçilərin arzuladığı iqtisadi nəticələrə gəlib çıxa bilərlər. Yəni, real iqtisadi siyasətin hansı nəticələrə gətirib çıxaracağı siyasətçilərin və hökumətlərin hansı ideyalogiyalarla çıxış etməklərindən, hansı şüarları səsləndirməklərindən qətiyyən asılı deyil.

Nəticələrin müəyyənliliyi ancaq siyasi fəaliyyətin yekunu kimi özünü konkret iqtisadi göstəricilərdə, əhalinin sosial durumunu əks etdirən müəyyən parametrlərdə tapır. Nazim Müzəffərli irəli sürdüyü metodika siyasətçilərin dedi-qodusuna uymamağa, qəbul olunan qərarların hansı nəticələrə gətirib çıxarmasına və bu nəticələrin konkret ölkənin ictimai-iqtisadi inkişafı baxımından nə qədər əhəmiyyətli olduğuna diqqət yetirməyə imkan verir.

Təsadüfü deyil ki, Nazim müəllimin bu kitabının nəşrindən keçən çox qısa bir zaman ərzində həm respublikada, həm də ölkənin hüdudlarından kənarda geniş əks-səda salmış, çoxsaylı tədqiqatların, məqalə və kitabların ortaya çıxmasına səbəb olmuşdur. Təxminən, 10 il ərzində (2006-2014) üç çox perspektivli elmi istiqamətin açılıb müəyyənləşdirilməsi və sonrakı 10 ildə (2015-2025) bu üç istiqaamətdə üç elmi məktəbin formalaşdırılması iqtisad elmində qeyri-adi bir nəticədir. Eyni zamanda məntiqi bir məticədir.

Bu nəticələr Nazim İmanovun fitri istedadı, ilk elmi tədqiqatlarının üsyankar ruhu, milli azadlıq hərəkatının sayılıb-seçilən liderlərindən biri kimi keçdiyi mübarizə yolu, Milli Məclisin deputatı kimi əldə etdiyi dövlətçilik təcrübəsinin elmə ikinci qayıdışdan sonra yenidən süzgəcdən keçirilməsindən, Azərbaycanda yeni iqtisadiyyat quruculuğuna əhəmiyyətli töhfə vermək arzusundan qaynaqlanmışdır. Onu hələ cavan yaşlarından tanıyan, istedadlı alim, ədalətli insan, milli və dövlətçi vətəndaş olduğunu hiss edənlər həyatda yüksək nəticələr əldə edəcəyinə inanırdılar.

1982-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda professor Mədət Allahverdiyevin rəhbərlik etdiyi siyasi iqtisad şöbəsində yazdığı namizədlik dissertasiyası böyük əks-səda doğurmuşdur. Onun ilk kitabı "Təbiətdən istifadə sferasının iqtisadi münasibətləri" Moskva 1987 (rus dilində) "Lenin komsomolu" mükafatına layiq görülməklə o dövr üçün çox böyük bir uğur sayılmışdı. Bakı Ali Partiya Məktəbinin dosenti və Moskva İctimai Elmlər Akademiyasının doktorantı kimi yazdığı marksizmin özəyi olan əmək dəyər nəzəriyyəsinin məhdudluğu, bu nəzəriyyənin yeni yanaşmalarla inkişaf etdirilməsinin zərurətə çevrildiyi sübuta yetirilmişdi.

Xoşbəxtlikldən köhnə imperiya ülider Heydər Əliyevin başçılığı ilə 10 il müddətində həyata keçirilən və son 12 ildə Prezident İlham Əliyevin inamla davam etdirdiyi yeni iqtisadiyyat quruculuğu siyasətinin ən fəal iştirakçılarından biri kimi dövlət müstəqilliyimizə öz töhfələrini verə bildi.

Bakı Ali Partiya Məktəbi bazasında Bakı Politologiya və Sosial İdarəetmə İnstitutu yaradılanda Nazim Müzəffərli bu ali məktəbin elmi işlər üzrə prorektoru təyin olunmuşdu. O, tədqiqat istiqamətlərinin, tədris proqramlarının yenilənməsi prosesinin yönləndirilməsi və təşkili işlərinə rəhbərlik etmişdi. Sonralar bu elmi-metodiki baza əsasında Azərbaycan Prezidenti yanında İdarəetmə Akademiyası təsis olunmuşdu.

1995-ci ildə Azərbaycan respublikası Milli Məclisinin deputatı seçiləndə Nazim Müzəfərli gənc respublikanın iqtisadi inkişafını təmin edəcək islahatların sistemyaradıcı qanun layihələrinin hazırlanmasında yaxından iştirak etmişdi. Bu layihələrin son müzakirələrini, bir qayda olaraq, Ümummilli Liderimiz Heydər Əliyev özü aparırdı, layihə müəlliflərinə çoxsaylı suallar verirdi və bu cavablara çox diqqətlə yanaşırdı. Bu yeni iqtisadiyyatın ümumi modelinin və əsas parametrlərinin çox lakonik və elmi-populyar təsvirini Nazim Müzəffərli (İmanov) 1999-cu ildə çap etdirdiyi "İqtisadi etüdlər" kitabında şərh etmişdir.

Görkəmli iqtisadçı 10 il əvvəl AMEA İqtisadiyyat İnstitutuna rəhbər təyin olunduqdan sonra Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların yolunda maneələrin tədqiq edilməsinə, səmərəli həllərin axtarılmasına çalışmışdır. O, səmərəli nəticələr əldə etmək üçün institutda sağlam və yaradıcı atmosfer formalaşdıra bilmişdir. Nazim Müzəffərlini meyar və tələbi belədir: dövlət orqanlarının işinə səmərəli yardımçı olmaq, institutun hazırladığı hər bir tədqiqatı, təklifi, tövsiyəni yüksək səviyyədə əsaslandırmaq.

Digər prinsipial yanaşma kimi Müdafiə Şurasına çıxarılan dissertasiya işlərinin elmi səviyyəsinin yüksək olması, Şuranın işində aşkarlığın təmin olunması tələbini göstərmək olar. Məhz bu cür məsuliyyətli yanaşmanın nəticəsidir ki, institut kollektivi dövlət orqanlarının etimadını qazana bilmiş, inzibati rayonların icra hakimiyyətləri və Prezidentin işğaldan azad olunmuş ərazilərdəki xüsusi nümayəndələrindən başlamış dövlət komitələri, nazirliklər və hökumət komissiyası səviyyəsində dövlət orqanlarının müraciət etdikləri elmi mərkəzə çevrilmişdir.

Milli və dövlət maraqlarımıza xidmət edən bu nəticələr Professor Nazim İmanovun nəyinki milli-mənəvi baxışlarının və dövlətçilik mövqeyinin, üstəlik, möhkəm iradəsinin və hədsiz çalışqanlığının bəhrəsidir.

***Azər SƏFƏROV,***
***ETN İqtisadiyyat İnstitutu Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri, dosent***

BEYNƏLXALQ HƏYAT

# Hindistan–Pakistan: Su qıtlığı qarşıdurmanı artırır



**Nüvə gücləri olan Hindistan və Pakistan arasında gərginlik 2025-ci ilin aprel ayının sonlarında yenidən alovlandı və Hind çayında su ehtiyatları ilə bağlı uzun müddət davam edən mübahisənin yeni münaqişəyə səbəb olub-olmayacağı ilə bağlı suallar doğurdu. Bu, Hindistanın Cammu və Kəşmirdəki terror aktından sonra 1960-cı il Hind Su Müqaviləsinin (IWT) dayandırıldığını elan etməsindən sonra baş verir.**

Xatırladaq ki, Dünya Bankının vasitəçiliyi ilə Hind Suları Müqaviləsi Hind çayının və onun qollarının sularının iki ölkə arasında bölüşdürülməsini tənzimləyir. Müqaviləyə əsasən, Hindistan üç şərq çayının (Ravi, Sutlej, Beas) sularına və Pakistan üç qərb çayının (Hind, Jelum, Çenab) sularına nəzarət etmək hüququ əldə etdi. İki ölkə arasında çoxsaylı münaqişələrə və böhranlara baxmayaraq, müqavilə transsərhəd su mübahisələrinin sülh yolu ilə həllinin bir neçə uğurlu nümunəsindən biri hesab edilən altı onillikdən çox müddət ərzində qüvvədə qaldı. Bununla belə, bu illər ərzində əsasən Hindistanın qərb çaylarında hidroelektrik layihələri tikməsi ilə bağlı fikir ayrılıqları olmuşdu ki, Pakistan da kənd təsərrüfatı üçün həyati əhəmiyyət kəsb edən su axınının azalmasından ehtiyat edərək, aşağı axın ölkəsi kimi bundan narahatlığını bildirir.

Hindistanın 2025-ci ilin aprelində müqaviləni dayandırması iki ölkənin münasibətləri tarixində görünməmiş bir addım oldu. Yeni Dehli bu addımın Pakistanın "sərhədyanı terrorizmə" verdiyi dəstəyə cavab olduğunu, su problemini birbaşa təhlükəsizlik və terrorizm məsələləri ilə əlaqələndirdiyini, bunun əvvəllər qarşısını aldığını söylədi. Buna cavab olaraq Pakistan sərt ifadələrlə çıxış edərək, Hindistanın Pakistan üçün nəzərdə tutulan suları bağlamaq və ya yönləndirmək cəhdini "müharibə aktı" adlandırdı.

Su hər iki ölkə üçün, xüsusən də kənd təsərrüfatı Hind çayına əsaslanan Pakistan üçün kritik bir mənbədir. Artan əhali, buzlaqlara təsir edən iqlim dəyişikliyi (Hind çayının mənbəyi) və zəif su idarəçiliyi ilə su təhlükəsizliyi getdikcə daha vacib məsələyə çevrilir. Bununla belə, ekspertlər su böhranının iki nüvə dövləti arasında genişmiqyaslı müharibəyə səbəb olub-olmayacağı ilə bağlı eyni proqnozları səsləndirmilər. Bəzi mütəxəssislərin sözlərinə görə, su müqaviləsinin dayandırılmasına baxmayaraq, Hindistanın Pakistana su təchizatını tamamilə kəsmək üçün təcili infrastrukturu yoxdur, xüsusən də müqavilənin böyük su anbarlarının tikintisini məhdudlaşdırdığı qərb çayları boyunca bu addımı atmaq imkanlarına malik deyil. Belə infrastrukturun qurulması əhəmiyyətli vaxt və investisiya tələb edir, eyni zamanda, seysmik cəhətdən aktiv bölgələrdə Hindistanın özü üçün risklər yarada bilər.

Bundan başqa, iki nüvə dövləti arasında tammiqyaslı hərbi münaqişə hər iki tərəf və bütövlükdə region üçün fəlakətli nəticələrə səbəb ola bilər və bu da ciddi çəkindirici rol oynayır. Eyni zamanda, iqlim dəyişikliyi ilə kəskinləşən su mübahisələri Pakistanda mövcud gərginliyi, iqtisadi qeyri-sabitliyi və sosial narazılığı gücləndirə bilər, potensial olaraq ümumi qeyri-sabitliyə töhfə verə bilər və lokal atışma və ya böhran riskini artıra bilər. Lakin böyük müharibənin yeganə və ya birbaşa səbəbi ola bilməz. Münaqişə çox güman ki, terrorizm, ərazi mübahisələri (xüsusilə Kəşmirlə bağlı) və ümumi geosiyasi gərginlik də daxil olmaqla, amillərin birləşməsindən qaynaqlana bilər.

Hindistanın Hind Suları Müqaviləsini dayandırması narahatedici bir hadisə olsa və ölkələr arasında münasibətlərdə gərginliyi artırsa da, çəkindirici faktor və texniki məhdudiyyətlər səbəbindən ənənəvi mənada açıq şəkildə "su müharibəsi" qısa müddətdə mümkün olmayan ssenari olaraq qalır. Bununla belə, su məsələləri, xüsusilə Hindistan və Pakistanın üzləşdiyi daha geniş mübahisələr və problemlər kontekstində əsas gərginlik mənbəyi və böhranlar üçün potensial katalizator olmaqda davam edəcək. Su ehtiyatlarının idarə edilməsi və bu sahədə gərginliyin azaldılması yollarının tapılması regional sabitlik üçün kritik olaraq qalır.

*S.ELAY*
*XQ*

# Erməni hərbçilər Qarabağı "mina tələsi"nə çevirmişdilər



**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 29-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib, onları məhkəmə tərkibi, tərcüməçilər, katiblər, dövlət ittihamçıları və digərləri ilə tanış edib.

Sonra təqsirləndirilən Ruben Vardanyan və onun vəkili Avraam Berman məhkəmə kollegiyasına etiraz ediblər.

Təqsirləndirilən şəxsin müdafiəçisi A.Berman etirazı əsaslandıran zaman əvvəlki məhkəmə proseslərində verilən çoxsaylı vəsatətlərinin bir qisminin təmin olunmadığını, eləcə də hazırkı vaxtadək olan bütün məhkəmə iclas protokolları ilə tam tanış ola bilmədiklərini qeyd edərək, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olduğunu və bu səbəbdən məhkəmə kollegiyasına etiraz etdiklərini deyib.

R.Vardanyan etirazı müdafiə edib.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək deyib ki, qeyd olunan məsələlərlə bağlı məhkəmə əvvəlki proseslərdə artıq mövqeyini ifadə edib. O əlavə edib ki, məhkəmə iclas protokolları ilə tanış olmaq üçün müdafiə tərəfinə lazımi şərait yaradılır. V.Əliyev, həmçinin deyib ki, ümumilikdə bu cür əsaslar, yəni, müdafiə tərəfinin vəsatətlərinin məhkəmə tərəfindən təmin olunmaması işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olması qənaətinə gəlməyə əsas verə bilməz.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

Belə ki, iclasa sədrlik edən qərarı əsaslandıran zaman diqqətə çatdırıb ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret dəlillər təqdim etməyib.

Sonra zərərçəkənlər məhkəmədə ifadə veriblər.

Zərərçəkmiş şəxs Nurlan Bağırov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edərkən hərbçi yoldaşları ilə birlikdə Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələrinin hücumuna məruz qaldığını bildirib. N.Bağırovun sözlərinə görə, hadisə zamanı onlara atəş açılıb, əl qumbaraları atılıb. Nəticədə onun 14 hərbçi yoldaşı (Daxili Qoşunların 12, Müdafiə Nazirliyinin 2 nəfər hərbi qulluqçusu) şəhid olub, hərbçilərin bir hissəsi yaralanıb. N.Bağırov özünün də hadisə zamanı yaralandığını bildirib.

Digər zərərçəkmiş şəxs Şamil İsrəfilov da yaralandığını qeyd edərək deyib: "Odlu silahlardan atəş açırdılar, üzərimizə qumbara atırdılar. Qumbara partlaması nəticəsində yaralandım".

Ş.İsrəfilov dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən hadisə zamanı hərbçi yoldaşlarından 14 nəfərinin şəhid olduğunu, 24 nəfərin isə yaralandığını söyləyib.

Zərərçəkmiş şəxs Vüsal Eyyubov ifadəsində Ermənistan hərbçilərinin odlu silahdan açdıqları atəş nəticəsində yaralandığını diqqətə çatdırıb. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab olaraq hadisə zamanı hərbçi yoldaşları arasında şəhid olanların və yaralananların olduğunu da bildirib.

Zərərçəkmiş Taciəddin Kərimov "N" saylı hərbi hissənin hərbi qulluqçusu kimi əvvəllər Tərtər rayonunun inzibati ərazisinə daxil olmuş, hazırda isə Ağdərə rayonuna aid olan Talış kəndi istiqamətində xidmət zamanı mina partlayışı nəticəsində xəsarət aldığını bildirib. Vurğulayıb ki, həmin vaxt o, xidmət yoldaşları ilə birgə azad edilmiş ərazilərdə təminat yolu açmaq üçün sahənin minalardan təmizlənməsi prosesi ilə məşğul olublar. Növbəti minanın zərərsizləşdirilməsi zamanı partlayış baş verib və o yaralanıb. Zərərçəkən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında bildirib ki, həmin sahədə 59 mina zərərsizləşdiriblər. Aşkarlanan minalar son illər basdırılan və Ermənistanın istehsal etdiyi minalar olub. Zərərçəkmiş şəxs daha sonra bildirib: "Hadisə zamanı hərbçi yoldaşlarım aralıda olduğuna görə onlar yaralanmadılar".

Zərərçəkmiş şəxs Cavanşir Sultanov ifadəsində Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qanunsuz erməni silahlı birləşmələrinin təxribatının qarşısını alan zaman yaralandığını deyib.

Zərərçəkən Seymur Ağakərimov isə ifadəsində erməni hərbçilərinin atdıqları minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını vurğulayıb.

Zərərçəkmiş Vaqif Babayev Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı olduğunu, Zəngilan rayonunda xidməti vəzifələrini yerinə yetirən zaman mina partlaması nəticəsində xəsarət aldığını qeyd edib. Onun sözlərinə görə, zirehli texnika ərazidə iş apararkən tankəleyhinə minaya düşüb. Həmin vaxt yaxınlıqda olduğu üçün o, müxtəlif xəsarətlər alıb. Zərərçəkən şəxs dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırarkən Ermənistanın mina terrorundan daha çox günahsız mülki insanların əziyyət çəkdiyini söyləyib.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası mayın 6-na təyin olunub.

*XQ*

Tibbi aksiya

# Gözünüz nurlu olsun, jurnalistlər!

**"Modern" Media Qrupu ilə Azərbaycan Tibb Universitetinin ortaq sosial layihəsi çərçivəsində jurnalistlər üçün ödənişsiz göz əməliyyatı təşkil olunub.**

Azərbaycan oftalmologiyasının görkəmli nümayəndəsi akademik Zərifə Əliyevanın doğum günü ərəfəsində bu xeyriyyə aksiyası davam etdirilib.

Aksiya zamanı 65 jurnalist müayinələrdən keçirilib. Onların 10-a yaxını üzərində ATU-nun Tədris Cərrahiyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılov və dosent Hafiz Qəhrəmanov tərəfindən müxtəlif göz əməliyyatları icra edilib. Sosial layihə çərçivəsində media nümayəndələri üçün aksiyanın ikinci hissəsi mayın 10-da aparılacaq.

Xatırladaq ki, tanınmış oftalmoloq Qurban İsmayılov mütəmadi olaraq ödənişsiz aksiyalar həyata keçirir ki, bu sırada şəhid ailə üzvləri, qazilər və müharibə veteranları xüsusi yer tutur.

*Qəzənfər QASIMOV*
*XQ*




## "DDLAR İnşaat" QSC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

manatla

| Aktivlər | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| Torpaq, tikili, maşın və avadanlıqlar | 47866,78 | 53262,38 |
| **Cəmi uzunmüddətli aktivlər** | **47866,78** | **53262,68** |
| Ehtiyatlar | 488172,34 | 1321392,58 |
| Debitor borcları | | 63315,51 |
| Gələcək dövrün xərcləri | 5235684,24 | 5836381,54 |
| Sair qısa müddətli aktivlər | 1245135,53 | 1121392,45 |
| Pul vəsaitləri və onlarn ekvialentləri | 86212,95 | 187586,54 |
| **Cəmi qısamüddətli aktivlər** | **7055205,06** | **8530068,62** |
| **Cəmi aktivlər** | **7103071,84** | **8583331,00** |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2 000,00 | 2 000,00 |
| **Cəmi kapital** | **2 000,00** | **2 000,00** |
| Alınmış avanslar | 1074459,48 | 2625229,15 |
| Qısamüddətli kreditor borcları | 487469,85 | 164240,85 |
| Sair qısamüddətli öhdəliklər | 5539142,51 | 5791861,00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **7101071,84** | **8581331,00** |
| **Cəmi öhdəliklər** | **7101071,84** | **8581331,00** |
| **Cəmi kapital və öhdəliklər** | **7103071,84** | **8583331,00** |

**Məcmu Gəlirlər Haqqında Hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 12167545,97 | 1021482,95 |
| **Ümumi mənfəət** | **12167545,97** | **1021482,95** |
| Kommersiya xərcləri | (11696210,96) | (2373406,66) |
| Digər xərclər | (348961,71) | (29830,80) |
| Vergiqoymadan əvvəl mənfəət | **122373,30** | **(1381754,51)** |
| Keçmiş ilin zərəri (2023-cü il) | 122373,30 | |
| **Hesabat dövründə xalis mənfəət** | **0,00** | **(1381754,51)** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Nizamnamə kapitalı | Cəmi kapital |
|---|---|---|
| **1 yanvar 2024-cü il** | **2000.00** | **2000.00** |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **2000.00** | **2000.00** |

**Pul vəsaitlərinin hərəkəti hesabatı – dolayı metodla**

| | 31 dekabr 2024-cü il | 31dekabr 2023 -cü il |
|---|---|---|
| Hesabat dövrü üzrə xalis mənfəət | 122373,3 | -1381754,51 |
| Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya | 15955,67 | 17754,24 |
| Material ehtiyatlarının artması (azalması) | 833220,24 | -1143235,39 |
| Sair qısamüddətli aktivlərdə artma (azalma) | -123743,08 | -547494,78 |
| Sair qısamüddətli öhdəliklərdə artma | 252718,49 | -597800,00 |
| Debitor borclarının artması (azalması) | 63315,51 | 145777,39 |
| Kreditor borclarının artması (azalması) | -323229,00 | 185249,52 |
| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti | **840611,13** | **-3321503,53** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis hərəkəti** | **101373,59** | **184095,04** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | **187586,54** | **3491,50** |
| **İl ərzində pul vəsaitlərinin artması (azalması)** | **101373,59** | **184095,04** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna qalığı** | **86212,95** | **187586,54** |

**"DDLAR İNŞAAT" Qapalı Səhmdar Cəmiyyətinin təsisçilərinə:**
**Müsbət Rəy**

***Mən, "DDLAR İNŞAAT" QSC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətinə aid hesabatından, məcmu gəlirlərə aid hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam*.**

***Məncə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Mən, auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərimə əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görərə rəhbərliyin və cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarə etməyə məsul şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim olunması prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş İCAZƏ (Lisenziya) SA/281 25 avqust 2022-ci il.**

**18 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının sərbəst auditoru: Abbasov Çingiz Abbas oğlu**


Bir fotonun xatırlatdıqları

# Hanı Bakının o vaxtkı azarkeşləri?

**Təsadüfən qarşıma çıxan və bizi 66 il əvvələ qaytaran fotonu hörmətli həmkarım Anar Tağıyevin feysbuk səhifəsində gördüm. "Bakının futbol azarkeşləri" başlığı ilə müşayiət olunan şəkil 1959-cu ildə çəkilib. Müəllifi Sahib Axundzadədir.**



Dərhal üzümüzə təbəssüm gətirən foto lentə alınanda hazırda dünya şöhrətli hakimimiz Tofiq Bəhramovun adını daşıyan Respublika stadionunun cəmi 8 yaşı var idi. Bu gün isə 1951-ci ildən bəri qapılarını azarkeşlərin üzünə taybatay açan gözəl idman qurğusu 74-cü baharı ilə nəfəs alır.

İstifadəyə verildiyi gündən bəri SSRİ çempionatlarında "Neftçi"nin yüzlərlə oyununa şahidlik etmiş bu stadion milyonlarla azarkeş üçün xatirələrlə dolu əsl futbol məbədgahıdır.

Fotodakı insanların Azərbaycan futbolu flaqmanının hansı rəqiblə görüşünü izlədikləri məlum deyil. İndi bunu araşdırmağa ehtiyac da yoxdur. Amma şəkildən aydın görünür ki, həmin axşam tribunalardakı tamaşaçılar, xüsusən də, ön plandakı üç gənc bütün varlıqları ilə oyunun içindədir.

O illərdə respublikada heç kim "Neftçi"nin yüksək texnikalı oyununa, sürətli hücumlarına biganə deyildi. Bütünlüklə Azərbaycan futbolunun yetirmələrindən ibarət komanda istənilən rəqibə qarşı fədakarlıqla mübarizə aparırdı. Əhalisinin sayı 300 milyon nəfərə çatan Sovet İttifaqı kimi nəhəng ölkənin çempionatı isə Avropada ən güclü çempionatlardan biri sayılırdı. Təbii ki, belə yarışda layiqincə mübarizə aparmaq yüksək ustalıq tələb edirdi.

Bu gün isə "Neftçi" heç Azərbaycan Premyer Liqasında da özünü göstərə bilmir. Budur, daha bir mövsüm itirildi. Komanda artıq finişin astanasında olan növbəti çempionatda pərəstişkarlarını sevindirməkdən çox, məyus edir. Elə kubok arzusu da arzu olaraq qaldı.

Onda "Neftçi"mizin hər oyunu onu sevənlər üçün əsl bayram idi. Adətən, saat 19-da başlayan görüşlərə vaxtında çatmaq üçün bəzən məktəbdə, institutda, istehsalat kollektivlərində müəllimlərimizdən, müəssisə rəhbərlərindən 1-2 saatlığa icazə almaq lazım gəlirdi.

Qələbə qazanıldıqda isə ertəsi gün hamı iş yerinə yüksək əhval-ruhiyyə ilə gedir, əmək kollektivlərində fəallıq və məhsuldarlıq qat-qat artırdı.

İndiki "Neftçi" ilə də heç olmasa, yaxın gələcəkdə o uzaq illərdəki kimi qürur duymaq istəyirik…

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 86 (30780) 30 aprel 2025-ci il, çərşənbə



## “Prezident Kuboku–2025”in rəsmi paradı keçirilib



**Aprelin 29-da akademik avarçəkmə, kayak və kanoe üzrə “Prezident Kuboku-2025” beynəlxalq turnirində iştirak edən komandaların rəsmi paradı və təqdimatı keçirilib.**

Şəhərin mərkəzində təşkil olunan parada Azərbaycanla yanaşı, Estoniya, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, Hindistan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Polşa, Serbiya, Cənubi Afrika Respublikası, İspaniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistan komandaları qatılıblar. Rəsmi hissədən sonra müxtəlif rəqs və musiqi nömrələri təqdim olunub. Turnir iştirakçıları ansamblla birlikdə rəqsə qoşulublar.

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək Ümummilli liderin xatirəsinə ehtiramlarını bildiriblər.

Bu gün Qarabağın daha bir dilbər guşəsi olan Suqovuşanda “Prezident Kuboku-2025” beynəlxalq reqatasının rəsmi açılış mərasimi və 200 metr məsafədə yarışlar keçiriləcək. Reqata mayın 1-2-də Mingəçevir “Kür” Olimpiya Tədris-İdman Mərkəzində davam edəcək. Burada komandalar avarçəkmənin kayak, kanoe və akademik növündə müxtəlif məsafələrdə mübarizə aparacaqlar.

## Azərbaycanda yeni voleybol klubu



**Ölkəmizdə yeni yaradılan qadın voleybolçulardan ibarət “DH Volley” klubunun təqdimat mərasimi keçirilib. Tədbirdə klubun məşqçi və oyunçuları ilə müqavilə imzalanıb.**

Klubun prezidenti Şərəf Yalçın mətbuat konfransında çıxışı zamanı bildirib ki, “DH Volley” güclü və iddialı heyətlə yeni bir dövrə qədəm qoyur: “İlk mövsümdə yalnız yerli yarışlarda deyil, beynəlxalq arenada da mübarizə aparmaq istəyirik. Buna görə də, heyətimizi həm Azərbaycan milli komandasının üzvləri, həm də Avropa təcrübəsinə malik elit oyunçularla gücləndirdik. Bu oyunçularla çempionluq yarışında ən güclü namizədlərdən biri olacağımıza inanırıq”.

Klubun rəsmisi deyib ki, əsas məqsədləri qısa müddətdə ölkə voleyboluna dəyər qatmaq, uzun müddətdə isə “DH Volley”i Avropada mübarizə aparan, tanınan və hörmət edilən bir brendə çevirməkdir.

“DH Volley” klubunun baş məşqçisi Fərid Cəlalovdur. Komandanın heyətinə Aynur İmanova, Katerina Jidkova, Ceyran İmanova, Nilufər Ağazadə və Raziyə Əliyeva kimi təcrübəli voleybolçular cəlb edilib.

*L.AZAD*
*XQ*

## Bakı Marafonunda rekord

**“Bakı Marafonu 2025”ə qeydiyyat başa çatıb. Mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçiriləcək marafona 27 min iştirakçı qeydiyyatdan keçib. Bu, ötənilki marafonlarla müqayisədə ən yüksək iştirakçı sayıdır.**




“Küləyə qalib gəl”ənlər sırasında Azərbaycan vətəndaşları ilə yanaşı, digər ölkələrdən qoşulanlar da olacaq. Yürüşdə fiziki imkanları məhdud şəxslər, Daun sindromlu uşaqlar da iştirak edəcəklər.

Start və finiş nöqtələri Dövlət Bayrağı Meydanı olan marafonun marşrutu Dənizkənarı Bulvar, o cümlədən paytaxtın mərkəzi küçə və prospektləri olmaqla, ümumilikdə 21 km məsafəni əhatə edəcək. Marafon iştirakçıları qaçış zolağında kişi və qadın kateqoriyalarında ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Bununla yanaşı, finişə çatan ilk 2000 iştirakçıya medallar, bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə isə sertifikatlar təqdim olunacaq.

*L.HADİ*
*tələbə*

# Peşəkar futbolçular şagirdlərlə oynadılar



## *Bu görüş şəfqətə ehtiyacı olan uşaqlara bir dünya sevinc bağışladı*

**Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlamlığı, bacarıqlarının inkişaf etdirilməsi, cəmiyyətə inteqrasiyası, asudə vaxtlarının səmərəli təşkili məqsədilə ölkəmizdə ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Premyer Liqasının XXXII turu çərçivəsində “Sumqayıt” – “Neftçi” futbol komandalarının qarşılaşmasından əvvəl bu klubların oyunçuları ilə Sağlamlıq İmkanları Məhdud Uşaqlar Üçün Xüsusi Məktəbin daun sindromlu uşaqları arasında dostluq matçı bu sıradan daha bir maraqlı görüş olub.**

Hər iki komandanın futbolçuları meydana üzərində “Fərqli deyil, xüsusiyik!” yazısı ilə çıxıblar. Yoldaşlıq oyununda və qarşılaşmanın startı ərəfəsində futbolçuları müşayiət edən uşaqlar da meydana bu şüarı əks etdirən formalarla daxil olublar. Neft Şirkətinin “Sosial qayğı proqramı” çərçivəsində təşkil edilən bu oyunu xüsusi qayğıya ehtiyacı olan bu uşaqlar üçün ilk belə tədbir idi.

“Sumqayıt” və “Neftçi” klublarının futbolçuları oyuna uşaqların müşayiəti ilə çıxıblar. Yeniyetmələr valideynləri ilə birgə “Sumqayıt” və “Neftçi” futbol klublarının qarşılaşmasını izləyiblər. Sonra hər iki klubun sponsorları, tərəfdaşlar və təşkilatçılar uşaqlara hədiyyələr təqdim ediblər.

Sumqayıt Xüsusi Ümumitəhsil Məktəbinin direktoru Arzu Alızadə “Xalq qəzeti”nə açıqlamasında budəfəki tədbirə daun sindromlu uşaqların dəvət aldıqlarını bildirdi:

“Məktəbimizdə autizm, yüngül əqli geriliyi və daun sindromu olan uşaqlar təhsil alırlar. 9 illik məktəb olsaq da, xüsusi istedadı olan uşaqların 10-cu sinifdə təhsil almasına imkan yaradırıq. Şagirdlərimiz Xüsusi Olimpiya Komitəsinin yarışlarında iştirak edirlər. Futbol, voleybol, basketbol komandalarımız var. Ölkə yarışlarında mükafata layiq yerlər tuturuq. Uşaqların idmanla məşğul olması üçün məktəbdə hər bir şərait var. Komandalarımız meydança və idman zalında məşq edir, oyunlar keçirirlər.

Şagirdlər görüş və yarışlarda iştirak etməyə böyük maraq göstərirlər. Onlar ilk dəfə idi belə bir açılışda və dostluq matçında iştirak edirdilər. Uşaqlarla yanaşı, valideynlər də məmnun qaldılar. Oyun günü hava soyuq olsa da, onların heç biri bunu hiss etmirdi. Bu görüş onların həyatında, bəlkə də, ən yaddaqalan hadisələrdən biri oldu”.

Arzu Alızadə onu da bildirdi ki, bir neçə ay bundan əvvəl “Sumqayıt” Futbol Klubu və “Azərikimya” İB-nin təşəbbüsü, “Kapital Bank”və “Paşa Həyat Sığorta” ASC-lərinin dəstəyi ilə şagirdlər futbolçularla görüşmüş, onlarla oynamağı arzu etmişdilər.

Oyunun startında topa ilk rəmzi toxunuş edən Anar Abbasov və Natiq Xalidovun da fikirləri maraqlıdır. Anarın da Natiqin də 15 yaşı var. Hər ikisi hücumçudur.

Anar bildirdi: “Əsl futbol oynadıq. Sonacan mübarizə apardıq”. Natiq isə dedi: “Yenə də oynamaq istəyirik. Biz futbolu çox sevirik. Hamı bizi alqışladı. Deməli yaxşı oyun göstərdik”.

“Sumqayıt” Futbol Klubunun mətbuat xidmətinin rəhbəri Zaur Xudiyev layihənin daun sindromlu uşaqlar üçün motivasiya mühiti formalaşdırmaq məqsədi daşıdığını dedi. O qeyd etdi ki, belə görüş və tədbirlər uşaqlarda özünəinam hissinin artırılması, eyni zamanda cəmiyyətdə inklüzivlik dəyərlərinin təşviqi baxımında xüsusilə mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, daun sindromlu insanlar, o cümlədən uşaqlar ölkəmizdə tam dövlət qayğısı ilə əhatə olunub. Onların hüquqlarının müdafiəsi, reabilitasiyası, bacarıqlarının və vərdişlərinin inkişaf etdirilməsi ilə bağlı məsələlər daim diqqətdə saxlanılır.

*Leyla QURBANOVA*
*XQ*



# Çatmayanda vitamin – durumun olar çətin

**İnsanda narahatlıq yaradan səbəb çoxdur. Emosional vəziyyəti isə orqanizmdə müəyyən vitamin və mineralların çatışmazlığı törədə bilər. Bu barədə psixiatr Yekaterina Safranovanın fikirləri maraqlıdır.**



Həkim bildirib ki, vitamin çatışmazlığı sinir sisteminin fəaliyyətini pozur, narahatlığı artırır, panik atak və hətta depressiyaya səbəb olur. Bu halları aradan qaldırmaq üçün D vitamini son dərəcə vacibdir. O, serotonin və dofaminin sintezində iştirak edir. D vitamini çatışmazlığı ürək-damar, endokrin və hətta neyrodegenerativ xəstəliklər də daxil olmaqla, bir sıra nasazlıqlar yaradır. Azlığı mövsümi depressiya, xroniki yorğunluq, yuxululuq və narahatlıq da gətirir. Həkim D vitamini çatışmazlığının əlamətləri arasında yuxu pozğunluğu, əzələ zəifliyi, tez-tez baş verən soyuqdəymələri də qeyd edib.

Psixiatrın sözlərinə görə, B qrup vitaminlərin (B6, B9, B12) çatışmazlığı isə əsəbilik yaradır. B6 vitamini beyinin həddindən artıq həyəcan, B9 və B12 isə depressiya riskini azaldır. Bu vitaminlər çatmayanda əsəbilik, başgicəllənmə, əl-ayaqda uyuşma, yaddaşsızlıq əmələ gəlir.

Maqnezium çatışmazlığı həyəcana reaksiyanı artırır. Sink azlığında insan tez-tez infeksiyalara yoluxur, saç tökülür, yaralar gec sağalır.

Psixiatrın tövsiyəsinə görə, bu vitamin və mineralların çatışmazlığını müəyyən etmək üçün qanda D, B6, B9, B12 vitaminləri və sinkin miqdarı yoxlanmalıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

## Yağmursuz və dumanlı...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 8-11° , gündüz 15-19° isti olacaq.

Atmosfer təzyiqi normadan 769 mm civə sütunundan 763 mm civə sütuna enəcək, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-10°, gündüz 16-21° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-8° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



# Nəğməli uşaqların Biləsuvar təqdimatı

**Dünən Biləsuvar rayonunda Uşaq İncəsənət Festivalına həsr olunan konsert keçirilib. Əvvəlcə uşaq və gənc yaradıcıların əl işləri, təsviri və tətbiqi sənət nümunələri sərgilənib, onların bacarıqları nümayiş etdirilib.**

İncəsənət məktəbinin şagirdləri Heydər Əliyev parkının mənzərələrini kağız və kətan üzərinə köçürüblər. İştirakçılarla əyləncə guşələrində interaktiv proqramlar keçirilib. Sonra konsert təqdim olunub.

Konsert proqramından sonra Əməkdar müəllim İkram Bayramov incəsənət məktəblərinin Xalq çalğı alətləri sinfinin şagirdlərinə ustad dərsi keçib.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3432
SİFARİŞ 875
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00